# DƏDƏ QORQUD DASTANLARI

BAKI – 2005

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına
Əlyazmalar İnstitutu

# DƏDƏ QORQUD DASTANLARI

## (UŞAQLAR ÜÇÜN)

**BAKI – NURLAN – 2005**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 17 iyun 2005-ci il tarixli 6 №-li iclasının qərarı ilə nəşr edilir.

Drezden əlyazmasının dürüstləşdirilmiş elmi mətni
əsasında uşaqlar üçün işləyəni:
Şamil Cəmşid,
filologiya elmləri doktoru

Redaktoru: Möhsün Nağısoylu,
filologiya elmləri doktoru

Rəssamı: Fəxrəddin Məmmədvəliyev

Kompüter icraçısı: Hüsniyyə Quliyeva

Müəllif hüququ toxunulmazdır.

İkinci nəşri – 2005
Birinci nəşri – «Maarif» nəşriyyatı –1980

**Dədə Qorqud dastanları (Uşaqlar üçün), Bakı: Nurlan, 2005, 225 s.**

*«Kitabi-Dədə Qorqud» Azərbaycanın Aran-Albaniya ərazisində VII əsrdə iki dinin qovşağında mövcud olmuş Oğuz dövlətinin bədii tarixi və Azərbaycan oğuzlarının (türklərinin) misilsiz yazılı dastan abidəsidir. Oxuculara təqdim olunan «Dədə Qorqud dastanları» ömrünün son 50 ilini həmin abidənin Drezden və Vatikan əlyazmaları üzərində elmi tədqiqata həsr etmiş Şamil Cəmşidin (Şamil Cəmşidovun) uşaqlar üçün işlədiyi mətnin təkmilləşdirilmiş nəşridir.*

## MÜQƏDDİMƏ

1) «Kitabi-Dədə Qorqud» Azərbaycan xalqının qədim mədəniyyətini, ictimai həyat şəraitini və onun ilk dövlətçiliyini, siyasi-inzibati, hərbi-coğrafi mühitini şifahi xalq



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ədəbiyyatının dili ilə təsvir edən tarixi dastandır. Bu dastan bədii məzmunu etibarilə Azərbaycanın orta əsr Aran-Albaniya ərazisində dəqiq və möhkəm sərhədlərə malik doğma məmləkətlərini xarici kafir basqınlarından qoruyan və məmləkət daxilində islamı qəbul etməmiş xristian-qıpçaq məliklərinə qarşı qəhrəmanlıq mübarizəsi aparan Azərbaycan oğuzlarının tarixidir. Dastan qəhrəmanlarından Bəkilin Doqquztümən Gürcüstan ağızında (sərhədində) sərhədin keşiyini çəkərkən qəfil bir qorxu hiss edərək Oğuza-Biləqana, Salur Qazana (baş sərkərdəyə) göndərdiyi bir sifarişdə qərəmanların əsas qayə və ideyaları parlaq şəkildə öz əksini tapmışdır: «Əlbəttə və əlbəttə, Qazan bəg mənə yetişsin. Degil, gəlməz olsa, MƏMLƏKƏT pozulub xarab olur, qızım-gəlinim əsir getdi, bəlli bilgil» (Drezden mətni, vər. 224b)

İstanbul Universitetinin professoru Osman Fikri Sərtqaya 2-6 iyun 1988-ci ildə dünya qorqudşünasların Kollokviumunun niyə Bakıda keçirilməsi haqqında suala belə cavab vermişdi:

«Halal bir haqq kimi! Əvvəla, Azərbaycan Qorqud coğrafiyasının əbədi paytaxtıdır. İkincisi, doğma abidəni doğma ocaqda araşdırmaq lap yerinə düşür. Boyların dili, sintaksisi bugünkü azərbaycanlıların danışığında dipdiridir. Kəlmələrinizi eşitdikcə adam səksənir, Qorqud Atanın sirli-soraqlı aləminə qovuşur.» («Kommunist» qəz., 1988.).

Lakin bu heç də o demək deyil ki, «Kitabi-Dədə Qorqud»da Türkiyə türklərinin «payı» yoxdur. Folklor yaradıcılığı və lüğət fondu baxımından «Kitabi-Dədə Qorqud» azəri türkləri ilə Osmanlı türklərinin müştərək abidəsidir. Çünki «Biz bir millət, iki dövlətik» (Heydər Əliyev).

«Kitabi-Dədə Qorqud"un coğrafi mühiti orta əsr tarixçilərinin Azərbaycanın şimal hüdudları haqqında verdikləri məlumatlara tam uyğun gəlir. Şərqin böyük tarixçisi Əbu Cəfər Təbəri (838-923) məşhur «Tarix» əsərində yazır: «Həmədan həddinin ibtidasından ta Zəncana və Əbhərə və axırı Dərbəndi-Xəzərə çıxınca, bunlara Azərbaycan deyilir». XIII əsr tarixçisi Yaqut Həməvi (1179-1229) də Azərbaycanın şimal-qərbdə Trabzonla həmhüdud olduğunu göstərir. «Kitabi Dədə-Qorqud»da «Oğuz» məhz coğrafi məfhum olaraq Şimali Azərbaycandan ibarət olan orta əsr Aran-Albaniya ərazisi ilə bütünlüklə üst-üstə düşür. «Qalın oğuz» adlanan ümumi məmləkət «İç oğuz» – «Boz oq», yəni qala-şəhər, mərkəziyyət (bu hazırda qədim Mil düzündəki Beyləqan və Qala Təpəyə müvafiq gəlir) və «Daş oğuz», yəni çöl-bayır, sərhəd yaxası inzibati bölgüsünün birliyindən ibarətdir. Qalın oğuzun başında Bayandır xan durur. O, bütün ölkənin padşahıdır. Vəziri Qazlıq qoca adlı bir kişidir. Əsas qəhrəmanlardan biri



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

olan Yeynəgin atasıdır. İç Oğuzun başında isə Salur Qazan durur. O, bütün oğuzun hərbi sərkərdəsidir. Daş oğuza Salur Qazanın dayısı Aruz Qoca başçılıq edir. O, Salur Qazana tabedir. Dədə Qorqud bütün oğuzun mənəvi rəhbəri, böyüklərin, kiçiklərin məsləhətçisidir. Dastanda butöv bir hərbi-inzibati hakimiyyət sistemi mövcüd olmaqla qəhrəmanlar arasında yaxın qohumluq əlaqəsi vardır. Məsələn, böyük sərkərdə olan Salur Qazanın arvadı Boyu Uzun Burla xatun Xanlar xanı Bayandır xanın qızıdır. Daş oğuzun başçısı Aruz Qoca isə Salur Qazanın dayısıdır. Əsas qəhrəmanlardan Qaragünə Salur Qazanın qardaşıdır. Onun oğlu gənc qəhrəman Qarabudaq öz əmisi qızına, yəni Salur Qazanın qızına güləşdə, yarışda qalib gələrək onunla evlənmişdir. Bəkduz Əmən Qazlıq Qoca oğlu Yeynəgin dayısıdır. Dastanda hətta baba-ata-nəvə qohumluq silsiləsi mövcuddur. Bayandır xan Salur Qazanın qayınatası, deməli, onun oğlu Uruzun babasıdır. Ümumyyətlə, «Kitabi-Dədə Qorqud»da qohum-qəbilə icması mühüm mövqeyə malikdir. Doqquztümən Gürcüstan Azərbaycan Oğuz dövlətinə həmişə verdiyi illik xəracdan boyun qaçırdığı zaman Bayandır xan Oğuz-Gürcüstan sərhədində qarovul çəkmək üçün əsas qəh- rəmanlardan Bəkili ora göndərir. Beyləqandan, Oğuzdan, yəni məmləkətin mərkəzindən tərpənən Bəkilin gedişi belə təsvir olunur: «Bəkil razı oldu, qalxdı, yer öpdü. Dədəm Qorqud hikmət qılıcın belinə bağladı, çomağı omuzuna buraxdı, yayı qarusuna keçirdi. Şahbaz ayqırını çəkdirdi, butun mindi, xismini-qövmini ayırdı, evini çözdü, Oğuzdan köç elədi. Bərdəyə, Gəncəyə varıb vətən tutdu. Doqquztümən Gürcüstan ağzına varıb qondu, qaravulluq elədi, yad kafir gəlsə, başın Oğuza ərməğan göndərdi». Elə həmin boyda daha sonra bir gün Bayandır xanın qonaqlığından acıq eləyib küsən və hətta Oğuzu tərk edib Doqquztümən Gürcüstana getmək istəyən Bəkili arvadı kövrək-kövrək oxşayıb deyir:

Altun taxtım yiyəsi bəgim yigid!
Göz açıban gördügüm yigid!
Könül verib sevdigim!
………………………

Bəglər ilə yedin-içdin,
Qövmli qövmi ilə gənəşdimi?
Qərib başın qavğada qaldımı?!

Beləliklə, Oğuzda qövm- əqrabasızlıq, xüsusən övladsızlıq böyük bədbəxtlik



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

hesab olunur.

2) Yuxarıda gördüyümüz kimi, Beyləqan «Dədə Qorqud» qəhrəmanlarının yaşadıqları və idarə etdikləri məmləkətin mərkəzi, paytaxtıdır. Lakin bu, qəhramanların əsasən qış iqamətgahıdır. Yayda isə onlar yaylağa köçürlər. Hərbi-köçəri maldarlıqla məşğul olan Oğuz qəhramanlarının baş sərkərdəsi Salur Qazanın yay iqamətgahı Göyçə gölünün şimal səmtində yerləşən Altuntəxt yaylağı və bəzən də Ağcaqala Sürməlisidir.

Abidənin bütün nəşrlərində «Altuntəxt» qeyri-müəyyən bir istilah olaraq işlənmişdir. Halbuki XIX əsr Azərbaycan şairi Kazım ağa Salik «Şıxlı yaylaqlarının mədhi babında» adlı şerində Həmzə-çəmən, Uləşən, Qaraqat, Xalxal, Maymaq, Arxaşan və s. yaylaqlarla yanaşı, Koroğlu qalası və Altuntəxt yaylağını da mədh etmişdir:

Yüz min altuna dəyər səbzəsi Altuntəxtin,
Salika, ol yeri dut, istəmə dinarü dirəm.

3) Keçmiş Aran-Albaniya ərazisinin əhatə etdiyi Azərbaycan Oğuz məmləkətinin şimal hüdudu Dərbənd şəhərini içərisinə alır. Dərbənddə Salur Qazanın böyük qoyun sürüləri saxlanılır ki, bunlara dastanın məşhur qəhrəmanlarından biri olan Qaraçuq çoban iki qardaşı ilə birlikdə nəzarət edir. Oğuzun şimal tərəfdən əsas qonşusu sərhədləri bugünki inzibati dairəyə müvafiq gələn Gürcüstan ərazisidir. Şimal-qərbdə isə indi də xəritələrdə Türkiyə sərhədində yerləşən Qara dərə adlı yerdə sərhədlənir. Oğuzun iki yerdə sərhəd-gözətçi məntəqəsi vardır: birincisi Gəncədən sonra Ağstafa sahəsindən o yana, Gürcüstan sərhədindədir ki, burada – Bəkil («Bəkil» adı-bəkləmək, gözləmək mənasın- dadırsa, «Ağstafa» toponimi də «Ağız təpə», yəni «sərhəd təpə» sözünə müvafiq gəlir), Qara dərə ağzında yerləşən ikinci məntəqədə isə Salur Qazanın qardaşı Qaragünə durur. O, «Kitabda» ayrı-ayrı boylarda bir neçə yerdə «Qara dərə ağzında qadir verən» – deyə təqdim olunur. Oğuz qəhrəmanlarının bütün hərbi toqquşma macəraları bu göstərdiyimiz istiqamətdə cərəyan edir. Bundan arxa tərəfin, yəni cənub, şərq və bu araların hüdudları göstərilmir ki, bu da Oğuzun həmin istiqamətdə bütün türk dünyasına arxa bağlaması kimi izah edilə bilər.

4) «Dədə Qorqud» qəhrəmanları iki cəbhədə düşmən qüvvəsinə qarşı vuruşurlar. Birincisi xarici düşmənlər – bunlar Doqquztümən Gürcüstan və Anadolu ərazisində hələ Osmanlı türklərinin ora gəlməsindən qabaqkı Trabzon, Diyarbəkr, Düzmürd və s.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Anadolu təkurlarıdır. İkincisi isə məhz ölkə daxilində, hələ islamiyyəti qəbul etməmiş Albaniya məlikləridir: Qıbçaq məlik, Buqacıq məlik, Qara Aslan məlik, Qara Təkin məlik, Suni Sandal məlik və s. Adlarından göründüyü kimi, həmin məliklərin hamısı turk etnik qrupuna daxildir. Bu fikri əsaslandıran bir fakt da ondan ibarətdir ki, məşhur qəhrəmanlardan biri Baybecan, müsəlman olsa da, «məlik» adını hələ üzərində daşıyır. Hətta qizi Banıçiçəyi Beyrəyə yox, Parasarın Bayburd hasarının təkuruna verməyi vəd edibmiş. Bu, «Kitab»dakı hadi- sələrin islamiyyətin lap ilk illərində baş verdiyini göstərən dəlillərdən biridir.

Dastanda təsvir edilən coğrafi mühit başdan-başa aran-dağ təbii coğrafi şəraitindən ibarətdir.

«Salqım-salqım dan yellərinin əsməsi», «saqqalı uzun bozac toraqayın səyriməsi» Aran çöllərini əks etdirirsə, «tökməsi böyuk dağlarda»kı bağlarda «qara salqımlı üzüm» və ondan « sıxıb çaxır düzəldilməsi» Qarabağ dağlarına tam müfafq gəlir. Müsəlmanlarla xristianların bir yerdə yaşadığı sahədə yoldaşları tərəfindən Salur Qazanın keşişə oxşadılması, Uruzun atasından açıq eləyib «Pülüklü kişinin (keşişin) əlini öpəcəyi» ilə atasına qorxu gəlməsi, «mərə». «ə!» müraciətlərinin tez-tez işlədilməsi və s. bütünlüklə Qarabağ mühiti və danışıq tərzini əks etdirir.

5) «Kitabi-Dədə Qorqud»da ciddi hərbi-inzibati hakimiyyət sistemi mövcuddur. Ölkə 24 sancaq bəyliyindən ibarətdir. Lüğətlərdə bir sancaqda 40 min adam olduğu göstərilir. Bir xarici təhlükə görsənəndə və ya əsirləri xilas etmək lazım gəldikdə Bayandır xan təcili hərbi səfərbərlik elan edir. Məsələn, Qazlıq Qoca oğlu Yeynəg «Qara dəniz kənarında, Düzmürd qalasında» dustaq olan atasını qurtarmağa gedəndə Bayandır xan: «24 sancaq bəyi gəlsin!»– deyə əmr edir. Ordu başçıları fərqlənmə çininə, rütbəyə malik olub, çiyni paqonlu («çiyni quşlu») və «məxmuri şalvarlı»dırlar. Ordu sağ, sol və dib-orta səfləri ilə hücum edir. Baş komandan «dibdən təpir». Döyüş alətləri ox, yay, kaman, köndər, gürz, qılınc, qalxan, nizə və sapanddan ibarətdir.

6) Dastanda gənclərin yüksək vətənpərvərlik ruhunda, vətənə sədaqət, ata-anaya böyüklərə hörmət ruhunda tərbiyə olunmasına xüsusi diqqət verilir. Oğlanlara, 16 yaşına qədər bir igidlik, qəhrəmanlıq göstərməsələr, ad qoymurlar. Onların çoxusu düşmənlə qanlı vuruşmalarda göstərdikləri igidliyə görə ad qazanır. Bəşəri ideyalara hörmət, insanpərvərlik Oğuz qəhrəmanlarının səciyyəvi xüsusiyyətləridir. Bugünki erməni daşnaklarının fitnəkar əcdadlarının hələ o dövrlərdə Anadolu hüdudlarından bəri quldurcasına basqınları dastanda hər vaxt onların darmadağın olması ilə başa



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

çatır. Lakin döyüşdə Salur Qazan «qaçanı qovmamış, aman diləyəni öldürməmişdir» (Derezden mətni, vər. 34b). Aclara, yoxsullara yardım edib, borclunu borcdan qurtarmaq, dilənçilərə, dərvişlərə sədəqə, nəzir vermək Oğuzda bir ümumi adətdir. Salur Qazanın arvadı, qəhrəman qadın Burla xatun bir məqamda bunu belə ifadə etmişdir: «Quru-quru çaylara su saldım, qara donlu dərvişlərə nəzir verdim, yanıma öqey baqdığımda qonşuma eyü baqdım. Umanına, usanına aş yedirtim, ac görsəm, doyurdum, yalınçıq görsəm, donatdım, dilək ilə bir oğlu güclə buldum». (Drezden mətni, vər. 71a)

7) «Dədə Qorqud» boylarında iştirak edən qəhrəmanların hər birinin mənsub olduğu el, oba, tayfa adları və baş qəhrəmanların özlərinin daşıdıqları adlar hazırda Azərbaycanın, xüsusən keçmiş Aran-Albaniya ərazisindən ibarət olan bugünkü Şimali Azərbaycanın toponimlərində yaşamaqdadır. «Varıban peyğəmbərin üzünü görən, gəlibən Oğuzda səhabəsi olan… bığı qanlı Bəkdüz Əmən»in adına Naxçıvanda «Böyük düz» adlı yer, «Peyğəmbər əleyhissəlamın zamanında Bayat boyundan qopan» Dədə Qorqud elinin Bayat adına Ağcabədidə, Şamaxıda, Salyanda, Ucarda, Dəvəçi rayonunda lap yaxın onillərə qədər bir sıra Bayat kəndləri mövcud olmuşdur və ya hazırda da vardır. Cənubi Azərbaycanda və İraq torpaqlarında da yaşamış Bayat eli, Dədə Qorquddan başqa, XVI əsrdə Məhəmməd Füzuli kimi böyük dahilər və el sənətkarları yetirmişdir. Bayandır xanın adına Bərdə rayonunda, Salur Qazanın adına Cəbrayıl, Ordubad və Qubadlı rayonlarında, Dəli Dondarın adına Tovuz və Qubadlıda, Tüləkəranın adına Qubada onlarla yer adları mövcuddur. Dastanın ən məşhur qəhrəmanlarından olan Qaraçuqun adına Naxçıvanda kənd və Kiçik Qarabağ dağ silsiləsinin Ağcabədinin Salmanbəyli kəndi ilə hüdudlanan Qaraçuq dağı və məhz «Dədə Qorqud» qəhrəmanlarının at oynatdığı keçmiş cah-cəlallı Mil düzündə qədim oğuz təpələri olan Qala təpə və Üç təpə sahələrində onlarca toponimlər vardır. İç oğuz, Daş oğuz çəkişməsi haqqında Ağcabədidə yerli camaat arasında maraqlı rəvayətlər söyləyirlər. Hətta «Nərgiz təpə» deyilən qədim qəbiristanlıqda Qaraçuq çobanın 6 hissədən (baş, bədən, iki qol, iki qılça) ibarət əfsanəvi nəhəng «qəbrini» də göstərirlər. Dədə Qorqud toponimləri haqqında bax: Ş.Cəmşidov. «Kitabi-Dədə Qorqud»u vərəqləyərkən. – Bakı, 1969, s. 95-97 və yenə: «Kitabi-Dədə Qorqud», monoqrafiya. – Ankara, 1990, s.44-50).

Dastanda möhkəm ailə quruluşu mövcuddur. Bir kişinin ancaq bir qadını var. Ailə şərəfi, ata-ana şərəfi toxunulmazdır, Oğuzda gənc qəhramanlardan dörd nəfəri simaca gözəl olduğu üçün üzü örtülü-rubəndli gəzir ki, qızları, qadınları yoldan



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

çıxarmasınlar. Qadınlar isə çadrasız gəzirlər, yad kişilərdən ancaq yaşmanırlar. Lakin döyüş meydanında qadınlar cəsarətdə kişilərdən geri qalmırlar. Salur Qazanın arvadı Burla Xatun, Beyrəyin nişanlısı Banıçiçək, Qanturalın gənc arvadı Sarı Donlu Selcan xatun belə qəhrəman qadınlardandır. Oğuzda ana haqqı tanrı haqqına bərabər tutulur.

8) Almaniya Federativ Respublikasının Drezden kitabxanasında saxlanılan 12 boydan ibarət «Kitabi-Dədə Qorqud» dastan abidəsinin əlyazması 1565-1585-ci illərdə əvvəl Dərbəndi, sonra Bakını və daha sonra Təbrizi paytaxt edib, Azərbaycanda hakimiyyət sürmüş Türkiyə imperiyasının Yəmən vilayəti başçısı, indiki ifadə ilə desək, generalı Özdəmirzadə Osman paşanın xəzinəsi vasitəsi ilə Azərbaycandan Türkiyəyə aparılmış və oradan, hansı yollasa, Almaniyada Drezden kitabxanasına düşmüşdür. Osman paşanın sarayında Dal Məhəmməd Asəfi paşa adlı bir saray münşisi olmuşdur. O, şair idi və «Şücaətnamə» adlı əsərində Bakının iqtisadi həyatına və burada neft çıxarılmasına aid çox qiymətli məlumatlar vermişdir. «Kitabi-Dədə Qorqud» tarixi dastan abidəsinin əlyazmasının burada əldə edilməsində və haradasa mühafizə edilib, sonra Drezden kitabxanasına düşməsində bu şəxşin, heç şübhəsiz, mühüm rolu olmuşdur.

Drezden əlyazmasının Azərbaycandan aparılma- sına əsas dəlil Drezden nüsxəsində həmin Osman paşanın ölüm tarixinin qeyd edilməsidir. Abidənin titul vərəqində yazılmışdır: «Vəfati-Osman paşa, 993». Bunu tədqiq etdikdə həqiqətən tarixi şəxsiyyət olan Osman paşanın vəfat tarixi ilə üst-üstə düşür.(Bax.: Ş.Cəmşidov «Kitabi-Dədə Qorqud»da bir vəfat tarixi haqqında. – «Azərbaycan EA Məruzələri». – 1965, say 5 və bu barədə yüksək rəy: «Drujba narodov» jurnalı, M., 1996. – № 11).

9) «Kitabi-Dədə Qorqud»da islamiyyətin ilk illərindən başlayaraq XV əsrin sonuna qədər Azərbaycanın keçmiş Aran-Albaniya ərazisində baş vermiş tarixi hadisələr eyni bir dövrün hadisələri kimi bədii şəkildə ümumiləşdirilərək, söyləyicinin şahidliyi ilə elə məharətlə nəql olunur ki, bura qoşulmuş Təpəgöz əfsanəsinin də real bir hadisə olduğuna inanmaya bilmirsən. Dastan düzüb-qoşan və həm də hadisələrdə bədii bir obraz kimi iştirak edən Dədə Qorqud müqəddimənin lap ilk cümləsindən Məhəmməd peyğəmbərin müasiri kimi təqdim olunur: «Rəsul əleyhissəlam zamanına yaxın Bayat boyundan Qorqud Ata derlər bir ər qopdu. Oğuzun ol kişi tamam bilicisi idi. Nə dersə, olurdu, qayibdən dürlü xəbər söylərdi». Sonra bütün boyların sonunda Dədə Qorqudun, yaxud Dədəm Qorqudun məclisə gəlib qəhrəmanların şücaətini əks etdirən «Oğuznamə» düzüb-qoşduğu göstərilir. Ədəbi-tarixi mənbələrdə Dədə Qorqudun Məhəmməd peyğəmbərin ziyarətinə getməsi və islam ordusu ilə Qafqaza



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qayıdıb, Dağıstan bütpərəstlərinə qarşı döyüşlərdə şəhid olması və özü kimi bir-iki müqəddəs şəxslə Dərbəndin qırxlar qəbiristanlığı həvaləsində (yanında) qaya içərisində açılmış mağarada dəfn olunması göstərilmkdədir. 1637-ci ildə Qafqaza səyahətə gəlmiş alman səyyahı Adam Oleari Qırxlar qəbiristanlığından bir qədər kənarda olan Dədə Qorqudun qəbrini – məqbərəsini ziyarət etmiş və onun geniş təsvirini vermişdir. Bundan əlavə, dastan qəhrəmanlarından Bəkdüz Əmənin peyğəmbərin üzünü görüb, onun səhabəsi (ən yaxın adamı, nümayəndəsi) kimi Oğuz məmləkətinə gəlməsi, burada islam uğrunda qılınc vurması, andiçmə mərasiminin «Quran»ın ilk yazılı vərəqləri olan «Müshəf» vasitəsi ilə icra olunması hadisələri məhz VII əsrdə islamın ilk qəbulu dövrü ilə səsləşməkdədir.

10) Dastanın Drezdendə saxlanılan yeqanə bütöv əlyazması 1052-ci ildə (hicri 444) yazılmış prototip nüsxə əsasında XV əsrdə işlənmiş ikinci təkmil bir nüsxədən öz ana dilndə təhsil görməmiş, amma ərəbcə mükəmməl təhsil almış bir şəxs tərəfindən çox yerdə kor-koranə  şəkildə köçürülmüş surətdir. Təxminən XV əsrin sonunda köçürülmüş həmin surətdə katib əlində olan ilk nüsxənin sonundakı «tarixi-hicri 444» rəqəmini sivri sonluq içərisində alt-alta yazmaqla saxlamışdır. XV əsrə aid mükəmməl əlyazmasının orijinalı hələ ki, elm aləminə məlum deyildir.

11) «Kitabi-Dədə Qorqud» elm aləminə XVIII əsrin ortalarından məlumdur. İlk dəfə Almaniyada tədqiq olunmağa başlamışdır. 1814-ci ildə Fridrix fon Dits tərəfindən Təpəgöz boyunun alman dilinə tərcüməsi və bir giriş məqaləsi ilə dünya ictimaiyyətinə tanıdılan «Kitabi-Dədə Qorqud» dünya türkologiyasında geniş və maraqlı tədqiqat obyektinə çevrilmişdir. Hazırda bu möhtəşəm abidə dünyanın bir çox dillərinə – alman, ingilis, rus, serb, gürcü, fars, qazax, türkmən, latış, rumin və s. dillərə tərcümə olunmuş, Sürixdə, Londonda, Texasda, Moskvada, Tbilisidə, Alma-atıda, Tehranda, Buxarestdə və s. şəhərlərdə çap olunmuşdur. Türkiyədə və Azərbaycanda dönə-dönə nəşr edilmiş, haqqında monoqrafiyalar yazılmışdır. Azərbaycanda «Kitabi-Dədə Qorqud» son onilliklərdə dərindən tədqiq olunub, haqqında monoqrafiyalar və yüzlərlə məqalələr nəşr edilmişdir. Almaniyada hələ XIX əsrin ilk rübündən Fridrix fon Ditsdən başlayaraq, Rusiyada V.V.Bartold, A.N.Kononov, X.Koroğlu, V.M.Jirmunski, Türkiyədə Rifət Gilisli, O.Şaiq, M.Ergin, Fəxrəddin Gırızıoğlu, Azərbaycanda Ə.Dəmirçizadə, H.Araslı, M.Təhmasib, Ə.Sultanlı, Ş.Cəmşidov, Anar, M.Seyidov, T.Hacıyev, K.Nərimanoğlu, S.Əlizadə, F.Zeynalov, E.Əlibəyzadə,  Məmməd Adilov, İtaliyada E.Rossi, İranda Fərzanə, Cavad Heyət, Həmid Məmmədzadə, Almaniyada Əhməd Şimidə, dünyanın onlarla türkoloqları bu ölməz abidə haqqında



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

monoqrafiyalar, məqalələr yazmış və ya mətni nəşr etdirmişlər. Bakıda xalq yazıçısı Anarın ssenarisi əsasında iki seriyalı «Dədə Qorqud» bədii filmi çəkilmişdir. Dünya türkologiyasında yeni bir termin yaranmışdır: Dədəqorqudşünaslıq.

12) 12 xüsusi oğuznamədən ibarət «Dədə Qorqud» dastanlarının heç biri öz adı ilə şifahi ədəbiyyatda zəmanəmizə qədər gəlib çatmamışdır. Tədqiqatımızdan aydınlaşır ki, XV əsrdən sonra dastanın ayrı-ayrı boyları xalqın başına gələn yeni-yeni tarixi hadisələrə qoşulub, «Koroğlu», «Aşıq Qərib», «Şah İsmayıl», «Alpamuş» və s. kimi dastanlara çevrilmişdir. Elə bu əlaqə təzahürləri nəticəsidir ki, bir sıra türkoloqlar,xüsusən Azərbaycan mühitini tanımayan tədqiqatçılar onu ancaq ümumtürk eposu kimi təqdim etmişlər. Halbuki «Kitabi-Dədə Qorqud» bütünlüklə yalnız Azərbaycan mühiti ilə bağlı olub, onun keçmiş Aran-Albaniya ərazisində mövcud olmuş Oğuz dövlətinin bədiləşdirilmiş tarixidir. Biz bunu hələ 1969-cu ildə çapdan çıxmış «Kitabi-Dədə Qorqudu vərəqləyərkən» adlı monoqrafiyamızda belə ifadə etmişik: «Kitabi-Dədə Qorqud» tarixçi üçün xalqımızın tarixi, ədəbiyyatşünas üçün onun epopeyası, etnoqraf üçün isə milli əlamətlər salnaməsidir. (s.4)

Lakin bu heç də «Kitabi-Dədə Qorqud»un ümumtürk mahiyyətini inkar etmək deyil. Məsələ bundadır ki, Dədə Qorqud şəxsiyyəti ilə bu yazılı kitabı fərqləndirmək lazımdır. Kitab uzun dövrlər ərzində elmdən örtülü qalmışdır. Dastandakı hadisələrin şifahi variantları və Dədə Qorqud şəxsiyyəti haqqındakı rəvayətlər, sonrakı dövrlərdə baş verən tarixi kökləri ilə Azərbaycan mühiti ilə bağlı olub şifahi məzmunu ilə bütün türk xalqlarının tarixi şücaətini özündə əks etdirməkdədir.

Şamil Cəmşid



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

*Ömrünü gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş unudulmaz ömür yoldaşım, Burla xatun qeyrətli Məhluqa müəllimənin əziz xatirəsinə əbədi ərməğandır.*

# DƏDƏ QORQUD DASTANLARI

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## DƏDƏ QORQUDUN ÖYÜDLƏRİ

Bismillahir-rəhmanir-rəhim və bihi nəstəin

Rəsul əleyhissalam zamanına yaxın Bayat boyunda Qorqud Ata deyirdilər müdrik bir kişi vardı. O kişi Oğuz elinin tamam bilicisi idi. Nə deyərdisə, o olardı, qaibdən dürlü-dürlü xəbər söylərdi. Haqq-taala onun könlünə ilham verərdi. Qorqud Ata demişdi:

— Axır zamanda xanlıq hakimiyyəti yenə Qayı nəslinə dönsə, axır zaman olub, qiyamət qopan günə qədər hakimiyyəti heç kim onların əlindən ala bilməyəcəkdir.

Bu dediyi Osman nəslidir ki, hazırda davam etməkdədir. O buna bənzər daha bir neçə sözlər söylədi.

Qorqud Ata oğuz qövmünün müşkülünü həll edərdi. Hər nə iş olsa, Qorqud Ataya danışmayınca işləməzlərdi. O hər nə buyursa, qəbul edərlərdi, sözünü tutub tamam edərlərdi. Dədə Qorqud demişdir:

— Allah-Allah deməyincə işlər ötməz.
Qadir tanrı verməyincə kişi varlanmaz.
Əzəldən yazılmasa, qul başına qəza gəlməz.
Əcəl vədəsində gəlməsə, heç kəs ölməz.
Ölən adam dirilməz.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çixan çan geri gəlməz.
Bir igidin Qaradağ yumrusunca malı olsa,
Yığar, toplayar, saxlar,
Qismətindən artığın yeyə bilməz.
Ulaşıban sular daşsa, dəniz dolmaz.
Təkəbbürluk eləyəni tanrı sevməz,
Özünü uca tutan lovğa adamda ağıl olmaz.
Yad oğulu saxlamaqla oğul olmaz,
Böyüyəndə atıb gedər, gördüm deməz.
Kül təpəcik olmaz.
Qara eşşəyin başına yüyən vursan, qatır olmaz,
Qaravaşa don geyirsən, xanım olmaz.
Lopa-lopa qarlar yağsa, yaza qalmaz,
Qalın otlu yaşıl çəmən payıza galmaz.
Əski pambıq bez olmaz,
Qarı düşmən dost olmaz.
Ata qıymayınca, yol gedilməz.
Qara poladüz qılıncı çalmayınca, düşmən basılmaz.
Kişi, malına qıymayınca, adı çıxmaz.
Qız anadan görməyincə öyüd almaz.
Oğul atadan görməyincə süfrə açmaz.
Oğul atanın yetiridir,
İki gözünün biridir,
Ağıllı oğul olsa, ocağın közüdür,
Ağılsız oğul olsa, ocağın külüdür.
Ogul daha neyləsin, ata ölüb mal qalmasa?
Ata malından nə fayda, başda ağıl olmasa?
Ağılsızların şərindən Allah saxlasın, xanım, sizi!

Dədə Qorqud bir dəxi söyləmiş:

Bərk yüyürən köhlən ata namərd adam minə
bilməz,
Əgər minsə, mindiyindən minməməsi yaxşıdr.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İti qılıncı namərd çalmaması yaxşıdır.
Çala bilən mərd igidə oxla qılıncdan bir çomaq yaxşıdır.
Qonağı gəlməyən qara evlər yıxılsa yaxşıdır.
Ana qədrini bilməyən namərd oğul,
At yeməyən acı otlar bitməsə yaxşıdır.
Adam içməz acı sular sızınca, sızmasa yaxşıdır.
Ata adını doğrultmayan nankor oğulun,
Ata belindən enincə, enməsə yaxşıdır.
Ana qədrini bilməyən namərd oğul
Ana bətninə düşüncə, doğulmasa yaxşıdır.
Ata adını uca tutan ağıllı oğul yaxşıdır.
Yalan söz bu dünyada olunca, olmasa yaxşıdır.
Gerçəklərin üç otuz on yaşını doldursa yaxşıdır.
On otuz, on yaşın da dolsun!
Haqq sizə yaman göstərməsin,
Dövlətiniz daim olsun, xanım, hey!

Dədə Qorqud yenə söyləmiş,
Görəlim xanım nə söyləmiş:

Gündöyən yerin otlaqların keyik bilər.
Gögəz yerlərin çəmənlərini qulan bilər.
Ayrı-ayrı yollar izini dəvə bilər.
Yeddi dərə qoxusunu tülkü bilər.
Gecə ikən karvan keçdiyini torağay bilər.
Oğul kimdən olduğunu ana bilər.
İgidin ağır -yüngüllüyünü atı bilər.
Ağır yüklər zəhmini qatır bilər.
Nə yerdə sızılar varsa, çəkən bilər.
Qafil başın ağrısını beyin bilər.
Qolça-qopüz götürüb eldən-elə ozan gəzər.
Adamın comərdliyini, namərdliyini ozan bilər.
Elinizdə çalıb oxuyan ozan olsun!..



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Azıb gələn qadanınızı tanrı sovsun.

Dədə Qorqud yenə söyləmiş, görəlim, xanım, nə söyləmiş:

Agız açıb öyər olsam, üstümüzdə Tanrı gözəl.
Tanrı dostu, din sərvəri Məhəmməd gözəl.
Məhəmmədin sağ yanında namaz qılan
Əbubəkr Siddiq gözəl .
Axır separə başıdır «Əmmə» gözəl .
Höccəsilə düz oxunsa «Yasin» gözəl.
Qılınc çaldı, din açdı Şahmərdan Əli gözəl.
Əlinin oğulları , peyğəmbər nəvələri , Kərbəla
duzundə Yezidlər əlində şəhid oldu,
Həsənlə Hüseyn iki qardaş ilə gözəl,
Yazılıb- düzülüb göydən endi,
Tanrı elmi «Quran» gözəl.
O «Quran»ı yazdı- düzdü alimlər
Öyrənincə kobədi- biçdi alimlər sərvəri
Osman Üffan oğlu gözəl.
Alçaq yerdə yapılıbdır Tanrı evi Məkkə gözəl,
O Məkkəyə sağ varsa, salamət gəlsə,
Sidqi bütün Hacı gözəl .
Qiyamət günündə ayna gözəl.
Ayna günü oxunanda xütbə gözəl.
Qulaq asıb dinləyəndə ümmət gözəl.
Minarədə əzan çəkəndə fəqih gözəl.
Dizin basıb oturanda arvad gözəl.
Övladından yarısa ata gözəl.
Ağ südün doyunca əmizsə ana gözəl.
Yanaşıb yola girəndə qara buğur gözəl.
Sevgili qardaş gözəl.
Yan əldə uca ev tikilsə gərdək gözəl,
Uzunca tənəfi gözəl,
Oğul gözəl.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Hamısına bənzəmədi cümlə aləmləri yaradan
Allah-Tanrı gözəl.
O ögdügüm uca Tanrı dost oluban mədəd versin
xanım hey!

Ozan deyir:
Övrətlər dörd dürlüdür:
Birisi evin dayağıdır.
Birisi solduran soydur,
Birisi dolduran toydur,
Birisi necə söylərsən, bayağıdır.

Evin dayağı odur ki, çöldən-bayırdan evə bir qonaq gəlsə, kişi evdə olmasa, o qonağı ehtiramla qarşılar, yedirər–içirər, hörmətlə yola salar. Bu, Ayişə, Fatimə soyudur. Beləlderinin, xanım, istədiyi hasil olsun. Ocağınıza bu kimi övrət gəlsin.

Gəldin o ki, «solduran soy» sabahdanca yerindən qalxar, əl-üzünü yumadan doqquz fətir ilə bir badya yoğurdu doyunca tıxayıb-basıb yeyər, sonra da əlini böyrünə vurub deyər: Bu evi xaraba qalsın! Bura ərə gələndən bəri qarnım doymadı, üzüm gülmədi. Ayağım başmaq, üzüm yaşmaq görmədi. Ax, nə olaydı, bu kişi öləydi, başqasına gedəydim, onda barı umduğumdan barınaydım!

Beləsinin xanım gözlədiyi gözündə qalsın!

Ocağınıza bunun kimi arvad gəlməsin!

Gəldin o ki, «dolduran toydur», bu da görərsən ki, dap-danca yerindən tərpənib duran kimi, əl-üzünü yumadan, səhərdən obanın o ucundan bu ucuna, bu ucundan o ucuna çarpışdırdı, öynəyədək gəzdi, öynədən sonra evinə gəldi. Gördü ki, oğru köpək evə girib, yeyib-yalayıb, şeyləri bir-birinə qatıbdır. Evi toyuq hininə, mal tövləsinə dönübdür:

Çağırar qonşuları ki:

— Ay qız, Züleyxa! Zübeydə! Uridə! Can qız! Can paşa! Ayna mələk! Qutlu mələk! Mən ölməyə-itməyə getməmişdim ki? Axır yatacaq yerim bu xaraba olası deyildi? Nə olardı mənim evimə də baxaydınız, qonşu haqqı – Tanrı haqqı deyilmi? –deyib söylənər.

Bunun kimilərindən də ocağınıza belə övrət gəlməsin, xanım, hey.

Gəldin o ki, necə söylərsən, bayağıdır. Evinə çöldən-bayırdan bir abırlı kişi qonağı gəlsə, əri evdə olub, desə ki, ay arvad, dur, çörək gətir. Qonaq da yesin, biz də yeyək, bişmiş çörəyi saxlamaq olmaz, yemək gərəkdir onda o arvad:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

— Axı neyləyim? Bu dağılmış evdə un yox, ələk yox! Dəvə dəyirmandan gəlməyib. Elə bu obaya bir adam gəlsə, gərək mənim süfrəmin başına gələ?! – deyib, əlini yanına çırpar, yönünü o yana, dalını ərinə çevirər. Min desə eşitməz, ərinin sözünü qulağına almaz. O, Nuh peyğəmbərin eşşəyinin əslidir. Belələrindən dəxi uzaq olsanız, sizi Allah saxlasın, ocağınıza bunun kimi övrət gəlməsin. – Xanım hey!

Dərinlərdə, uzaqlarda
El başına gələnləri,
Bilicilər bilənləri
El-el düşüb, ölkə gəzib,
Dədə Qorqud, yığıb-düzüb
Qurub-qoşub bu dastanı
Sən də oxu onu tanı!

## BUĞACIN DASTANI

Bir gün Oğuz dövlətinin padşahı Xan Bayandır yerindən durmuşdu. Yaşıl çəmən



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

üzərində Şami çadırlarını qurdurmuşdu. Böyük kölgəlikləri göyə ucalmışdı. Min yerdə ipək xalçalar döşətmişdi.

Xanlar xanı xan Bayandırın adəti bu idi ki, ildə bir kərə məclis qurub, oğuz qəhrəmanlarını qonaq edərdi. Yenə də belə bir qonaqlıq məclisi düzəltmişdi. Atdan ayğır, dəvədən buğur, qoyundan qoç kəsdirmişdi. Bir yerdə ağ otaq, bir yerdə qızıl otaq, bir yerdə də qara otaqlar bəzətmişdi. Adamlarına:

— Oğlu olanı ağ otaqda, qızı olanı qızıl otaqda əyləşdirin. Kimin ki, oğlu-qızı yoxdur, qara otağa aparın, altına qara keçə döşəyin, qabağına qara qoyun ətinin qovurmasından qoyun. Yeyərsə yesin, yeməzsə durub getsin, – demişdir, — qoy bilsinlər ki, oğlu-qızı olmayanı hamı qarğayıb, biz də qarğayırıq demişdir.

Oğuzda Dursa xan adında bir igid var idi, oğlu-qızı yox idi.

Burada Ozan söyləmiş, görək nə söyləmiş:

Köksü gözəl dağlara gün düşəndə,
Torağaylar cəh-cəhlə ötüşəndə,
Qurşaq tutub güləşəngə igidlər,
Erkən kişnəşəndə o bədöy atlar,
Salxım-salxım dan yelləri əsəndə,
Qırx igidi birgə yan-yörəsində.

Dursa xan da atlanıb, Bayandır xanın qonaqlığına gedirdi. Dursa xanı qarşıladılar. Onu gətirib qara otaqda əyləşdirdilər. Altına qara keçə döşəyib, qabağına qara qoyun qovurmasından yemək qoydular.

Dursa xan çox pərt oldu:

— Bayandır xan mənim nə əskikliyimi görmüşdür? Qılıncımdanmı, süfrəmdənmi narazı qalmışdır? Məndən alçaq kişiləri ağ otaqda, qızıl otaqda, məni isə qara otaqda əyləşdirməyinin səbəbi nədir?

Dedilər :

Bayandır xandan buyruq belədir ki, hər kimin oğlu-qızı yoxdur, onu heç kəs sevmir, biz də sevmirik. Belələrini qara otaqda əyləşdirin!

Dursa xan bunu eşidən kimi dik qalxdı ayağa, yoldaşlarına üz tutub dedi:

— İgidlərim, qalxın gedək! Bu qəraib ya məndən, ya da arvadımdandır.

Durub çıxdılar.

Dursa xan evinə gəldi. Çatan kimi arvadını çağırdı yanına söylədi, görək nə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

söylədi:

SÖYLƏMƏ:
Bəri gəl, başımın baxtı!
Bəri gəl evimin taxtı!
Şəkər sözlüm, şirin xoylum!
Yeriyəndə sərv boylum!
Topuğunda sarmaşanda qara saçlım!
Qurulu yaya bənzər çatma qaşlım!
Qoşa badam sığmayan  dar ağızlım!
Alma kimi al yanaqlım, xoş avazlım!
Qadınım gəl, çiçəyim gəl!
Gözəlim gəl,göyçəyim gəl!
Görürsənmi nələr oldu?
Mənə nə tənələr oldu?!
Səhər-səhər Bayandır xan
Öz yerindən durmuş idi.
Ağ, qırmızı, qara otaq
Yan-yana qurdurmuş idi.

Oğulluarı ağ otağa, qızlıları qızıl otağa,oğlu-qızı olmayanı qara otağa aparın, altına qara keçə döşəyin, qabağına qara qoyun ətinin qovurmasından qoyun, oturub yeyər, yesin, yeməsə durub getsin. Oğlu-qızı olmayanı heç kəs sevməz, biz də sevmirik, – demişdir.

Məni belə qarşıladılar, qara otağa aparıb altıma qara keçə döşədilər, önümə qara qoyun qovurması qoydular, qəhərlənib, durub gəldim. Söylə, arvad bu övladsızlıq məndənmidir, səndənmidir? Səbəb nədir bizim uşağımız olmur?

Bir də söylədi:
Söylə, arvad, danış bir,
Bu işə nədir tədbir?
Boğazından tutummu?
Öldürübən atımmı?
Ayaq altda salımmı?
Qılıncımla çalımmı?
Kəsimmi o başını?



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Tökümmü göz yaşını?
Söylə, arvad, səbəb nə?
Qəzəb eylərəm sənə!

Əri belə deyəndə Dursa xanın arvadına qəhər gəldi, qara xumar gözləri qan-yaşla doldu, söylədi, görək nə söylədi:

Hey Dursa xan, Dursa xan!
Qəzəblənmə, bir dayan!
Ey canımın həmdəmi!
Səndəmi, ya məndəmi?
Soruşma ayağa dur,
Bir ulu məclis qurdur.
Dəvə kəs, qoyun qırdır,
Ac qarınları doydur.
Borclunu borcdan qurtar,
Ver paltarsıza paltar.
Azad elə qulları,
Sevindir yoxsulları.
Bax, onların alqışı,
Bizə rəhm edər kişi!

Dursa xan arvadının məsləhətinə  qulaq asdı. Ayağa durdu, atdan ayğır, dəvədən buğur və qoyundan qoç kəsdirdi. İç oğuz və Daş oğuz camaatını evinə çağırdı. Ac görsə, doydurdu, çıplaq görsə, əyninə paltar geydirdi. Borcluları borcdan qurtardı. Təpə kimi ət yığdı, göl kimi süd sağdırdı. Hamı onun süfrəsindən bol-bol yedi-doydu. Hamısı əl götürüb, göyə üz tutdu, ürəkdən alqış edib, Dursa xana bir övlad dilədilər. Bir ağızı dualının – pak ürəkli adamın alqışı ilə Dursa xanın qadını hamilə oldu.

Aradan doqquz ay keçdi, Dursa xanın gözəl bir oğlu oldu. Onu dayələrə verib böyütdülər.

At ayağı külək, ozan dili çevik olur. Yönlü olanlar, qabırğalı böyüyür.

Oğuz zamanında belə bir adət var idi ki, oğlan on beş yaşına qədər bir igidlik göstərməsə, ona ad qoymazdılar. Yenə o vaxtkı adətə görə Oğuz elində bir yazda, bir də payızda buğa ilə buğuru döyüşdyrərdilər, hamı baxıb tamaşa edərdi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dursa xanın oğlu on beş yaşına çatmışdı. Həmin il Bayandır xanın bir buğuru bir dənə də buğası var idi, bunları Ağ meydanda döyüşdürəcəkdir. Bu buğa o qədər güclü idi ki,  əgər sərt bir daşa buynuz çalsa, onu un kimi sovurardı.

Yaz çağı idi. Buğanı saray tövləsindən çıxardılar, üç adam sağ, üç adam sol yanında dəmir zəncirlə tutaraq onu Ağ meydana gətirdilər. Meydanın lap ortasında zəncirini açdılar. Sən demə, Dursa xanın oglu başqa üç uşaqla burada aşıq-aşıq oynayırmış. Adamlar onlara, «qaçın» deyib, buğanı boşladılar. O üç uşaq tez qaçıb getdilər. Dursa xanın oğlu isə qaçmadı, meydanın ortasında dayanıb buğaya tamaşa elədi.

Buğa oğlana sarı cumdu gəldi, istədi ki, onu buynuzu ilə həlak eləsin. Oğlan yumruğunu düyümləyib buğanın alnına çəpinə tutub elə çaldı ki, buğa dalı-dalı getdi. Sonra yenə oğlana sarı cumdu. Bu dəfə oğlan yumruğunu buğanın alnına dayayıb basdı, beləcə sürüb onu meydanın başına çıxardı.

Buğa ilə oğlan xeyli çəkişdilər. Oğlan buğanı iki dal ayaqları üzərində şöküyüb durmağa məcbur etdi. Yumruğunu onun alnından çəkməyərək beləcə xeyli saxladı. Nə buğa çəkildi, nə oğlan!

Oğlan öz-özünə fikir elədi ki, əgər bir dama dirək vurarlarsa, ona dayaq olur, mən niyə indi bu buğanın alnına dayaq olum? Yumruğunu buğanın alnından çəkib, özü kənara sivişdi. Buğa ayaq üstə dura bilməyib təpəsi üstə dik gəldi yerə uçdu. Oğlan tez bıçağına əl atıb buğanın başını kəsdi. Meydanda tamaşaya toplaşmış adamlar tez qalxışıb gəldilər, oğlanı dövrəyə aldılar. Afərinlər söylədilər. Hamı bir ağızdan: – Dədə Qorqud gəlsin, bu oğlana ad qoysun, atasının yanına aparıb ona bəylik, mülk, vəzifə alsın, o, igidlik göstərmişdir, – dedilər.

Oğuz zamanında adət belə idi ki, igidlik göstərən uşağın adını Dədə Qorqud qoyardı. Deyirlər, elə hər şeyə adı Dədə Qorqud verərmiş.

Adam göndərdilər, Dədə Qorqud gəldi, ona afərinlər söylədi, öydü, sonra özü ilə birlikdə götürüb atası Dursa xanın yanına apardı.

Dədə Qorqud oğlanı öyərək Dursa xana söylədi görək, nə söylədi:

Gözün aydın, Dursa xan,
Oğlun oldu qəhrəman!
Jer ver, ev ver, otaq ver!
Dəvə, qoyun, yataq ver,
Bədöy at ver, çapsın o,
Yeni igid olsun o!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Gücdə buğanı basdı,
Yıxdı başını kəsdi.    .
Buğac qoydum adını,
Əzizlə övladını.

Dursa xan fərəhləndi, güvəndi. Sevinci aləmə sığmadı. Oğluna ayrıca yer verdi, mülk verdi, oğlan, necə deyərlər, kişilər sırasına qoşuldu. Bədöy at minib, silah qurşandı, ova-gəzməyə çıxdı.

Amma oğlan o qədər mənəm-mənəmlik elədi ki, atasının qırx igidini də saymadı. Bu isə qırx igidin oğlana paxıllıq etməsinə səbəb oldu. Onlar bir-birinə dedilər:

— Buna baxın! Bu oğlan ortaya çıxandan bəri, Dursa xanın nəzəri bizdən əksilibdir. Gəlin bunu atasına çuğullayaq, öldürüb aradan götürək, bəlkə əvəlki hörmətimiz-izzətimiz yenə olsun. Sözləşib dilbir oldular. İki yerə bölünüb, iyirmisi bu tərəfə, iyirmisi başqa tərəfə keçdi.

Bir az keçmiş əvvəl iyirmisi qayıdıb Dursa xanın yanına gedib şikayət etdilər. Özlərindən uydurub Buğac haqqında dedilər:

— Görürsənmi, Dursa xan! Heç bilirsən nələr oldu?

Sənin oğlun nə yaramaz işlər gordü? Özünün qırx yoldaşını yanına alıb öz elimizə-obamıza basqın etdi. Harda bir gözəl gördü, çəkib gətirdi, ağ saqqallı qocaların ağzına, ağ birçəkli qarıların südünə söydü, saçından tutub sürüdü. Əgər bu axan duru sulardan xəbər keçə, Ala dağdan ötüb aşa, xanlar xanı Bayandır xan bunu eşidə bilə-bilə, heç bilirsən sənə nə divan tutar? Çağırıb sənə elə söz deyər ki, gəzməyindən ölməyin yaxşı olar. Axı, belə oğul sənin nəyinə gərəkdir? Belə oğul olmaqdansa, olmamağı yaxşıdır.

Öldürsənə rədd olub getsin!

Bunu eşidən kimi Dursa xan inandı, hirsləndi, gedin, gətirin öldürək, belə oğul mənə lazım deyil, – dedi.

O namərdlər dedilər:

— Biz sənin oğlunu necə gətirək? O məgər bizim sözümüzə baxar? Heç bizi adam yerinə qoyurmu?

Elə bu vaxt bu qırx namərdin, o biri iyirmisi çaparaq gəldilər.

— A Dursa xan! – dedilər, – heç bilirsən sənin oğlun Buğac nələr etdi? Yerindən durub köksü gözəl uca dağlara ova çıxdı. Sən dura-dura sənin ovlaqlarında ov ovladı, quş quşladı. Anasını da yanına almışdı, şərab içib sərxoş oldu, anası ilə söhbət elədi,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

atasına qəsd etdi. Sənin oğlun çox yaramazlıqlar törətdi. Qarşı yatan Ala dağdan xəbər keçə, el böyüyü, ölkə başçısı Bayandır xan bunları bilə, qəzəblənə, səni çağırtdıra, heç bilirsən sənə nə edər? Əgər ona desələr ki, Dursa xanın oğlu yaramaz işlər görüb, Bayandır xan səni o saat qılıncla iki bölər. Axı, belə oğul sənin nəyinə gərəkdir? Öldürsənə, canın qurtarsın.

Dursa xan bunların da dediyini eşidəndə lap inandı. Haradan bilsin bu namərdlər onun igid və namuslu oğluna qəsdən böhtan atıb, qurğu qururlar, atanı baladan ayırmaq istəyirlər? Dedi:

— Bu saat gedin gətirin öldürək! Belə oğul mənə lazım deyil.

Namərdlər dedilər:

— Biz onu necə gətirək? Bəyəm o heç bizi saya salıb sözümüzə baxır? Yaxşısı budur özün ayağa dur, bu qırx igidini əzizləyib yanına al, oğlunu da özünlə götür ova çıx. Quş uçurub, ov ovladığın yerdə oğlunu qəfildən oxla vurub öldür. Əgər belə etməsən, heç cür öldürə bilməzsən!

Söyləmə:

Salxım-salxım əsəndə dan yelləri,
Yaz büsatı bəzəyəndə çölləri,
Cəh-cəh vurub sayrışanda torağay,
Lalələri əks edəndə axan çay,
Bədöy atlar kişnəşib, fınxıranda,
Qız –gəlinlər telə bəzək vuranda,
Köksü gözəl dağlara gün düşəndə,
Qurşaq tutub igidlər güləşəndə.

Ala-sabah Dursa xan yerindən qalxdı. Oğlancığını və özünün qırx igidini yanına alıb ova çıxdı.

Ov ovladılar, quş quşladılar. O qırx namərdin bir neçəsi oğlanın yanına gəlib:

— Atan deyir ki, ceyranları qovsun gətirsin, mənim önümdə öldürsün, mən də oğlumun at səyridişini, qılınc çalışını və ox atışını görüm, sevinim, güvənim, – dedilər. Yazıq oğlan nə bilsin, bunların dediyinə inanıb, daha da həvəslənir, ceyranları, keyikləri qovur gətirir, atasının qarşısında qılıcla çalıb sinirləyirdi. Öz-özünə düşünürdü ki, qoy atam at səyrişdiyimə, ox atışıma, baxıb güvənsin, qılınc çalmağımı görüb sevinsin.

O qırx namərdlər də Dursa xana yanaşıb deyirdilər:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

— Hə, Dursa xan, görürsənmi oğlanı? Çöldən , bayırdan ceyranı, keyiki qovub gətirib qəsdən sənin önündə öldürür ki, birdən girəvəyə salıb səni ox atarkən vurub öldürsün. Ayıq ol ki, oğlun səni öldürməmiş, qabağa düş, sən onu öldür!

Oğlan bu dəfə də ceyranları qovub, atasının önündən gəlib keçərkən Dursa xan Qorqud sinirli qatı yayını əlinə aldı, üzəngiyə qalxıb möhkəm çəkdi, uzatdı, oğlanı iki kürəyinin arasından vurub, çoxutdu. Oğlan yəhərin üzərinə yıxılıb uçdu. Dursa xan istədi oğlunun nəşi üzərinə kövrəlib düşə, o qırx namərd qoymadı, atının cilovunu döndərdilər, evinə gətirdilər.

Dursa xanın arvadı oğlunun ilk ovudur-deyə, buğur, dəvə boğazlayıb, qara qoç kəsmiş, ovdan gələn igidləri qarşılamaq üçün gözəl süfrə düzəltmişdi. Atlıları görən kimi o sevincək ayağa qalxıb: «Oğuz igidlərini qarşılayım», – dedi. Qırx incə belli qızları da yanına alıb Dursa xana qarşı gəldi. Gözlərini qaldırıb Dursa xanın üzünə baxdı, sağına, soluna göz gəzdirdi, oğlancığını görmədi. Ananın bağrı yarıldı. Ürəyi yerindən oynadı. Qara qıyma gözləri qan yaşla doldu. Çağırıb Dursa xana söylədi, görək nə söylədi:

Bəri gəl, başım baxtı!
Bəri gəl, evim taxtı!
Xan babamın köygüsü!
Xanım anamın sevgisi.
Atam-anam verdiyi,
İnanıb göndərdiyi,
Göz açıban gördüyüm,
Könül verib sevdiyim!
Səhər qırx igidini,
Səsləyib him eylədin.
Köksü gözəl dağlara
Dəstəni cəm eylədin.
Oğlunu da götürüb,
Çapıb ova yönəldin.
Onda qoşa gedibsən,
İndii tək niyə gəldin?
Çıxsın mənim gözlərim,
Dursa, yaman səyrişir!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Kəsilsin, oğlum əmən
Süd damarım-titrəşir!
Sarı ilan çancmadan
Bədənim qalxıb şişir.
Yalnız oğul görünmür
Bağrım partlayır, düşür.
Quru-quru çaylara
Arx çəkdim su çıxartdım.
Ac qarınlar doyurub,
Çılpaqları donatdım.
Təpə kimi ət yığıb,
Ehsan verdim ürəklə.
Yalnız bir oğul tapdım
Dünyada min diləklə.
İndii niyə görünməz?!
Dursa, o, hardadır bəs?
Yoxsa o,  Ala dağda
İtirmisən oğlumu?
Yüyrək axan çayda ya
Batırmısan oğlumu?
Dilim-ağzım qurusun-
Qaplana verdinmi ya?
Canım od tutub yanır-
Aslana verdinmi ya?
Yoxsa yağı düşmənə
Əsir saldın uşağı?
Tək oğulu itirdik
Ömrün bu axır çağı!
Əgər düzü budursa
Doğrusunu de, Dursa!
Eləsə xan babamın
Yanına vararam mən.
Qoşun, silah xəzinə
Alıb qayıdaram mən.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Minib bədöy atımı
Silahımı qaparam.
Girib qanlı döyüşə
Buğacımı taparam.
Dönmərəm bu yürüşdən
Düşüb-düşmən izincə.
Dönmərəm qol-bud olub
Atımdan enməyincə.
Yalnız oğul hardadır?
Yoxsa düşüb, dardadır?
Dursa, söylə tez mənə
Başım qurbandır sənə…

Ana ağlayıb ah-zar etdi. Nə qədər soruşdusa xan cavab vermədi.

O qırx namərd yaxın gəlib:

— Oğlun sağ-salamatdır. Bu gün olmasa da, sabah harada olsa gələr, qorxub eləmə. Bəy sərxoşdur. Ona görə cavab vermir, – dedilər.

Ana dözmədi, namərdlərin sözünə inanmadı. Ürəyinə damdı, bildi ki, oğlunun başında fəlakət var. Evə döndü qırx incəbelli qız yoldaşlarını çağırıb yanına aldı, bədöy atının belinə qalxdı, oğlanın izinə düşüb, Oğuz igidlərinin ovlaqlarına tərəf çapıb getdilər. Çapa-çapa gedib yazda, qışda qarı-buzu əriməyən Qazlıq dağına gəlib çıxdılar.

Ana bir təpənin üstünə çıxıb boylandı. Baxdı ki, bir dərənin içinə doğru qarğa-quzğun enər-şığar, qonar-qalxar. Bədöy atını mahmızladı, tez o tərəfə çapdı.

Elə, oğlan orada yıxılıb qalmışdı. Qarğa-quzğun qan görüb oğlanın üstünə şığıyıb qonmaq istəyirdi. Ancaq oğlanın iki ov iti var idi. Qarğanı-quzğunu qovardı, qonmağa qoymazdı.

Bir də oğlan ölümcül yıxılıb tək qalanda, hardansa bir səs eşitdi və ona elə gəldi ki, kimsə yarasını sığadı, mülayım səslə dedi:

— Qorxma, oğlum, bu yaradan sənə ölüm yoxdur. Ananın südü ilə dağ çiçəyi buna məlhəmdir.

Oğlan nağıllarda eşitdiyi gecə düzlərdə azanlara yol göstərən, dara düşənləri ölümdən qurtaran əfsanəvi Xıdır nəbini xatırladı, gözünü yumub huşunu itirdi.

Ana çapa-çapa gəzib, düz oğlunun üstünə gəlib çıxdı. Baxıb nə gördü: oğlancığı



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

al qan içində batıb huşsuz yatır? Ananın ürəyi parça-parça oldu, özünü üzərinə atıb çağırdı, söylədi, görək nə söylədi:

Qara qıyma gözünü
Yuxu almış, aç bala!
Niyə enli süksünün
Olubdur qıyqac, bala!
Canında varisə can,
Din, aman, danış, bala!
Mənim bu qara başım
Olsun dilinə qurban!

Oğlan necə cavab verəydi?! Huşsuz düşüb qalmış- dı. Nəfəsi belə hiss olunmurdu. Ananı qəhər boğdu. Çevrilib üzünü Qazlıq dağına tutdu, ona qrqımağa başladı, onun suyunu, otunu, çəmənini təqsirləndirdi. Nalə çəkib söylədi, görək bir daha nə söylədi:

Niyə sənin suların
Axır, a Qazlıq dağı?
Qoy qurusun dibindən,
Axarkən axmaz olsun!
Niyə sənin otların
Bitir, a Qazlıq dağı?
Qoy yanıb külə dönsün
Bitərkən, bitməz olsun!
Niyə cüyür-ceyranın
Qaçar, a Qazlıq dağı?
Qurusun daşa dönsün
Qaçarkən qaçmaz olsun!

Qazlıq dağı necə cavab versin axı?!

Ana yenə oğlunun üzərinə uçdu, soyuq yanaqlarından öpdü, nəfəsini nəfəsinə verdi, hıçqıra-hıçqıra yenə söylədi:

Bəs nə bilim, ay oğul,
Bu rəngin nədən solub?



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Hansı əl qıyıb sənə,
Sənə bu kimdən olub?
Aç gözünü bir anlıq.
Canında var isə can.
Məni ağlar qoyma, gəl
Anan dilinə qurban!

Belə deyəndə oğlanın qulağına səs gəldi, başını qaldırdı, gözünü açdı, anasının üzünə baxdı, güclə söylədi, görək nə söylədi:

Bəri gəl, ağ südündən
Əmdiyim xanım ana!
Ağbirçəkli, ağ üzlü,
İzzətli canım ana!
Qazlıq dağa qarğama,
Suyunun günahı yox!
Otlarına qarğama,
Otunun günahı yox!
Aslanına qarğama,
Qaplanına qarğama.
Məni bu hala salan
Sanma özgə adamdır,
Qarğayırsansa, qarğa,
Günahkar öz atamdır.

Anası öz qulaqlarına inanmadı. Heyrət edib donub qaldı, oğlan dedi:

— Ana, ağlama! Mənə bu yaradan ölüm yoxdur. Boz atlı Xızır-İlyas mən huşsuz düşəndə yanıma gəldi. Üç kərə yaramı sığadı, bu yaradan sənə ölüm yoxdur, dağ çiçəyi ilə ana südü sənə məlhəmdi, – dedi.

Bunu eşidən kimi qırx incə qız dağa, çəmənə yayıldı, tər-təzə dağ çiçəyi dərib gətirdilər. Oğlanın anası əmcəyini bir sıxdı, südü gəlmədi, iki sıxdı, südü gəlmədi, üçüncüdə döşünün mayasına zərb elədi, qanı doldu. Sıxdı, südlə qan qarışıq gəldi.

Dağ çiçəyi ilə südü qarışdırıb oğlanın yarasına vurdular, bağladılar. Sonra onu ata mindirib öz evinə gətirdilər. Oğlanı həkimlərə tapşırıb müalicə etməyə başladılar.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Amma anası bunu Dursa xandan və onun qırx namərdindən gizli saxladı. At ayağı külək, ozan dili çevik olur. Oğlanın yarası qırx günün müddətində sağalıb sappasağ oldu. Oğlan yenə ata minib qılınc qurşandı. Ov ovladı, quş quşladı. Dursa xanın bundan xəbəri yox, oğlunu ölmüş bilirdi.

Amma o qırx namərd oğlanın sağ olduğunu duydular. «Nə eləyək?» – deyib bir yerə yığışdılar, danışdılar ki, Dursa xan əgər oğlunun sağ olduğunu bilsə, dayanmaz, oğlu ilə birləşib bizim hamımızı qırar. Gəlin, yaxşısı budur ki, Dursa xanı tutaq, əllərini ardına bağlayaq, boynuna ip salıb əsir edək, başqa ölkəyə götürüb qaçaq – dedilər.

Onlar belə də etdilər. Dursa xanı tutub, əllərini ardında bağladılar, boğazına ip keçirdilər, ağ ətindən qan çıxınca döydülər. Mal – dövlətini də qarət etdilər, sürdülər. Özləri atlı, bu isə piyada, qabaqlarına salıb qova-qova apardılar. Dursa xan dustaq oldu. Oğuz qəhrəmanlarından isə heç kəsin bundan xəbəri olmadı.

Ancaq Dursa xanın arvadı bunu duydu, tez qaçaraq oğlunun yanına gəldi. Söylədi, görək nə söylədi:

Görürsənmi, oğul, oğul,
Nələr oldu xəbərdar ol!
Sal qayalar oynmadan,
Yer titrədi, göy kişnədi.
Eldə yağı-düşmən yoxkən,
Elimizə yağı gəldi.
O qırx namərd Dursa xanı
Əsir alıb apardılar.
Onlar atlı, bu piyada,
Qiyamətlər qopardılar.
Yad ellərə yönəldilər.
Baxan bizə nələr deyər?
Qırx igidin yanına sal,
Qırx namərddən intiqam al!
Atan sənə qıydısa da ,
Sən atana qıyma,oğul!
Yad ellərə əsir gedə,
Yad əllərdə qoyma, oğul!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Buğac anasının sözünü sındırmadı, tez ayağa qalxdı, qara poladüz qılıncını belinə bağladı, ağ tozlu qatı yayını əlinə aldı, uzun zərli cidasını qoluna saldı. Bədöy atını tutdurub belinə sıçradı və qırx igidi ilə birlikdə atasının dalınca yola düşdü.

Buğac o qırx namərdin göründüyü yerə çatanda, öz yoldaşlarını pusquda qoyub, atını çaparaq irəli getdi.

O qırx namərd də bir mənzildə düşüb yemək-içməklə məşğul idilər. Al şərabın əlasından içib məst olmuşdular. Birdən gördülər ki, Buğac gəlir. Tanımadılar, amma dedilər:

— Gəlin, bu igidi də tutub əl-qolunu bağlayıb, ikisini də bir yerdə aparağın. Dursa xan bunu eşidəndə dedi:

— Hey qırx yoldaşım aman! Aman diləyirəm. Mənim əl-qolumu açın, qolça qopuzumu əlimə verin, o igidin qarşısına məni göndərin, tutum gətirim. Sonra məni istəsəniz öldürün, istəsəniz buraxın,-dedi. Dursa xanın əl-qolunu açdılar. Qolça qopuzunu əlinə verdilər. O, igidin üzərinə getdi, oğlu Buğacı tanımadı, qarşısında dayanıb, söylədi, görək nə söylədi:

Boyu uzun bədöy atlar gedər isə, mənim gedər,
İçlərində sənin də bir atın varsa,
Savaşmadan, vuruşmadan alım verim, qayıt geri!

Sürü-sürü qoyun-quzu gedər isə, mənim gedər,
İçlərində sənin də bir qoçun varsa,
Savaşmadan, vuruşmadan alım verim, qayıt geri!

Karvan-karvan qızıl dəvə gedər isə, mənim gedər,
İçlərində sənin də bir nərin varsa,
Savaşmadan, vuruşmadan alım verim, qayıt geri!

Altun başlı ban evlərim gedər isə, mənim gedər,
İçlərində sənin də bir evin varsa,
Savaşmadan, vuruşmadan alım verim, qayıt geri!

Ala gözlü şux gəlinlər gedər isə, mənim gedər,
İçlərində sənin də bir yarın varsa,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Savaşmadan, vuruşmadan alım verim, qayıt geri!

Ağ  saqqallı pir qocalar gedər isə, mənim gedər,
İçlərində sənin də bir atan varsa,
Savaşmadan, vuruşmadan alım verim, qayıt geri!

Mənim üçün gəlmişsənsə, tək oğlumu öldürmüşəm,
Bir kimsənəm, kimim yoxdur qayıt geri,
Savaşmadan, vuruşmadan alım verim, qayıt geri!

Buğac burada atasına söyləmiş, görək nə söyləmiş:

Boyu uzun bədöy atlar gedər isə, sənin gedər,
İçlərində mənim də bir atım vardır,
Verməərəm o qırx namərdə!

Karvan- karvan qızıl dəvə gedər isə, sənin gedər,
İçlərində mənim də bir nərim vardır,
Verməərəm o qırx namərdə!

Sürü-sürü qoyun-quzu gedər isə, sənin gedər,
İçlərində mənim də bir qoçum vardır,
Verməərəm o qırx namərdə!

Ala gözlü şux gəlinlər gedər isə sənin gedər,
İçlərində mənim də bir nişanlım var.
Verməərəm o qırx namərdə.

Altun başlı ban evlərin gedər isə, sənin gedər,
İçlərində mənim də bir otağım var.
Verməərəm o qırx namərdə!

Ağsaqqalı pir qocalar gedər isə, sənin gedər,
İçlərində mənim də bir ağlı çaşmış,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

biliyi yetmiş atam vardır.
Vermərəm o qırx namərdə!

Oğlan bunu deyib əl elədi, dəsmal salladı. Qırx igid bədöy atlarını oynadıb bir anda onların üzərinə tökülüşdülər. Buğac yoldaşları ilə birlikdə at təpib döyüşə girdi. Qanlı bir döyüş oldu. O qırx namərdin kiminin boynunu vurdular, kimisini də əsir aldılar.

Buğac atasını mərdanəliklə xilas etdi. Dursa xan oğlunun sağ olduğunu indi bildi. Qırx namərdin hiyləsini anlayıb, etdiyinə peşman oldu. Öğlunu bağrına basıb alnından öpdü. Əsirləri, mal-dövləti xilas edib evlərinə gəldilər.

Buğacın anası onlara qarşı gəldi. Dursa xan ilə oğlu Buğacı bir yerdə görüb sevincindən gözü yaşardı. Qurbanlar kəsdi, nəzirlər verdi. Ac qarınlar doyurub, üzündən-gözündən öpdü.

Xanlar xanı, ölkə başçısı xan Bayandır Buğaca böyük hədiyyələr verdi, igidlər sırasında əyləşdirdi. Böyük məclis quruldu. Dədə Qorqud bu dastanı düzdü-qoşdu belə dedi:

Hanı öyüdüm ərənlər,
Dünyaya «mənim» deyənlər?
Onlar da bu dünyaya gəldi-keçdi.
Karvan kimi qondu-köçdü.
Yer gizlədi, əcəl aldı,
Fani dünya yenə qaldı.
Gəlimli – gedimli dünya,
Son ucu ölümlü dünya!
Qara ölüm gəldikdə tanrı aman versin!
Sağlıqla sayqıçın dövlətin Haqq-Taala artırsın.
O öydüyüm uca Tanrı dost oluban məded versin.

Yum verəlim xanım,
Yerli qara dağlarınız yıxılmasın!
Kölgəlicə qaba ağacınız kəsilməsin!
Gur –gur axan gözəl suların qurumasın!
Qanadların ucu qırılmasın!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çapaçapda ağ-boz atların büdrəməsin.
Çarpışında qara poladüz qılınclarınız kütəlməsin!
Çarpışarkən ala döndərin usanmasın.
Ağbirçəkli anan yeri behişt olsun.
Ağsaqqallı atan yeri uçmaq olsun!
Evdə yanan çırağınız daim yansın!
Heç kəs  namərdə möhtac olmasın!
Düzdüyüm bu dastan Buğacın olsun!
Adı tarixlərdə qalsın!
Oxuyanlar ibrət alsın! – Xanım hey



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## QARAÇUQ ÇOBANIN DASTANI

(Salur Qazanın evinin yağmalanması)

Günlərin bir günü Oğuz elinin başçısı, xalqın ümüdgahı, Qaraçuğun qaplanı, Qonur atın yiyəsi, Xan Uruzun atası, Bayandır xanın Göygüsü, Qalın Oğuzun baş sərkərdəsi, gücdən düşənlərin dayağı Salur Qazan yerindən durmuşdu. Doxsan başlı uca evlərin qara yer üzərində tikdirmişdi. Doxsan yerdə böyük xalılar döşənmişdi. Səksən yerdə qızıl surahilər, badələr düzülmüşdür. Doqquz qaragözlü, gözəl üzlü, saçı ardına düzülü, köksü qızıl düyməli, əlləri biləyindən xınalı, barmaqları bəzəkli gözəl kafir qızları Qalın Oğuzun bəylərinə badə gəzdirir, naz ilə içirdirdilər. İçib-içib Salur Qazan sərxoş oldu, qaba dizi üzərinə çökdü, dedi:

– Ünüm ünləyən bəglər, sözüm dinləyən bəglər, yata-yata yanımız ağrıdı, dura-dura belimiz qurudu. Durun ava gedəyin, quş vurub, keyik ovlayıb qayıdağın, yenə yeyib-içib xoş keçəyin.

Bəylərdən Qıyan Səlcuq oğlu Dəli Dondar dedi:

— Bəli, xan Qazan, məsləhətdir, bəylər hamısı bəyəndi, amma Salur Qazanın dayısı Aruz qoca iki dizinin üstünə çöküb dedi:

— Ağam Qazan, sası dinli Gürcüstan ağzında oturursan, bəs evinin-yurdunun üstünə kimi qoyub gedirsən?

Qazan:

— Üç yüz igidlə oğlum Uruz evimin keşiyində dursun, – dedi və Qonur atın çəkdilər, bütün bəylər atlanıb ova çıxdılar.

Oğlu Uruzu üç yüz igidlə evinə, obasına qaravulçu qoydu. Casus elə o gün gedib bunu Qazanın düşməni Şukili Məliyə xəbər verdi. Sonrakı gün yeddi min yağı birdən atlanıb Salur Qazanın obasına basqın etdi.

Yeddi min quldurun qabağında üç yüz nəfər necə dura bilərdi?! Qırılan qırıldı, qalan əsir alındı. Salur Qazanın uca evlərini dağıtdılar, qız-gəlinini ağlatdılar. Tovla-tovla şahbaz atlarını mindilər, qatar-qatar dəvələrini qovdular. Üç ildə bir xalqa



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

payladığı xəzinəsini qarət etdilər. Qırx incə belli qızla Qazanın gözəl arvadı Boyu uzun Burla xatunu əsir apardılar. Qoca anası qara dəvə boynunda asılı getdi… Oğlu Uruzu sağ qalmış yoldaşları ilə əli-qolu bağlı qabaqlarına qatıb, döyə-döyə apardılar.

Amma Qazanın bu işlərdən xəbəri yox idi.

Şukili Məlik öz adamlarına dedi:

— Bəylər, Qazanın tövlə-tövlə şabhaz atlarını minmişik, qızıl xəzinəsini yəğmalamışıq, qırx igidlə oğlu Uruzu dustaq etmişik, qatar-qatar dəvələrini, qırx incə belli qızla Qazanın arvadını tutmuşuq. Qazan bəydə daha nə heyfimiz qaldı?

Yağılardan biri dedi:

— Qazanın Qapılar Dərbəndində on min qoyunu vardır. O qoyunları da gətirsək, Qazanda heyfimiz qalmazdı.

Şukili Məlik dedi:

— Altı yüz nəfər getsin, o qoyunları də gətirsin!

Gecə yatarkən Qaraçuq Çoban qara qayğılı yuxu gördü. Sərsəm-ayağa durdu. Qabangüc və Dəmirgüc adlı iki qardaşını yanına aldı. Qoyun ağılının qapısını bərkitdi. Üç yerdə təpə kimi daş yığdı. Uzun qollu sapandını əlinə aldı.

Birdən Qaraçuq Çobanın üzərinə altı yüz yağı düşdü, at çapdılar, ox səpdilər.

Qaraçuq Çoban onlara qarşı gəldi. Düşmənin dəstə başçısı əvvəlcə çobanı dilə tutdu, dedi:

Qazanın biz ev-eşiyin yarmışıq,
Nə qədər dövləti var, aparmışıq.
İlxıların bir araya qatmışıq,
Dəvələrin karvan-karvan çatmışıq.
Qoca anasını əsir etmişik,
Qırx qızla arvadın yesir etmişik.
Oğlu Uruzu qırx yoldaş ilə
Tutub aparmışıq bizim ellərə.
Uzaqdan yaxından bəri gəl, bəri,
Oğuzu tərk elə, olma sərsəri,
Şukili Məliyə təriflərik biz,
Sənə bəylik verər, artar rütbəniz.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qaraçuq Çoban dedi:

İtim ilə bir yalaqda yal içən yağı!
Boşlasana hərzə-hərzə bu danışmağı!
Nə öyərsən altındakı alaca atı,
Ala başlı keçimcə də o gəlməz mənə!
Başındakı tuğulqanı nəyə öyərsən,
Başımdakı yun börkümcə o gəlməz mənə!
Altmış tutam köndərini nəyə öyərsən,
Bu qızılca dəynəyimcə o gəlməz mənə!
Qılıncını nə öyərsən, mərə yağı, de,
Əyri başlı çövkanımca o gəlməz mənə!
Belindəki doxsan oxun nəyə öyərsən,
Ala qollu sapandımca o gəlməz mənə!
Uzağından, yaxınından gəl, irəli gəl!
Döyüş nədir, bir uşağın oyununca o gəlməz
mənə!

Qəhrəmənlar qəhrəmanı Qaraçuq Çoban sapan- dının içinə iri daşlar qoydu atdı. Birini atanda ikisini-üçünü yıxdı, ikisini atanda üçünü-dördünü yıxdı. Yağıların içinə qorxu düşdü. Qaraçuq Çoban düşmənin üç yüz nəfərini sapand daşı ilə yerə sərdi. İki qardaşına ox dəydi, həlak oldu.

Çobanın daşı qurtardı, qoyun demədi, keçi demədi, sapandının içinə qoyub atdı, yağının dördünü-beşini birdən yıxdı. Axırda düşmənlərin gözü qorxdu, dünya başlarına dar oldu.

— Əyə, bu Çoban bizim hamımızı qırar, gəlin qaçaq! – , deyib, daha durmayıb qaçdılar.

Çoban şəhid olan qardaşlarını dəfn elədi. Düşmənlərin leşindən bir böyük təpə düzəltdi. Çaxmaq çaxıb od yaxdı, yapıncısından qurumsu edib yarasına basdı. Yolun ayrıcında oturub ağladı, sıtqadı, dedi:

— Salur Qazan, Bəy Qazan! Ölümüsən, dirimisən? Bu işlərdən xəbərin yoxmudur?

Elə o gecə elin dayağı Ulaş oğlu Salur Qazan qara qayğılı vaqiə gördü. Yuxudan sərsəm ayağa qalxdı. Qardaşı Qaragünəni çağırıb dedi:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bilirsənmi, qardaşım Qaragünə, yuxumda nə gördüm?

Gördüm yumruğumda tutduğum şahin, quşumu alır.
Yurdum qara buludlu qar ilə yağmur altında qalır.
Göydən ildırım uca evim üzərinə çaxır,
Quduz qurdlar onu dəlir, yıxır.
Qara dəvə başımı gəmirir, gözüm yanır,
Qarğı kimi qara saçım uzanır.
Biləyimdən on barmağım qan içindədir.
Elə ki, bu yuxunu gördüm artıq uyuya bilmədim.
Bundan bəri ağlımı-huşumu bir yerə yığa bilmirəm.
Qardaşım! Mənim bu yuxumu yoz mənə.

Qaragünə dedi:
— Qardaş, qara bulud dediyin sənin dövlətindir.
Qar ilə yağmur dediyin sənin ləşkərindir.
Saç – qayğıdır.
Qan – qadadır. Qalanın yoza bilmirəm. Xeyir olar!
Qazan dedi:
— Mənim ovumu pozma, qardaş! Ləşkərimi dağıtma, qardaş! Mən bu gün Qonur atıma qalxaram, üçgünlük yolu bir gündə aşaram, öynə olmadan yurdumun üstünə gedərəm. Əgər sağ-salamat deyilsə, başınıza çarə edin, mən getdim.
Qazan Qonur atını mindi, yola düşdü. Çaparaq, el-obasına gəldi. Gördü ki, yurdunda quzğun dolaşır. Qazan bəy burada yurdu ilə xəbərləşdi, görək necə xəbərləşdi:

Xum quyladığım qumuna yurdum!
Düzləri ceyranlı, marallı yurdum!
Səni yağı nə yerdən taladı, gözəl yurdum?!
Uca evim tikildiyi yurdu qalıbdır.
Qarıcıq anam olan yerdə izi qalıbdır.
İgidlər at çapdığı yerdə meydan qalıbdır.

Qazanın qara qıyma gözləri qan-yaşla doldu. Qan damarları qaynadı, qara bağrı



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

sarsıldı, ürəyi oynadı. Qonur atını qamçıladı, düşmənin getdiyi yola düşdü. Az getdi, çox ğetdi, Qazan gəlib bir suyun qırağına çıxdı. «Mən qoy bu su ilə xəbərləşim», – dedi. Xəbərləşdi, görək necə xəbərləşdi:

Çınğım-çınğım qayalardan çıxan su!
Böyük-böyük ağac gəmiləri yıxan su!
Həsənlə Hüseynin həsrəti su!
Bağ ilə bostanın zinəti su!
Ayişəylə Fatimənin nigahı su!
Şahbaz atların içdiyi su!
Qızıl dəvələrin gəlib keçdiyi su!
Ağ qoyunların gəlib çevrəsində yatdığı su!
Yurdumun xəbərini bilirmisən? De mənə!
Qara başım qurban olsun, suyum, sənə! – dedi.

Su nə xəbər verəcək! Sudan keçdi, bu dəfə bir qurda tuş oldu. «Qoy, qurdla da bir xəbərləşim», – dedi. Görək xanım, necə xəbərləşdi:

Qaranlıq axşam olanda günü doğan!
Qaraqoç atları kişnətdirən!
Qızıl dəvə görəndə nərildədən!
Ağca qoyun görəndə quyruq çırpıb qamçılayan!
Arxasını vurub bərk ağılın ardını sökən!
Qarmalayıb qoçun kökünü alıb tutan!
Qanlı quyruq üzüb çap-çap udan!
Avazı qaba köpəklərə qavqa salan,
Çaxmaxlıca çobanları gecə qorxudan!
Yurdumun xəbərini bilirmisən? De mənə!
Qara başım qurban olsun,o qurd sənə!

Qurd nə xəbər verəcək! Qurddan da keçdi. Qaraçuq Çobanın qara köpəyi Qazana qarşı gəldi. Qazan qara köpəklə xəbərləşdi, görək necə xəbərləşdi:

Qaranlıq axşam olanda vaf-vaf hürən!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Acı ayran töküləndə çap-çap içən!
Gələn oğruları qorxudan!
Qorxudub səs-küy ilə hürküdən!
Yurdumun xəbərini bilirmisən? – De mənə!
Qara başım sağlığında yaxşılıqlar
edərdim, köpək, sənə! – dedi.

Köpək nə xəbər verəcək! O, Qazanın atının ayağına düşdü zingildədi. Qazan bir qamçı ilə onu vurdu; köpək çəkildi, gəldiyi yolla getdi. Qazan köpəyi qovlayıb Qaraçuq çobanın yanına gəldi. Çobanı gördükdə, onunla xəbərləşdi, görək nə xəbərləşdi:

Qaranlıq axşam olanda qayğılı Çoban!
Qarla yağmur yağanda çaxmaqlı Çoban!
Ünüm inlə, sözüm dinlə!
Ağban evim burdan keçmiş gördünmü? – De mənə!
Qara başım qurban olsun, Çoban, sənə!

Çoban dedi:

— Ölmüşmiydin, itmişmiydin, Qazan?! Harada gəzirdin? Bizə deyəydin Qazan, dünən yox, ötəki gün evin burdan keçdi. Qarıcıq anan qara dəvə boynunda asılı getdi!

Qırx incə belli qızla arvadın Boyu uzun Burla xatun, ağlaya-ağlaya burdan keçdi.

Qırx igidlə oğlun Uruz başıaçıq, yalınayaq, yağıların yanınca dustaq getdi.

Tovla – tovla şahbaz atlarını düşmən minmişdi,
Qatar – qatar qızıl dəvələrini yedəkləmişdi,
Qızıl–gümüşünü, bol xəzinəni yağı almış, aparmışdır!

Çoban belə decək, Qazan ah etdi, ağlı başından getdi. Dünya – aləm gözündə qaranlıq oldu. Dedi:

— Ağzın qurusun, Çoban! Dilin çürüsün, Çoban! Bu nə sözdü söylədin, Çoban!

Çoban:

— Nə qışqırırsan mənə ağam Qazan?!
Yoxsa, köksündə yoxdur iman?

Altı yüz düşmən üzərimə gəldi. İki qardaşım həlak oldu. Üç yüz düşmən öldürdüm, cəng etdim. Nə bir kök qoyun, nə artıq toğlu sənin qapından yadlara vermədim. Üç yerdən yaralandım, yalqız qaldım. Günahım bumudur? – dedi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çoban yenə söylədi: Əgər gücün çatmırsa: Qonur atını ver mənə!

Altmış tutam köndərini ver mənə!
Ap-alaca qalxanını ver mənə!
Qara poladüz qılıncını ver mənə!
Sadağından səksən oxunu ver mənə!
Bərk ağaclı sərt yayını ver mənə!
Düşmənin ardınca mən gedərəm,
Evini – ailəni mən qurtararam! – dedi.

Qazana qəhər gəldi, atını çapdı, Çoban da Qazanın ardınca getdi. Qazan döndü baxdı, dedi:

— Oğul, Çoban, hara gedirsən?

Çoban dedi:

— Sən evini – ailəni qurtarmağa gedirsən, mən də qardaşlarımın qanını almağa gedirəm.

Qazan dedi:

— Oğul, Çoban, qarnım acdır. Yeməyə bir şeyin varmı?

Çoban dedi:

— Gecədən bir quzu bişirib götürmüşəm. Gəl bu ağacın dibində düşək, yeyək.

Atdan endilər, Çoban dağarcığı açdı, yeməyi çıxartdı yedilər. Qazan öz-özünə düşündü: «Əgər Çobanla getsəm, bütün Oğuz camaatı mənim başıma qaxınc qaxarlar. Çoban olmasa idi, Qazan ailəsini qurtara bilməzdi», – deyərlər.

Qazan qalxıb, Çobanı möhkəm bir ağaca sarıdı. Atlandı, çapıb gedərkən Çobana dedi:

— Əyə, Çoban, qarnın acmamışkən, gözün qaralmamışkən bu ağacı gör qopara bilərsənmi! Yoxsa, səni burada qurdlar – quşlar basıb yeyər!

Qaraçuq Çoban güc elədi, böyük ağacı köklü-köçməgli qopardı, arxasına aldı, Qazanın ardına düşdü.

Qazan baxdı gördü ki, Çoban ağacı arxasına almış gəlir. Dedi:

— Əyə, Çoban,bu ağacı neyləyirsən?

Çoban:

— Ağam Qazan, bu ağac o ağacdır ki, sən düşməni basarsan, qarnın acıxar, mən sənə bu ağacla yemək bişirərəm, – dedi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qazana bu söz xoş gəldi. Atından endi. Çobanın əllərini açdı, alnından öpüb dedi:

— Əgər evimi-ailəmi qurtarsam, sənə böyük bəxşiş- lər verəcəyəm. İkisi birlikdə yola düşdülər.

Bu yanda Şukili Məlik adamları ilə yeyib-içib kef edirdi. O, adamlarına dedi:

— Bəylər, bilirmisiniz Qazana necə heyf eləmək gərək?

Boyu uzun Burla xatunu gətirək, bizə badə gəzdirmək lazımdır. Boyu uzun Burla xatun bunu duydu, ürəyinə, canına odlar düşdü, qırx incə belli qızın içinə girdi, öyüd ver, dedi:

— Kimə yanaşarlarsa, Qazanın arvadı hansınızdır, qırx yerdən hay verərsiniz.

Şukili Məlikdən adam gəldi.

— Qazan bəyn arvadı hansınızdır?-dedi:

Qırx yerdən səs gəldi. Hansıdır, bilmədilər.

Şukili Məliyə xəbər verdilər:

— Birinə yapışdıq, qırx yerdən avaz gəldi, bilmədik hansıdır, – dedilər.

Şukili Məlik dedi:

— Əyə, gedin Qazanın oğlu Uruzu qənərədən asın, ətindən kəsib qara qovurma bişirin, qırx qıza verin, hər kim yedi, o deyil, hər kim yemədi, odur. Alın gəlin, badə gəzdirsin!

Boyu uzun Burla xatun bunu eşitdi, oğlunun yanına gəldi. Çağırıb oğluna söylədi, xanım, görəlim nə söylədi:

Oğul, oğul, ay oğul!
Bilirmisən nələr oldu?
Söyləşdilər fısıl-fısıl,
Kafirlərin felin duydum,
Uca, yaraşıqlı evimin bəzəyi oğul!
Qaza bənzər qızımın, gəlinimin çiçəyi oğul!
Oğul, oğul ay oğul!
Doqquz ay dar qarnımda
Götürdüyüm oğul,
On ay deyəndə dünyaya gətirdiyim oğul!

İllər ilə yerdən-göydən dilədiyim oğul!
Tolama beşikdə bələdiyim oğul!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yağılar tərs danışdılar:
Qazan oğlu Uruzu həbsdən çıxarın.
Boğazından örkənlə asın,
İki kürəyindən çəngələ sancın.

Ağ ətindən kəsin, qara qovurma edib qırx qıza verin, hər kim yedi, o deyil. Hər kim yemədi o, Qazanın arvadıdır, çəkin döşəyimizə gətirəlim, sığraq sürdürəlim, – demişlər.

Sənin ətindən oğul yeyimmi?
Yoxsa alçaq düşmənin döşəyinə girimmi?

Atan Qazanın namusunu sındırımmı, necə edim oğul? – dedi.

Uruz bunu eşitcək qəzəbləndi:

Ağzın qurusun, ana!
Dilin çürüsün, ana!
Ana haqqı – Tanrı haqqı deyilməsəydi,
Qalxıban yerimdən duraydım,
Yaxanla boğazından tutaydım,
Qaba öncəm altına salaydım,
Ağzınla burnundan qan şorladaydım.
Can dadlısın, sənə göstərəydim.
Bu nə sözdür, çəkil, ana!
Mənim üzərimə gəlməyəsən,
Mənim üçün ağlamayasan.
Qoy, məni çəngələ vursunlar.
Qoy, ətimdən çəksinlər,
Qara qovurma etsinlər,
Qırx qızın önünə gətirsinlər.
Onlar bir yeyəndə, sən iki ye!
Səni yağılar tanımasınlar, duymasınlar.
Ta ki, alçaq düşmənin döşəyinə getməyəsən!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Atam Qazanın namusunu sındırmayasan!

Oğlan belə decək, Boyu uzun Burla xatun boynunu – qulağını aldı diddi. Payız alması kimi al yanağını aldı dartdı, yırtdı. Qarğı kimi qara saçını yoldu. «Oğul, oğul», – deyib fəryad etdi, ağladı.

Uruz dedi:

Ana, nə ağlarsan!
Qarşımı alıb nə uflarsan?
Haray çəkib nə sızlarsan?!
Bağrımı, ürəyimi nə dağlarsan?
Keçmiş günümü mənə nə andırarsan?
Hey, ana! Ərəbi atlar olan yerdə
Bir qulunu olmazmı olur?
Qızıl dəvələr olan yerdə
Bir köşəyi olmazmı olur?
Ağca qoyunlar olan yerdə
Bir quzusu  olmazmı olur?
Sən sağ ol, ana!
Atam sağ olsun!
Bir mənim kimi oğlan tapılmazmı olur? – dedi.

Belə decək anasının qərarı qalmadı. Yüyürüb getdi. Qırx incə belli qızın içərisinə girdi. Düşmənlər Uruzu alıb qənərə dibinə gətirdilər. Uruz dedi:

— Əyə, cəllad, aman! Tanrının birliyinə yoxdur güman!  Qoy məni, bu ağaca bir iki sözüm var, söyləyim.

Dedilər:  – Söylə.

Uruz ağaca üz tutub söylədi, görək nə söylədi:

Ağac-ağac dersəm sənə ərlənmə, ağac,
Məkkə ilə Mədinənin qapısı ağac!
Museyi-Kəlimin əsası ağac!
Böyük-böyük suların körpüsü ağac!
Qara- qara dənizlərin gəmisi ağac!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şahi-mərdan Əlinin Duldulunun yəhəri ağac.
Zulfiqarinin qınının qəbzəsi ağac.
Şah Həsənlə Hüseynin beşiyi ağac!
İstər kişi, istər qadın qorxusu ağac!
Baş yuxarı baxsam əgər, başsız ağac!
Dibi aşağa baxsam əgər, dibsiz ağac!
Məni səndən asarlar götürmə, ağac!
Əgər götürsən, igidliyim səni tutsun, ağac!
Bizim eldə gərək idin ağac.
Qara hindu qullarıma buyuraydım,
Səni para-para doğruyaydılar, ağac!
Sonra yenə dedi:
Tovla-tovla bağlananda atıma yazıq!
Qardaş saxlayanda yoldaşıma yazıq!
Yumruğumda talbinanda şahin quşuma yazıq,
Yetər ilə tutanda avıma yazıq.
Bəyliyə doymadım özümə yazıq.
Yiğitliyimdən usanmadım özümə yazıq!
Uruz yumru-yumru ağladı, yanıq ciyərciyini dağladı.

Elə bu məhəldə Salur Qazanla Qaraçuq Çoban çaparaq özlərini yetirdilər. Salur Qazanın pəhləvanlığı bir yana, təkcə Qaraçuq Çobanın görkəmi düşmənin bağrını yardı. Çobanın üçyaşar dana dərisindən sapandının içi, üç keçi tükündən qolları idi. Hər atanda on iki batman daş atırdı. Atdığı daş yerə düşməzdi. Düşsə idi,toz kimi sovrulardı, ocaq kimi oyulardı. Üç ilədək daşın düşdüyü yerdə ot bitməzdi. Əgər kök qoyun, arıq toğlu bayırda qalsa idi, sapandının qorxusundan qurd gəlib yeməzdi. Elə ki, Qaraçuq  Çoban qoyun boyda daşı qoyub bircə dəfə sapandı çatlatdı, dünya aləm düşmənin gözünə qaranlıq oldu.

Qazan dedi:

— Əyə, Çoban, bəlkə dava etmədən, qan tökmədən əsirləri xilas edib geri dönək?

O, üzünü düşmənə tutub dedi:

— Əyə, Şukili Məlik!

Dünlüyü altun ban evlərimi soyub  gətirmişsən,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sənə kölgəlik olsun!
Ağır xəzinəmi, bol dövlətimi gətirmişsən,
Sənə xərclik olsun!
Qırx incə belli qızla Burla Xatunu gətirmişsən,
Sənə yesir olsun!
Qırx yigitlə oğlum Uruzu gətirmişsən,
Qulun olsun,

Tovla-tovla şahbaz atları gətirmişsən, sənin olsun!
Qatar-qatar dəvələri gətirmişsən, sənin olsun!
Nə qədər mal-dövlətimizi gətirmişən, sənin olsun!
Amma anadan əziz dünyada nə var ki?! Anamı qaytar,
Arvadımı, oğlumu və bütün əsirləri ver, davasız qırğınsız geri dönək!
Şukili Məlik gülüb dedi:
Əyə, Qazan, nə axmaq danışırsan?!
Evini çapıb gətirmişik, verməndik!
Qırx incə belli qızla, arvadın Burla xatunu gətirmişik, vermərik!
Qırx igidlə oğlun Uruzu gətirmişik, vermərik!
Qoca qarı ananı gətirmişik, vermərik!
Tovla-tovla şahbaz atını gətirmişik, vermərik!
Qatar-qatar dəvələrini gətirmişik, vermərik!
Bol xəzinəni gətirmişik, vermərik!
Qarıcıq ananı gətirmişik, bizimdir.
Sənə vermərik, Yayxat keşiş oğluna verərik.
Yayxat keşiş oğlundan oğül doğar.
Biz onu sənə hərif (qırımı) qoyarıq, – dedi. Hünəriniz var, irəli durun dava edək.
Şukili Məlik belə deyəndə Qaracıq Çobanın hirsindən dodaqları titrədi, dedi:
— Əyə dini yox ağılsız kafir,
Qarşı yatan qara dağlar
Qarıyıbdır, otu bitməz,
Qanlı-qanlı irmaqlar,
Quruyubdur suyu gəlməz.
Şahbaz-şahbaz atlar qarıyıbdır,
Qulun verməz.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qızıl-qızıl dəvələr qarıyıbdır,
Köşək verməz.
Ədə kafir, Qazanın anası
Qarıyıbdır, oğul verməz!
Dölün almaqdan muradın varsa,
Sən qızını ver Qazana,
Ondan oğul doğsun,
Biz onu sənə hərif qoyarıq.

Qazan dedi:

— Əyə çoban, sən dayan. Mən dedim dava etmə- yək, qan tökməyək, yoxsa on min gəlsələr, tək özüm onlara aman vermərəm!

Qazan özünü kafir qoşununa vurdu. At ayağı külək, ozan dili çevik olar. Yaxşı demişlər:– dost dostu darda qoymaz.

Elə bu dəmdə Oğuz qəhrəmanları özlərini yetirdilər. Hamıdan əvvəl at belində çaparaq gələn Qara dərə ağzında qadir verən, qara buğa dərisindən puşəkinin (çuxasının) yapuğu olan, acığı tutanda bir yumruqla qara daşı kül eləyən, bığını qulağının dibində yeddi yerdən düyən, pəhləvanlar pəhləvanı Salur Qazanın qardaşı Qaragünə idi: O, çal qılıncın igid Qazan yetdim! – dedi.

Bunun ardınca Dəmir qapı Dərbənddəki dəmir qapını təpib alan, altmış tutam uzun cidasının ucunda düşmən böyürdən qıyan Səlcuq oğlu Dəli Dondar çapar yetdi: Cal qılıncın ağan Qazan yetdim! – dedi.

Bunun ardınca, xanım, görəlim kimlər gəldi. Həmidlə Mardin qalasını təpib yıxan Dəmir yaylı Qıpçaq Məliyə qan qusduran, gəlibən öz əmisi Salur Qazanın qızını igidliklə alan, Oğuzun ağ saqqallı qocalarının hörmətini qazanan, al məxmuri şalvarlı, atı bəhri qotazlı Qaragünə oğlu Qarabudaq özünü yetirdi: Çal qılıncın ağam Qazan yetdim, – dedi.

Bunun ardınca görəlim, xanım kimlər yetdi:

Buyruqsuz Bayandır xanın yağısın basan, altmış min kafirə qan qusduran, ag-boz atının yalı üzərində qar buz bağlayan Qəflət Qoca oğlu Şir Şəmsəddin Çapar yetdi:

— Çal qılıncın ağam Qazan, yetdim, – dedi.

Bunun ardınca görəlim, xanım, kimlər gəldi:

Parasarın Bayburd hasarından quş kimi uçub nişanlısını namərd əlindən alan, 16 il həsrətini çəkən yeddi bacının qardaşı, Qalın Oğuzun sevimlisi, Qazan bəyin ən eti-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

barlı adamı Boz ayqırlı Beyrək özünü yetirdi. Çal qılıncın agam Qazan gəldim, – dedi:

Bunun ardınca çal qaraquş görkəmli, qulağı altun kupəli Qalın Oğuz bəylərini bir-bir atdan salan Qazlıq Qoca oğlu Bəy Yeynək özünü yetirdi:

— Çal qılıcın, agam Qazan, yetdim, – dedi. Bunların ardınca görəlim, xanım daha kimlər gəldi.

Altı erkəc dərisindən kürk eləsə topuqlarını örtməyən, papaq etsə qulaqlarını örtməyən, qolu-budu zorba, uzun baldırları incə, Qazan bəyin dayısı, at ağızlı Aruz Qoca, daha sonra, varıban Peyğəmbərin üzünü görən, gəlibən Oğuzda onun səhabəsi (həmkarı) olan, acığı tutanda bığlarından qan çıxan bığı qanlı Bəkdüz Əmən, kafirləri it ardına buraxıb alçaldan, eldən çıxıb Ayqırgözlü suyunda at üzdürən, əlli yeddi qalanın kilidin alıb, Ag Məlik Çeşmə qızına nikah edən, Suni Sandal Məliyə qan qusduran, qırx cubbə bürünüb otuz yeddi qala bəyinin gözəl qızlarını çalıb bir-bir qucan, üzündən, dodağından öpən, elin qoca oğlu Alp Ərən capar yetdi. Çal qılıncın, ağam Qazan, yetdim, – dedilər. Saymaqla Oğuz bəyləri qurtaran deyil. Alay-alay gəlib baş sərkərdənin arxasında düzləndilər. Əvvəlcə arı (pak) sudan dəstəmaz alıb, alınların yerə qoyub iki rükət namaz qıldılar. Adı görklü Məhəmmədə salavat gətirdilər. Təklifsiz kafir üzərinə hücum edib qılınc çaldılar. Gumbur-gumbur nağaralar döyüldü, burması altun borular çalındı.

O, gün ciyərli ərlərin
İyidliyi  üzə çıxdı.
Tanınmamış çox igidin
Burda adı təzə çıxdı.
Görünməmiş savaş oldu,
Meydanlar dolu baş oldu.
Şahbaz atlar yürüşdülər,
Sürət ilə nalı düşdü.
İti qılınclar qırıldı,
Ox atıldı yayı düşdü.
Dəhşətli bir döyüş oldu.
Kimi öldü, kim qurtuldu.
Qardaş qardaşdan ayrıldı,
Yoldaş yoldaşdan ayrıldı,
Bəy nökərindən ayrıldı,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nökər bəyindən ayrıldı.

Daş Oğuz bəyləri ilə Dəli Dondar sağdan təpdi, tanınmış igidlərlə Qaragünə oğlu Dəli Budaq soldan təpdi.

İç Oğuz bəyləri ilə Qazan ortadan yürüş elədi, Şukili Məliyi böyürdübən atdan saldı, başın kəsdi, al qanını yerə tökdü. Sağ tərəfdə Qaratəkur Məliyə Qiyan Səlcuq oğlu Dəli Dondar qarşı gəlib sag yanını qılıncladı, yerə saldı, sol tərəfdə Buğacıq Məliyə Qaragünə oğlu Dəli Budaq qarşı gəlib altı pərli gürzü ilə təpəsinə elə çaldı ki, dünya aləm gözündə qaraldı, at boynun qucaqlayıb yerə düşdü. Qazan bəyin qardaşı kafirin tuğu ilə bayrağını qılıncladı, yerə saldı. Dərələrdə, təpələrdə kafirə qırğın düşdü, leşinə quzğun daraşdı. On iki min kafir qılıncdan keçdi. Beş yüz Oğuz igidi şəhid oldu. Qaçanı Qazan bəy qovmadı, aman deyəni öldürmədi. Bütün Oğuz bəyləri külli qənimət ələ keçirdilər.

Qazan bəy ordusunu, ailəsini, oğlunu, uşağını, xəzinəsini aldı, geri döndü. Altuntaxtda yenə evini tikdi. Qaraçuq çobanı əmiraxur (yembəyi) təyin elədi. Yeddi gün, yeddi gecə yemək-içmək oldu. Qırx baş qul, qırx qaravaşı oğlu Uruzun başına dolandırıb azad etdi. Tanınmış qoç igidlərə böyük bəxşişlər, yer, qiymətli paltarlar verdi.

Dədəm Qorqud qəlib boy boyladı, soy soyladı, bu oğuznaməni (dastanı) düzüb-qoşdu, böylə dedi:

Hanı dediyim bəy ərənlər,
Dünya mənim deyənlər.
Əcəl aldı, yer gizlədi,
Fani dünya genə qaldı.
Gəlimli-gedimli dünya,
Son ucu ölümlü dünya!

Yum verəyim (tamamlayayım), xanım!
Qarlı qara dağların yıxılmasın!
Kölgəlicə qaba ağacın kəsilməsin!
Daşqın axan görklü (gözəl) suyun qurumasın!
Qanadların qırılmasın.
Qadir Tanrı səni



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Namərdə möhtac etməsin!
Çaparkən ağ-boz atın büdrəməsin.
Çarpışanda qara noladüz
Qılıncın kütəlməsin!
Dartışarkən ala köndərin ovanmasın.
Ağsaqqallı baban yeri uçmaq (cənnət) olsun.
Ağbirçəkli anan yeri behişt olsun!
Axır-sonu arı imandan ayırmasın!
Amin, amin deyənlərin uzun görsün!
Ağ alnında beşər kəlmə dua qıldıq,
Qəbul olsun.
Allah verən umudin üzülməsin!
Yığışdırsın, duruşdursun,
Günahlarınızı adı görklü
Məhəmməd Mustafa uzu suyuna bağışlasın,
Xanım, hey!

## BEYRƏYİN DASTANI

Keçmişdə el arasında belə bir adət var idi. İki yaxın ailənin eyni vaxtda bir oğlu, digərinin isə qızı olsaydı, elə o vaxtdan əhd edib bir-birinə adaxlardılar. Buna göbəkkəsdi deyərdilər.

Oğuz qəhrəmanlarından Bayburanın oğlu yox idi. Bir gün yenə Bayandır xan böyük məclis qurmuşdu. Hər yerdə ipək xalçalar döşətdirmişdi. Bütün Oğuz bəyləri Bayandır xanın söhbətinə yığışmışdı. O da bu məclisdə əyləşmişdi. Baxdı ki, Bayandır xanın qarşısında Qazan xanın qardaşı Qaragünə oğlu Qarabudaq bəy dayanıb, sağ yanında Qazan oğlu Uruz, sol yanında Qazlıq qoca oğlu Bəg Yeynək durmuşdur. Baybura bəy bunları görəndə ağlı başından gedib, kövrəlib, hönkür-hönkür ağlamağa başladı. Bunu görcək Qalın Oğuzun dayağı Bayandır xanın köygüsü Salur Qazan qaba dizi üzərinə çöküb ona çəpinə baxaraq dedi:

— Baybura bəy, nə ağlayıb, bozlayırsan?

Baybura bəy dedi:

— Xan Qazan, niyə ağlayıb, bozlamayım ki, oğulda ortacım, qardaşda qədrim yoxdur. Allah-taala məni qarğayıbdır. Bəylər, taxtım-tacım üçün ağlayıram! Bir gün yıxılıb ölsəm, qorxuram ki, yurdumda kimsə qalmaya!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qazan xan dedi:

— Elə məqsədin bumudur?

Baybura bəy dedi:

— Bəli, budur, əgər oğlum olsa, Xan Bayandırın qarşısında durub qulluq eləsə, mən də sevinib, güvənib fəxr edərdim.

Belə deyincə Oğuz bəyləri göyə üz tutub, əl qaldırıb dua elədilər. Allah-taala sənə bir oğul versin, –dedilər. O zaman bəylərin alqışı alqış, qarqışı qarqış idi. Duaları müstəcəb olurdu.

Baybecan bəy də yerindən durdu.

— Bəylər! Mənim də haqqıma bir dua eləyin, Allah-təala mənə də bir qız versin, – dedi.

Qalın Oğuz bəyləri əl qaldırdılar, dua etdilər – Allah-taala sənə də bir qız versin – dedilər. Baybecan bəy dedi: Allah-taala mənə bir qız versə, siz tanıq olun, mənim qızım Baybura bəyin ogluna beşikkərdi yavuqlu olsun!

Baybura bəy çoxlu xeyirli işlər gördü, yetimlərə, yoxsullara pul payladı, yemək verdi, yardım etdi. Bundan sonra onun bir oğlu oldu. Baybecan adlı kişinin də qızı oldu. Onlar bu uşaqları göbəkkərdi adaxladılar. Uşaqlar bir-birini görmədən böyüdülər. Oğlan hələ uşaqkən Baybura bəy Stanbula gedən tacirlərə tapşırmışdı ki, onun üçün yaxşı ərməğanlar alsınlar. Bazirganlar onun üçün bir dəniz qulunu boz ayqir, bir ağ tozlu qatı yay , bir dənə də altı pərli  gürz və digər ərməğan alıb geri dönürdülər.

Oğlan artıq böyümüşdü – on yaşından 15 yaşına girdi, çaya baxsa çalımlı, Çalqaraquş ərdəmli bir gözəl igid oldu. O zamanda bir oğlan düşmənlə vuruşub baş kəsməsə, qan tökməsə, ad qoymazdılar.

Bir gün oğlan atlandı, ava çıxdı. Av avlarkən atasının tövləsi üzərinə gəldi. Əmiraxurbaşı onu sevinclə qarşıladı, düşürdü, qonaqladı, yeyib-içib otururlardı. Bu yandan dəxi bazirqanlar gəlib, Qara Dərvənd ağzına qonmuşlardı. Yarımasın-yarçımasın Evnik qalasının kafirləri onları casusladı, bazirganlar yatırkən, qafilcə beş yüz kafir hücum edib bütün şeylərini  yəğmaladılar. Bazirganın böyüyü tutuldu, kiçigi qaçaraq Oğuza gəldi. Baxdı gördü, Oğuzun ucunda bir uca çardaq    dikilmişdir, bir əmirzadə gözəl oğlanla sağında, solunda yoldaşları oturub yeyib-içirlər. Dedi elə onacaq qaçıb xəbər versəm, kömək edər. Bəzirgan dedi:

— İgid, bəy igid,

Sən mənim ünüm ünlə, cözüm dinlə. 16 ildir ki, Oğuz içindən getmiş idik, dan-danışıq ilə kafir malın Oğuz bəylərinə gətirirdik.  Pasinük qara Dərvənd ağzında düş-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

müşdük Evnik qalasının beş yüz kafiri üzərimizə tökülüşdü. Qardaşım dustaq oldu, malımızı – rizqimizi yəğmaladılar, geri göndülər,

Qara başım götürdüm sənə gəldim, qara başın sədəqəsi igid, mədəd-mənə dedi.

Bunu eşidib oglan şərab içərkən içməz oldu. Qızıl badəsini yerə çaldı, dedi:

—Nə deyirəm eşidin, geyimimlə mənim şahbaz atımı gətirin. Hey, məni sevən igidlər atlansınlar! – dedi.

Bazirgan dəxi önlərinə düşdü, bələdçilik etdi.

Kafirlər də bir yerdə düşüb tacirlərin pulunu-malını bölüşməkdə idi. Elə bu zaman igidlərin aslanı, pəhləvanların qaplanı Boz oglan özünü yetirdi. Bir, iki – demədi, kafirləri qılınca doladı. Vurdu baş qaldıran kafirləri öldürdü, böyük igidlik göstərdi, bazirganların bütün malını, pulunu düşməndən azad elədi, qurtardı.

Bazirganlar dedilər:

— Yiİgid, sən bizə kişilik etdin, gəl indi bəyəndiyin maldan nə istəyirsən, seç götur.

Yigidin gözü bir dəniz qulunu boz ayqırı, bir də altı pərli gürz ilə ağ tuzlu yayı tutdu. Gördü bazirganlar pis oldular, dedi:

— Mərə bazirganlar, çoxmu şey istədim?

Bazirganlar dedilər:

— Xeyr, sultanım! Çox deyil. Amma, Bəy yigid, bu üç şeyi bizim bir bəyimiz oğlu var ona ərməğan aparasıyıq. Oglan dedi: – Mərə bəyiniz oglu kimdir? Dedilər: — Baybura bəyin oğluna aparırıq. Oğlan məsələni bilib, atını çevirib geri döndü. Bazirganlar arxasınca baxıb: — Vallah yaxşı yigid, Bəy mürüvətli yigiddir,– dedilər.

Bu tərəfdə də Baybura bəy bazirganların gəldiyini eşidib, yaxşı bir məclis qurdurdu. Oğlan atasının yanında oturmuşdu. Bazirganlar onu görüb qabaqca oglana baş əyib salam verdilər, əlini öpdülər.

Baybura bəy pərt olub acıqlandı, bazirganlara dedi:– Mərə axmaq uşağı ata dururkən ogulun əlini öpərlər?

Dedilər: — Xanım, bu yigid sənin oğlundurmu?

— Bəli, mənim oğlumdur.

Dedilər: — İndi incimə, xanım, qabaqca onun əlini öpməyimizə. Əgər sənin oğlun olmasaydı, bizim malımız Gürcüstanda əlimizdən getmişdi, hamımız da dustaq olmuşduq.

Baybura bəy dedi:

— Mərə mənim oğlum baş kəsdimi, qan tökdümü?!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

— Bəli, baş kəsdi, qan tökdü, – dedilər.
— Mərə, bu oğlana ad qoymaq vaxtıdırmı, – dedi.
— Bəli, sultanım, artıq vaxtıdır.

Baybura qalın oğuz bəylərini çağırdı, Dədəm Qorqud gəldi, oğlana ad qoydu, dedi:

— Sözüm dinlə, Baybura bəy, Allah-taalə sənə bir ogul vermişdir, ona dayaq dursun. Ağır sancaq götürəndə müsəlmanların arxası olsun! Qarşı yatan qara qarlı dağlardan aşanda Allah-taala sənin ogluna aşıt versin.

Qanlı-qanlı sulardan keçər olsa keçit versin.
Qalabalıq kafirə girəndə Allah-taala sənin ogluna fürsət versin
Sən oglunu Basam deyib oxşarsan, bunun adı Boz ayqırlı Bamsı Beyrək olsun!
Adını mən verdim, yaşını Allah versin, – dedi.

Qalın Oğuz bəyləri əl götürdülər, dua qıldılar.

— Bu ad bu yigidə qutlu olsun! – dedilər.

Bəylər hamısı atlanıb ava çıxdı. Boz ayqırın çəkdirib Beyrək də atlandı. Nagah Oğuzun üzərinə bir sürü keyik gəldi. Bamsı Beyrək birinin dalınca düşüb qova-qova bir çəmənliyə gəldi. Gördü göy çəməndə bir qırmızı çadır qurulmuşdur.

«Ya Rəbb, bu çadır kimin ola?» – deyə düşündü.

Xəbəri yox idi: bu alacağı ala gözlü qızın otağıdır. Otağın üzərinə getməyi ayıb bildi, lakin nə olur olsun, mən avımı almalıyam deyib, keyiki otağın önündə sinirlədi. Baxdı gördü bu otaq Baybecan qızı Banıçiçəyin, öz göbəkkətmə adaxlısının otağı imiş!

Banıçiçək çadırdan baxırdı. Bunu görüb dedi:

— Ay qızlar, bu oğlan bizə igidliyinimi göstərir?

— Gedin, ondan pay istəyin, görün nə deyir.

Qızlardan biri irəli gəldi, pay istədi.

— Ey igid, bizə də bu keyikdən pay ver! – dedi.

Beyrək:

— Xanım, mən ovçu deyiləm, hamısı sizin olsun, – dedi. Amma soruşmaq ayıb olmasın bu çadır kimindir? Qız dedi:

— İgid, bu çadır Baybecanın qızı Banıçiçəyindir. Bunu eşidəndə Beyrəyin qanı qaynadı. Ədəblə yavaş-yavaş geri döndü.

Qızlar keyiki içəri gətirdtlər. Banıçiçək baxdı gördü ki, doğrudan da, bu çox gözəl keyikdir. O, qızlara:

— Ay qızlar, bu igid nə igiddir? – dedi. Qızlar dedilər:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

— Vallah, xanım, bu igid üzü niqablı, yaxşı bir igiddir.

Banıçiçək:

— Hey-hey, qızlar! Atam mənə: mən səni üzü niqablı Beyrəyə vermişəm, – deyərdi. Olmaya bu, odur. Çağırın gəlsin, xəbər alaq.

Çağırdılar, Beyrək gəldi. Banıçiçək başına örtük salıb xəbər aldı:

— Oğlan, gəlişin haradan?

Beyrək dedi:

— İç Oğuzdan.

— İç Oğuzda kimin oğlusan?

— Baybura oğlu Bamsı Beyrək dedikləri mənəm!

— Bəs, buraya niyə gəldin, igid?

Beyrək cavab verdi:

— Eşitdim Baybecanın bir qızı var, onu görməyə gəldim.

Banıçiçək:

O, qız elə adam deyil ki, sənə görünə, – dedi, amma mən Banıçiçəyin dayəsiyəm. — Gəl, indi səninlə at çapaq, ox ataq, əgər məni keçərsənsə, onu da keçərsən. Və həm səninlə güləşək, məni yıxarsansa, onu da yıxarsan, – dedi.

Beyrək dedi:

— Yaxşı, atlanaq!

Hər ikisi atlandılar, meydana çıxdılar, at çapdılar, Beyrəyin atı qızın atını keçdi. Ox atdılar, Beyrək qızın oxunu yardı.

Qız dedi:

— Əyə, igid indiyədək heç kəs mənim atımı keçməmiş və oxumu yarmamışdır. İndi gəl səninlə güləşək.

O dəm Beyrək atdan endi. Qarmalaşdılar, iki pəhləvan olub bir-birinə sarmaşdılar. Beyrək götürər qızı yerə vurmaq istər, qız götürüb Beyrəyi yerə vurmaq istərdi. Beyrək sarsılıb fikirləşdi: «Bu qız məni yıxsa, bütün el içində başıma qaxınc olar». Qeyrətə gəldi. Fırladı qızın döşbagını aldı, əmcəyindən tutdu. Qız sarsıldı, Beyrək bu dəfə qızın incə belinə girib onu düz arxası üstə yerə vurdu.

Qız dedi:

— İgid, Baybecan qızı Banıçiçək mənəm, – dedi.

Beyrək üç öpdü, bir dişlədi. — Düyün qanlı olsun xan qızı! – deyib öz barmağından qızıl üzüyünü çıxardı, qızın barmağına keçirdi.

Aramızda bu, nişan olsun! – dedi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qız dedi:
— Çun belə oldu, irəli durmaq gərək, bəy oğlu, – dedi!
Beyrək də: Nola xanım baş üstə! – dedi.
Beyrək qızdan ayrılıb evlərinə gəldi. Ağsaqqallı atası ondan soruşdu:
— Oğul, bu gün Oğuzda nə gördün?
Beyrək dedi:
— Nə görəcəm, ata, oğlu olan evləndirmiş, qızı olan köçürmüşdür.
Atası dedi:
— Oğul, gəlsənə səni də evləndirim?
Beyrək:
Bəli, ağsaqqallı ata, məsləhət sənindir, – dedi.
Atası dedi:
— Yaxşı, Oğuzda kimin qızını sənə alım?
— Ata mənə elə bir qız al ki, mən yerimdən durmamış, o durmuş olsun. Mən atıma minməmiş, o minmiş olsun. Mən döyüşə girməmiş, o, mənə baş gətirsin! Bunun kimi qız alı ver, ata mənə – dedi.
Atası dedi:
— Oğul, sən qız istəməzsən, özünə döyüş yoldaşı, bir pəhləvan istəyirsən! Oğul, bəlkə sən istədiyin Baybecan qızı Banıçiçək ola?
Beyrək dedi:
— Bəli, ağ saqqallı əziz ata. Mən istədiyim odur!
Atası dedi:
— Ay oğul! Banıçiçəyin bir dəli qardaşı vardır, adına Dəli Qoçər, deyərlər, bacısını kim istəsə, onu öldürür.
Beyrək dedi:
— Onda bəs, neyləyək?
Baybura bəy dedi:
— Oğul, bütün Oğuz ağsaqqallarını çağıraq. Necə məsləhət görürlərsə, elə də edərik!
Bütün Oğuz ağsaqqallarını çağırdılar. Böyük qonaqlıq elədilər, yedilər-içdilər, söz açıb söhbət saldılar: «Banıçiçəyi istəməyə kim gedə bilər?» – dedilər. Məsləhət gördülər ki, Dədə Qorqud getsin.
Dədə Qorqud dedi:
— Dostlar, siz özünüz Dəli Qoçərin xasiyyətinə bələdsiniz, barı, Bayandır xanın



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

tovlasından iki şahbaz, yüyrək at gətirin, biri Keçi başlı Keçər ayqırı, biri də Toğlu başlı Dür ayqırı. Əgər qaçma-qovma olarsa, birisini minərəm, birisini yedəyimə alaram.

Dədə Qorqudun sözünə tez əməl etdilər. O, atın birini mindi, birini də yedəyinə aldı. «Dostlar, sizi Haqqa ismarladım!» – deyib getdi.

Bu yanda da Dəli Qoçər yaşıl bir çəməndə yoldaşları ilə məclis qurub kef edirdi. Bu halda Dədə Qorqud gəldi, baş endirdi, bağır basdı, hörmətlə salam verdi.

Dəli Qoçərin ağzı köpükləndi, Dədə Qorqudun üzünə baxdı, dedi:

— Əleykəssəlam! Ey əməli azmış, feli dönmüş, qadir Allah ağ alnına qada yazmış! Ayaqlılar buraya gəlsə, ayaq salar, ağızlılar bu suyumdan içsə, dili yanar. Sənə nə oldu? Əməlinmi azdı? Felinmi döndü? Əcəlnmi yetdi? Buralarda neyləyirsən?

Dədə Qoqud dedi:

Qarşı yatan qara dağını aşmağa gəlmişəm,
Axntılı, coşğun suyunu keçməyə gəlmişəm,

Gen ətəyinə, dar qoltuğuna qısılmağa gəlmişəm,
Tanrının buyruğu ilə, peyğəmbərin qövmilə
Aydan arı, gündən duru bacın Banıçiçəyi
Bamsı Beyrəyə istəməyə gəlmişəm.

Dədə Qorqud belə decək, Dəli Qoçər yoldaşlarına qışqırdı:

— Əyə, nə desəm yerinə yetirin: Qara ayqırı yarağıyla gətirin!

Atını gətirdilər, Dəli Qoçər cəld mindi. Dədə Qorqud bunu görüb tez Toğlu başlı Dür ayqırı mindi, daha durmadı, qaçdı. Dəli Qoçər qova-qova ardına düşdü. Dədə Qorqudun altındakı Toğlu başlı Dür ayqır yoruldu. Dədə Qorqud Keçər ayqıra sıçradı, mindi. Dəli Qoçər Dədəni qova-qova on mənzil yer aşırdı. Arxadan yetişdi, ağsaqqalın hörmətini unutdu. Qılıncını sıyırdı, hücum çəkib Dədə Qorqudu doğramaq istədi.

Dədə Qorqud Tanrıya sığınıb dedi:

— Məni qılıncla çalsan, əlin qurusun!

Dədə Qorqud belə deyən kimi, Haqq-taalanın buyruğilə Dəli Qoçərin əli qorxusundan yuxarda quruyub asılı qaldı. Çünki Dədə Qorqud möcüzə sahibi idi.

Dəli Qoçər qışqırdı:

— Aman, əlaman! Dədə, Tanrının birliyinə yoxdur güman! Sən mənim əlimi sağalt, el adətincə bacımı Beyrəyə verərəm.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dəli Qoçər üç kərə ağzından iqrar elədi, günahına tövbə elədi, günahkar olduğunu söylədi. Dədə Qorqud alqış elədi, Dəli Qoçərin əli sappasağ oldu.

Dəli Qoçər dedi:

— Dədə, baçımı verərəm, amma gərək əvəzində mən nə istəsəm, verəsiniz.

Dədə Qorqud dedi:

— Verərik, de görək, nə istəyirsən?

Dəli Qoçər dedi:

— Mənə min buğra nər gətirin ki, maya görməmiş ola, min dəxi ayqır gətirin ki, qısrağa aşmamış ola. Min dənə qoyuna qoşulmamış qoç gətirin! Min dənə quyruqsuz köpək, min dənə də iri birə gətirin. Əgər bu dediyim şeyləri gətirsəniz, baçımı verərəm. Amma gətirməsəniz, səni bu dəfə öldürmədim, o dəfə öldürəcəyəm.

Dədə Qorqud döndü, Bayburagilin evlərinə gəldi.

Bəybura bəy dedi:

— Dədə, oğlanmısan, qızmısan?

Dədə:

Oğlanam, – dedi, qızı aldım.

— Dəli Qoçərin əlindən necə qurtuldun?

Dədə dedi: Allahın köməkliyi və müqəddəslərin yardımı oldu, qızı aldım.

Beyrəyə, anasına və bacılarına muştuluqçu gəldi. Sevindilər, şad oldular.

Baybura dedi:

— Dəli nə qədər mal istədi?

Dədə dedi:

— Yarımasın yaramazı! Dəli Qoçər elə mal istədi ki, heç tapıb toplamaq olmaz.

Baybura dedi:

— Nə istədi?

Dədə dedi:

— Min ayğır at istədi ki, ilxıya girməmiş ola adam minməmiş ola. Min dənə nər dəvə istəyib ki, indiyədək maya görməmiş ola. Min dənə qoç istəyibdir ki, qoyun üzü görməmiş ola. Min dənə də quyruqsuz-qulaqsız köpək və min dənə qaraca-qaraca iri birə istədi. Dedi ki, bu şeyləri gətirərsiniz, bacımı verərəm. Gətirməsəniz, gözümə görünməyəsən! Yoxsa səni öldürərəm.

Baybura dedi:

— İndi, Dədə, köpəklə birəni sən tap, qalanını mən taparam! Getdi tovla-tovla atlarından min ayqır seçdi, qatar-qatar dəvələrinə baxdı, min buğra nər seçdi. Qoyun-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

larından min qoç seçdi. Dədə Qorqud da min quyruqsuz-qulaqsız köpək gətirdi. Dəli Qoçərin yanına gəldi.

Dəli Qoçər eşitdi, ona qarşı gəldi:

— Görək dediyimin hamısını gətirdilərmi? – dedi. Ayqırları bəyəndi, dəvələri bəyəndi, qoçları bəyəndi. Köpəkləri görəndə qah-qah çəkib güldu.

— Dədə, bəs hanı mənim birələrim? – dedi.

Dədə Qoqud dedi:

— Ay oğul, Qoçər, sənin üçün min dənə kök birə alıb tövləyə salıb gəlmişəm. Üzləri yanmış adamı lap buğanaq kimi bürüyürlər. O, yaman heyvandır. Bir yerdə dirənib durur. Gəl gedək, özün kökünü al, arığını qoy qalsın.

O, Dəli Qoçəri bir birəli qoyun yatağına gətirdi, lüt soyundurub, ağıla saldı. Birələr Qoçərin canına daraşdılar, gördü bacara bilməyəcək, qışqırdı:

— Ay Dədə, kərəm elə! Tanrı eşqinə, qapını aç, çıxım!

Dədə Qorqud :

— Oğul, Qoçər, nə qaraqışqırıq salırsan? Götür də! Bu öz ismarladığın şeydir. Nə oldu, kökünü seç, götür, arığı qoy qalsın! – dedi.

— Ay Dədə! Tanrı bunun kökünü də alsın, arığını da! Tez məni qapıdan burax, amandır!

Dədə qapını açdı. Dəli Qoçər çıxdı. Dədə gördü ki, birələr Dəli Qoçərin canına elə daraşmış ki, gövdəsi görünmür. Üz-gözü seçilmir. Dəli Qoçər Dədənin ayağına düşdü.

— Tanrı eşqinə, məni bunlardan qurtar! – dedi.

Dədə Dorqud:

— Qaç, oğul özünü suya vur! – dedi.

Dəli Qoçər qaçdı, özünü suya saldı. Birələr suya axdı. O, paltarını geydi, evinə getdi, bacısının toyuna tədarük görməyə başladı.

Qədimdə Oğuzda bir igid evlənəndə ox atardı. Oxu nə yerə düşsə, orada çadır qurardı. Beyrək də oxunu atdı, düşdüyü yerdə çadır qurub yoldaşları ilə məclis düzəltdi. Adaxlısından bəxşiş olaraq bir qırmızı qaftan gəldi. Beyrək qaftanı geydi, incidilər. Beyrək dedi:

— Niyə incidiniz?

Yoldaşları dedi:

— Niyə inciməyək, qırmızı qaftanı sən geyəsən, biz ağ qaftan.

Beyrək dedi:

— Eybi yoxdur. Bu gün mən geyim, sabah o biriniz geysin. Qırx günə təkin növbə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ilə geyərik, ondan sonra bir yoxsula verərik.

Yoldaşlarının könlü açıldı, deyib-gülüb şadlan- dılar.

Yarımasın yaramazı, düşmənin casusu bunları gördü, gedib Bayburd qalasının bəyinə xəbər verdi, dedi: «Nə oturmusan?! Baybecan Məlik əvvəl sənə verəcəyi qızı Bozatlı Beyrəyə verdi, bu gecə toyudur». Bayburd hökmdarı əmr elədi, tez yeddi yüz atlı yaraqlanıb yola düşdü.

Beyrək isə nə bilsin, gündüz yeyib-içdikdən sonra şirin yuxu içərisində yatırdı. Quldurlar qaranlıqda qəflətən içəri soxuldular. Keşikçi qılıncını siyirib əlinə aldı: «Mənim başım Beyrəyin başına qurban olsun!» – dedi, mərdliklə vuruşdu. Onu öldürdülər, otuz doqquz igidlə Beyrəyi yatdığı yerdə tutdular, əl-qolunu bağlayıb əsir apardılar.

Sabah açıldı, atası, anası baxdı, gördü ki, Beyrəyin çadırı olduğu yerdə qurd-quş, qarğa-quzğun dolaşır. Çadır paralanmış, keşikçi həlak olmuş. Beyrəyin atası papağını götürüb yerə çaldı, dartdı yaxasını yırtdı. «Oğul, oğul», – deyib hönkürdü. Ağbirçəkli anası bıldır-bıldır ağladı, gözünün yaşını tökdü, acı dırnaqla ağ üzünü yırtdı, al yanağını dartdı, qarğı kimi qara saçını yoldu, ağlayıb-sıdqayıb evinə gəldi. Bayburanın uca evində şivən qopdu. Qızı, gəlini qah-qah gülərkən gülməz oldu. Yeddi bacı ağ çıxardıb, qara geydi. «Vay, qardaş! Muradına, məqsədinə çatmayan yalqız qardaş!» – deyib ağlaşdılar.

Beyrəyin nişanlısına xəbər çatdı, Banıçiçək ağ qaftanını çıxardı, qara geyindi. Payız alması kimi al yanağını dartdı, cırdı.

Vay al duvağım ayası,
Vay alnım başım yiyəsi!
Vay şah igidim.
Vay şahbaz igidim!
Vay doyunca üzünə baxmadığım, xanım igid!
Hara getdin, məni yalqız qoyub, canım igid!

Göz açıban gördüyüm! Könül ilə sevdiyim! Bir yastığa baş qoyduğum, yolunda öldüyüm, qurban olduğum, vay Qazan bəyin inağı, vay, Qalın Oğuzun sevimlisi Beyrək! – deyib, zar-zar ağladı.

Bunu eşidib Qiyan Səlcuq oğlu Dondar ağ çıxarıb qara geyindi, yar-yoldaşları ağı çıxarıb qara geyindilər.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bütün Oğuz camaatı Beyrək üçün yas tutdu, ümidlərini üzdü.

Bundan on altı il keçdi. Beyrəyin ölüsünü-dirisini bilmədilər. Bir gün qızın qardaşı Dəli Qoçər Bayandır xanın yanına gəldi, diz çökdü:

— Ağıllı xanın ömrü uzun olsun! Beyrək diri olsaydı, on altı ildən bəri ya xəbəri və ya özü gələrdi. Bir igid olsa, dirisi xəbərini gətirsə, çoxlu qızıl-gümüş verərdim. Ölüsü xəbərini gətirənə bacımı verərdim, – dedi.

Belə decək, yarımazın yaramazı, Yalançı oğlu Yalıncıq: «Mən gedib, ölüsü-dirisi xəbərini gətirərəm», – dedi və getdi.

Vaxtilə Beyrək buna bir köynək bağışlamışdı, geyməzdi, saxlardı. Getdi bir neçə gün dağda-daldada gizləndi, sonra bir dovşan öldürüb köynəyi qanına batırdı. Gətirib Bayandır xanın önünə atdı.

Bayndır xan dedi: — Əyə, bu nə köynəkdir?

— Beyrəyi Qara Dərvənddə öldürmüşlər, bu da nişanı!

Köynəyi görcək bəylər hönkür-hönkür ağlaşdılar, zarlıq etdilər.

Bayandır xan dedi:

— Əyə, biz bunu tanımarıq. Adaxlısına aparın, görsün. Yenə o tanıyar.

Apardılar köynəyi Banıçiçəyə verdilər. Qız görən kimi tanıdı. «Odur», – dedi. Dartdı yaxasın cırdı, acı dırnaq ağ uzunə çaldı. Payız alması kimi al yanağın yırtdı.

Vay göz açıb gördüyüm!
Könül verib sevdiyim!
Vay al duvağım yiyəsi,
Vay alnımın ayası!
Vay alnım başım ümüdi Beyrək! – deyib ağladı.

Atasına, anasına xəbər oldu. Ap-alaca ordusuna şivən girdi. Ağ çıxardılar, qara geyindilər. Qalın Oğuz bəyləri Beyrəkdən ümüd üzdülər.

Yalançı oğlu Yalıncıq qızı alası oldu. Kiçik toyunu elədi, böyük toyuna vədə qoydu.

Beyrəyin atası Baybura isə bazirganları çağırdı, yanına gətirtdi, dedi: «Əyə, bazirganlar! Beyrəyin ölüsü-dirisi xəbərini gətirin»

Bazirganlar yola düşdülər, gecə-gündüz deməyib getdilər. Günlərin bir günü Bayburd qalasına gəldilər. O gün yağıların şənlik günü idi. Hər biri yeməkdə, içməkdə idi. Beyrəyə də qopuz çaldırırdılar. Beyrək uca çardaqdan baxdı, bazirganları gördü. Onlarla xəbərləşdi.

Görəlim xanım, necə xəbərləşdi. Dedi:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əlan alçaq hava yerdən gələn arqış!
Bəy atamın, xanım anamın sovqatı arqış!
Ayağı uzun şahbaz minən arqış!
Ünum ünlə, sozum dinlə, arqış!
Qalın Oğuz içində Ulaş oğlu Salur Qazanı
Sorar olsam, sağmı, arqış?!
Qaragünə oğlu Qarabudağı
Sorar olsam, sağmı, arqış?!
Ağ saqqallı atamı
Sorar olsam, sağmı, arqış?!
Ağbirçəkli anamı
Sorar olsam, sağmı, arqış?!
Mənim yeddi qız qardaşımı,
Sorar olsam, sağmı, arqış?!
Göz açıban gordüyüm, könül ilə sevdiyim
Baybecan qızı Banıçiçək,
Evdəmi arqış, yoxsa gordamı, arqış?!
Gəl bunları degil mənə,
Qara başım qurban olsun arqış sənə!
Bazirganlar dəxi soylədi, görəlim nə söylədi:
—Sağmısan, əsənmisən, canım Bamsı?!
Qıyan Səlcuq oglu Dəli Dondarı,
Sorar isən, sağdır, Bamsı!
Qaragünə oğlu Budağı sorar olsan, sağdı, Bamsı!
O bəylər ağ çıxardı, qara geydi səninçün, Bamsı!
Ağ saqqallı atanı, ağ birçəkli ananı,
Sorar olsan, sağdır, Bamsı!
Ağ çıxarıb, qara geydilər səninçün, Bamsı!
Yeddi qız qardaşını, yeddi yol ayrıcında
Ağlar gördüm Bamsı!
Güz alması kimi alyanaqların yırtar gördüm, Bamsı!
Göz açıban gördüyün
Könül verib sevdiyin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Baybecan qızı Banıçiçək,
Kiçik düyünün elədi, ulu düyününə vədə qoydu,
Yalançı, oglu Yalınçığa varar gördüm.
Xan Beyrək, Parasarın Bayburd hasarından uça
görgül,
Ap-alaca gərdəyinə gələ görgül!
Gəlməz olsan Baybecan qızı Banıçiçəyi aldırdın.
Bəlli bilgil!

Beyrək qalxdı, ağlaya-ağlaya yoldaşlarının yanına gəldi. Qaba sarığını başından götürdü, yerə çırpdı:

— Hey, mənim qırx yoldaşım! Bilirsiniz nələr olmuş! Yalançı oğlu Yalıncıq mənim ölüm xəbərimi aparmış, atamın dünlüyü altun ban evinə şivən salmışdır. Göz açıban gördüyüm, könül verib sevdiyim Banıçiçək Yalançı oğlu Yalıncığa ərə gedəsidir. Belə decək qırqx yigidi qaba sarıqlarını götürüb, yerə çaldı, hönkür-hönkür ağladı, zarlıq qıldı.

Kafir bəyinin bir gözəl qızı vardı. Hər gün Beyrəyi görməyə gələrdi. O gün yenə gəldi. Baxdı gördü Beyrək bikef oturmuşdur.

Qız dedi:

— Neçin bikefsən, igid! Həmişə gələndə səni şən görərdim. Gülərdin, oynardın, indi nə olub?

Beyrək dedi:

— Necə bikef olmayım? On altı ildir ki, sənin atanın dustağıyam. Vətənimə, ataya, anaya qohum-qardaşa həsrətəm. Qara gözlü bir nişanlım vardır, Yalançı oğlu Yalıncıq deyirlər, bir kişi yalan söyləmiş, məni öldü demiş, qız ona ərə getməyə razılıq vermişdir.

Belə deyəndə, qız Beyrəyi çox istəyirdi, dedi:

— Əgər, mən səni qaladan aşağı, örkənlə sallandırsam, xilas olub gedərsən. Atana–anana, sevgilinə, vətəninə saglıqla yetişsən, sonra gəlib məni halallığa alırsan-mı?

Beyrək and içdi:

— Qılıncıma doğranayım, yer kimi kərtiləyim, torpaq kimi sovrulayım, sağlıqla varacaq olursam Oğuza, gəlib səni halallığa almazsam, – dedi.

Qız dəxi bir örkən gətirdi, Beyrəyin belinə bağlayıb qaladan aşağıya sallandırdı.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Beyrək özünü yerdə görüb Allaha şükür elədi, yola düşdü. Kafirin ilxısı olan yerə gəldi. «Bir at olsa, tutub minərəm», – deyə öz-özünə düşündü. Baxdı, gördü ki, özünün dəniz qulanı olan Boz ayqırı burada otlayır, Boz ayqır da Beyrəyi görüb tanıdı. İki ayağının üstündə şaxəyə qalxıb kişnədi. Beyrək də burada öz atını öymüş, görək xanım, necə öymüş:

Açıq-açıq meydana bənzər sənin alıncığın,
İki şəbçirağa bənzər sənin gözciyəzin.
Əbrişəmə bənzər sənin yalcığazın.
İki qoşa qardaşa bənzər qulaxcığın.
İgidi muradına yetirər sənin arxacığın.
At demərəm sənə, qardaş deyərəm, qardaşımdan
yaxşı!
Başıma iş gəldi, yoldaş deyərəm, yoldaşımdan
yaxşı! – dedi.

At başını yuxarı tutdu, bir qulağın qaldırdı, Beyrəyə qarşı gəldi, Beyrək onun köksünü qucaqladı, iki gözünü öpdü, sıçradı mindi. Hasarın qapısına gəldi. Otuz doqquz yoldaşını düşmənə tapşırdı. Görəlim, xanım, necə tapşırdı. Beyrək dedi:

Əyə, sası dinli kafir,
Mənim ağzıma söydun duyammədim,
Qara donuz ətindən yəxni yedirtdin, duyammadim
Tanrı mənə yol verdi gedər oldum.
Əyə kafir!

Otuz doqquz igidim əmanəti! Gəlib görsəm biri əskikdir, birinin yerinə onunuzu öldürəcəyəm, onun əksik bulsam, yerinə yüzün öldürrəm. Otuz doqquz igidim əmanəti, Əyə kafir – deyib yola düşdü.

Qırx nəfər yağı atlandı, ardınca düşdü. Qovdular, yetə bilmədilər, geri döndülər.

Beyrək Oğuza gəldi. Baxdı gördü bir ozan gedir. Soruşdu:

— Əyə, ozan, hara gedirsən?

Ozan dedi:

— Bəy igid, toya gedirəm.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Beyrək dedi:
— Ozan, toy kimindir?
— Yalançı oğlu Yalıncıq deyirlər, bir kişinindir – dedi.
— Əyə, kimi alır?
— Xan Beyrəyin adaxlısı Banıçiçəyi alır, – dedi.
Beyrək dedi:
— Əyə, ozan, qopuzunu mənə ver! Atımı sənə verirəm, saxla. Sonra gələrəm bahasını gətirərəm, alaram.

Ozan öz-özünə düşündü: «Avazım gödəlmədən, boğazım boğulmadan bir atdır, əlimə düşübdür, aparım saxlayım», – dedi. Qopuzu Beyrəyə verdi. Beyrək qopuzu aldı, atasının obasına yaxın gəldi. Baxdı gördü bir dəstə çoban yolun qabağını kəsib ağlayır və həm durmadan bir yerə daş yığırlar. Beyrək dedi: — Əyə, çobanlar, bir kişi yolda daş görsə, kənara atar, bu yola daş nəyçun yığırsız?

Çobanlar dedilər:
— Əyə, sən nəsini bilirsən, bizim halımızdan xəbərin yox.
— Əyə, nə halınız var?
Çobanlar dedilər:
— Bəyimizin bir oğlu vardır, on altı ildir kim ölüsü-dirisi xəbərin kimsə bilməz. Yalançı oğlu Yalınçıq deyərlər, ölüsü xəbərin gətirdi, adaxlısını ona verər oldular. Gəlib buradan keçəndə vuracayıq onu ki, ona getməsin, tayına-tuşuna getsin.

Beyrək dedi:
— Əyə üzünüz ağ olsun! Ağanızın çörəyi sizə halal olsun!

Ondan atasının ordusuna gəldi. Məgər evləri önündə bir böyük agac vardı, dibində bir yaxşı bulaq vardı. Beyrək baxdı, gördü ki, kiçik bacısı bulaqdan su aparmağa gəlir «qardaş Beyrək!» – deyib ağlar-bozlar, «Toyun-düyünün qara oldu – deyib, ağlar. Beyrəyə qatı fəraq gəldi, dözmədi, gözünün yaşı buldur-buldur rəvan oldu. Çağırıban burada söylər, görəlim xanım, nə söylər.

Beyrək dedi:
— Ay qız, nə ağlarsan, nə bozlarsan, ağa – deyin?
Yandı bağrım, göynədi içim.
Məgər sənin ağan yox olubdur?
Ürəyinə qaynar yağlar qoyulubdur?
Qara bağrın sarsılıbdır?
«Aga!» – deyə nə ağlarsan, nə bozlarsan?



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yandı bağrım, göynədi içim!
Qarşı yatan qara otağı,
Sorar olsam, yaylaq kimin?
Sovuq-sovuq sularını,
Sorar olsam, içət kimin?
Tovla-tovla şahbaz atlar,
Sorar olsam, binət kimin?
Ağa yəlda ağca qoyun,
Sorar olsam, şülən kimin?
Qaralı-göylü otağı,
Sorar olsam, kölgə kimin?
Agız-dildən, ay qız, xəbər mənə.
Qara başım qurban olsun bu gün sənə!

Qız dedi:
— Çalma Ozan, çağırma ozan!
Qaralıca mən qızın nəyinə gərək, ozan?!
Qarşı yatan Qara dagı
Sorar olsan, ağam Beyrəyin yaylasıdır.
Ağam Beyrək gedəli yayladığım yox!
Sovuq-sovuq suların sorar olsan,
Ağam Beyrəyin içdiyidir.
Ağam Beyrək gedəli içdiyim yox!
Tovla-tovla atları sorar olsan,
Ağam Beyrəyin mindiyidir,
Agam Beyrək gedəli mindiyim yox!
Qatar-qatar dəvələri sorar olsan,
Ağam Beyrəyin yüklədiyidir,
Ağam Beyrək gedəli yüklədiyim yox!
Ağa yəlda ağca qoyunu sorar olsan,
Ağam Beyrəyin şulənidir,
Ağam Beyrək gedəli, şülənim yox!
Qaralı-göylü otağı sorar olsan,
Ağam Beyrəyinkidir,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ağam Beyrək gedəli köçürdüyüm yox!

Yenə qız dedi:

— Ay Ozan, qarşı yatan Qara dağdan,
Aşıb gəldiyində, keçdiyində
Beyrək adlı bir igidlə buluşmadın ki?
Əyə, Ozan, gördünsə, degil mənə,
Qara başım qurban olsun, Ozan, sənə!
Qız yenə dedi:
— Qarşı yatan qara dağım yıxılıbdır,
Ozan sənin, xəbərin yox!
Kölkəlicə qaba ağacım kəsilibdir.
Ozan sənin xəbərin yox!
Dünyalıqda bir qardaşım alınıbdır,
Ozan, sənin xəbərin yox!
Çalma Ozan, çağırma Ozan,
Qaralıca mən qızın nəyinə gərək, Ozan!
Eldə-gündə düyün var, düyünə varib çal!

Beyrək bundan keçdi böyük bacısının yanına gəldi. Baxdı gördü bacıları qaralı-göylü otururlar. Çağırıb Beyrək söylər, görəlim xanım nə söylər.

Dedi:
Ala sabah yerindən duran qızlar,
Ağ otağı qoyuban qara otağa girən qızlar,
Ağ çıxarıb qara geyən qızlar,
Bağır kimi uyqunanda yoqurtdan nə var?
Göndərində ətməkdən nə var?
Üç gündür yoldan gəldim, doyurun məni.
Qızlar vardılar, yemək gətirdilər Beyrəyin qarnını doyurdular.

Beyrək dedi:

— Ağanızın başı-qözü sədəqəsi köhnə qaftanınız var isə, geyəyim, düyünə varayım. Düyündə əynimə qaftan verərlər, genə qaftanınızı qaytararam. Vardılar Bey-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

rəyin qaftanı var idi, buna verdılər, aldı geydi.
Boyu boyuna, qolu qoluna yakışdı. Ulu bacısı bunu Beyrəyə bənzətdi. Qara qıyma gözləri qan yaşla doldu, söyləmiş görəlim, xanım, nə söyləmiş:

— Qara qıyma gözlərin çöngəlməsəydi,
Ağam Beyrək deyərdim, Ozan, sənə!
Üzünü qara saç örtməsəydi.
Ağam Beyrək deyərdim, Ozan, sənə!
Qont-qont yanaqların solmasaydı,
Ağam Beyrək deyərdim Ozan, sənə!
Apul-apul yürüşündən
Aslan kimi duruşundan
Qanrılıban baxışından
Ağam Beyrəyə bənzədirəm Ozan, Səni!
Sevindirək yarındırma Ozan, məni!

Qız bir daha söyləmiş:
— Bir zaman çağırma, Ozan,
Ağam Beyrək gedəli
Bizə Ozan gəldiyi yox.
Əynimizdən qaftanımız aldığı yox.
Başımızdan gecəliyimiz aldıgı yox.
Buynuzu burma qoçalarımız aldığı yox.

Beyrək düşündü: — Gördünmü qızlar bu qaftanla məni tanıdılar, Qalın Oğuz bəyləri də tanıyarlar, – dedi. Görüm Oğuzdan mənim dostum, düşmənim kimdir, – dedi, qaftanı soyundu, götürdü qızların üstünə atdı.
— Nə siz, nə Beyrək qalsın. Bir köhnə qaftan verdiniz, mənim başım-beynim apardınız, – deyib, vardı, köhnə bir dəvə çulunu dəlib boğazına keçirdi, özünü dəliliyə vurdu, toya gəldi. Gördü toyda bəy ox atır. Qaragünə oğlu Budaq, Qazan bəy oğlu Uruz, Bəylər başı Yeynək, Qəflət Qoca oğlu Şirşəmsəddin, qızın qardaşı Dəli Qoçər ilə ox atır.
Haçan ki, Budaq atsa Beyrək:
— Əlin var olsun! – deyərdi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Haçan ki, Uruz atsa: Əlin var olsun! – deyərdi. Şirşəmsəddin atsa: – Əlin var olsun! – deyərdi. Bəy atsa: – Əlin qurusun, barmaqların qurusun, hey donuz oğlu donuz! – böyüklərə qurban ol – deyərdi.

Yalançı oğlu Yalançıgın açığı tutdu dedi:

— Əyə axmaq oğlu, axmaq, sənə düşərmi mənə bunun kimi söz söyləmək? Gəl əyə axmaq, mənim yayımı çək! Yoxsa səni öldürərəm.

Belə decək, Beyrək yayı aldı, çəkdi, qəbzəsindən yay iki para oldu, götürdü önünə tulladı.

— Daz yerdə torağay atmağa yaxşı! – dedi. Yalançı oğlu Yalınçıq yayın qırılmasından bərk qəzəbləndi:

— Əyə Beyrəyin yayı vardır gətirin – dedi.

Vardılar gətirdilər. Beyrək yayı görəndə yoldaşların andı, ağladı, dedi:

— Tul-tulada gərdiyim,
Tulu avarı, duxarlıyı qovduğum.
Yağı yürüdün, əlimdə qızıl kişlim.
Ayqır malı ayqır verib aldığım,
Tozlu, qatı yayım!
Buğa verib aldığım, boğma kirişim!
Yaman yerdə qoydum, gəldim.
Otuz doqquz yoldaşımı
İki arqışımı, – dedi.

Sonra cavanlara:– İgidlər, sizin eşqinizə çəkirəm yayı, atıram oxu! – dedi.

O vaxt göygünün üzüyünə nişan atarlardı. Beyrək bir oxla üzüyü vurdu, paraladı. Oğuz qəhrəmanları bunu görcək gülüşdülər. Qazan bəy baxıb tamaşa edirdi. Adam göndərdi, Beyrəyi çağırdı. O gəldi, baş endirdi, əllərini döşünə qoyub, salam verdi, dedi:

Ala-sabah safa yerdə tikiləndə ağban evli,
Atlas ilə yapılanda gen seyvanlı,
Tovla-tovla çəkiləndə şahbaz atlı,
Çağırıban qıy vuranda yol çavuşlu,
Yayqandıqda yağ tökülən bol nemətli,
Qalmış igid arxası,
Bizə misgin ümidi,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bayandır xanın köygüsü,
Tulu quşun yavrusun,
Türkistanın dirəyi.
Ümmət soyunun aslanı,
Qaraçuğun qaplanı,
Qonur atın yiyəsi,
Xan Uruzun atası,
Xanım Qazan!
Ünün ünlə, sözüm dinlə.
Ala sabah durmuşsan,
Ağ ormana girmişsən.
Ağ qovağın budağından
Burğayıban keçmişsən.
Cağbacağın əgmişsən.
Ögcügəzin qurmuşsan.
Adın gərdək qoymuşsan,
Sağda oturan bəylər,
Solda oturan sol bəylər,
Eşikdən maglar.
Dibdə oturan baş bəylər.
Quten olsun dövlətimiz! – dedi:

Qazan bəy dedi:

— Əyə, dəli ozan! İstə məndən nə istəyirsən! Çətirli otaqmı, qızıl-gümüşmü verim?

Beyrək dedi:

— Sizdən heç nə istəmirəm, məni qoyasan mətbəxə gedəm, qarnım acdır, doydurum.

Qazan dedi:

— Camaat, bugünkü bəyliyim bunun olsun! Qoyun nə edir, etsin.

Beyrək mətbəxə gəldi, qarnını doyurduqdan sonra qazanları vurdu, tökdü, çevirdi. Haqlıya haqlı dedi, haqsıza «üzün qara olsun» – dedi. Qazan bəyə xəbər verdilər: «Dəli ozan bütün yeməkləri tökdü. İndi də qızların yanına getmək istəyir».

Qazan: «Əyə qoyun neylərsə, eləsin, hara istərsə getsin!» – dedi.

Beyrək qızların yanına getdi. Zurnaçıları qovdu, nağaraçıları qovdu. Kimini döydü,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

kiminin başın yardı, qızlar oturan otaga gəldi, qapının qabağını kəsib oturdu. Qazan bəyin arvadı boyu uzun Burla xatun bunu görüb hirsləndi dedi:

— Əyə azğın oğlu, sənə duşərmi  icazəsiz mən olan otağa gələsən?

Beyrək dedi:

— Xanım, Qazan bəydən mənə buyruq oldu. Mənə kimsə dolaşa bilməz!

Burla xatun dedi:

— Qızlar, indi ki Qazan bəydən buyruq olubdur, qoyun otursun. Əyə, dəli ozan, bəs məqsədin nədir?

Beyrək dedi:

— Xanım, məqsədim odur ki, ərə gedən qız qalxa oynaya, mən qopuz çalam.

Qısırca, yengə deyirlərdi, bir qadın vardı. Ona dedilər: «Ay Qısırca yengə, dur sən oyna! Dəli ozan nə tanıyacaq?» Qısırca yengə ayağa durdu:

— Əyə, dəli ozan, ərə gedən qız mənəm, çal, – deyib, oynamağa başladı.

Beyrək söylədi, görək, xanım, nə söylədi:

And içmişəm qısır qısrağa mindiyim yox,
Qəzavətə vardığım yox!
Evinizin ardından sarvanlar sənə baxar,
Onların bıldır-bıldır qözlərinin yaşı axar?
Sən onların yanına vargil,
Muradını onlar verər.
Sənin peşən veyil-veyil gəzmək deyilmi?
Keç yerində otur. Səninlə mənim işim yox.
Ərə gedən qız qalxsın. Mən qopuz çalım, qol salıb oynasın, – dedi.

Qısırca yengə:

— Boy, bu zavala gəlmiş dəli ozan lap görmüş kimi söyləyir, – deyib keçdi yerində oturdu. Sonra Boğazca Fatma adlı bir qadına dedilər: — Qız, qalx, sən oyna!

— Vay, bu dəli ozan mənə də onun kimi olmazın sözlər söylər, – dedi, – oynamaq istəmədi.

— Qız deyəsi şey yoxdur, dur, oyna!

Qızın qaftanını geyindirdilər, durub ortaya girdi:

— Çal, əyə, dəli ozan, ərə gedən qız mənəm, oynayım.

Dəli ozan dedi:

Hə, mən səni yaxşı tanıyıram.
And içmişəm boğaca qısrağa minmərəm.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Minibən qəzavət, getmərəm.
Evinizin ardı dərəcik deyilmidir?
İtinizin adın Buracuq deyilmidir?
Sənin adın qırx oynaşlı  Boğazca Fatma deyilmidir?
Səniinlə mənim oyunum yox,
Keç yerində oturgilən! Ərə gedən qız dursun, mən qopuz çalım, qol salıban oynasın.
Fatma:
— Boy, bu dəli bizi hardan tanıyır, – deyib, yerində oturdu.
Burla xatun dedi:
— Ey Banıçiçək, qalx oyna! Əlindən nə gəlir?
Beyrəkdən sonra başına bu oyuunn gələcəyini bilirdim.
Qalxdı Banıçiçək, qıpqırmızı qaftanını geydi, görükməsin deyib, əllərini yenginə çəkdi. Oyuna girdi, dedi:
— Əyə, dəli ozan, çal di, ərə gedən qız mənəm, oynayım.
Beyrək dedi:
Banıçiçək sənsən, bəli!
Mən bu yerdən gedəli
Dolu düşmüş, səpələnmiş.
Ağca qarlar dizə yetmiş, təpələnmiş.
Banıçiçək sənək almış soyuqda suya varmış.
Biləyindən on barmağın soyuq almış,
Qızıl altun gətirin, xan qızına dırnaq yonun!
Eyiblicə qıza, ərə getmək eyib olur!

Bunu eşidən Banıçiçək hirsləndi, dedi:
— Əyə, dəli ozan, mən eyiblimiyəm ki, mənə eyib qoşursan?
Gümüş kimi ağ biləyini çırmadı, əlini çıxardı. Beyrəyin keçirdiyi üzük göründü. Beyrək üzüyü görcək tanıdı. Burda söyləmiş, görəlim xanım, nə söyləmiş:
— Beyrək gedəli uca-uca təpə başına çıxdınmı, qız?!
Qarılıb dörd yanına baxdınmı, qız?!
Qara gözdən acı yaş tökdünmü, qız?!
Qarğı kimi qara saçını yoldunmu, qız?!
Güz alması kimi al yanağın yırtdınmı, qız?!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İndi ki sən ərə gedirsən, barmağındakı
Qızıl üzük mənimdir, ver mənə, qız!

Qız dedi:

Beyrək gedəli uca-uca təpə başına çıxdığım çox.
Qarğı kimi qara saçım yolduğum çox.
Güz alması kimi al yanağımı yırtdığım çox.
Gələndən-gedəndən Beyrək xəbərini sorduğum
çox.
Getdi–gəlməz bəy igidim, xan igidim.
Beyrək deyib ağladığım çox.
Sevdiyim Bamsı Beyrək sən deyilsən.
Qızıl üzük sənin deyildir.
Qızıl üzükdə çox nişan var, qızıl üzüyü istəyirsən
nişanını söylə!

Beyrək dedi:

Ala sabah, xan qızı, yerimdən durmadımmı?
Boz ayqırın belinə minmədimmi?
Sənin evin üzərinə ceyranları yığmadımmı?
Sən məni yanına çağırmadınmı?
Səninlə meydanda at çapmadıqmı?
Sənin atını mənim atım keçmədimi?
Ox atanda mən sənin oxunu yarmadımmı?
Güləşdə mən səni yıxmadımmı?
Üç öpüb, bir dişləyib,
Qızıl üzüyü barmağına taxmadımmı?
Sevişdiyin Bamsı Beyrək mən deyilmiyəm?

Belə decək qız onu tanıdı, bildi ki, Beyrəkdir. Cübəsilə, çuxasilə Beyrəyin ayağına düşdü. Onu qadınlar da tanıdılar. Hərəsi bir obaya muştuluğa getdi.

Beyrəyə dayələr qaftan geyindirib, əynini təzələdilər.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Banıçiçək tez sıçradı bir ata mindi. Elə ki qayınatasına, qayınanasına yetişdi, dedi:

Gözlərin aydın, qayınana!
Gözlərin aydın, qayınata!

İraq-iraq qara dağın yıxılmışdı, ucaldı axır!
Qanlı-qanlı suların sovulmuşdu, çağladı axır!
Qaba ağacların qurumuşdu, göyərdi axır!
Şahbaz atın qarımışdı, qulun verdi axır!
Qızıl dəvələrin qarımışdı, köşək verdi axır!
Ağa yəlda qoyunun qarımışdı, quzu verdi axır!
On altı illik həsrətim, oğlunuz Beyrək gəldi axır!
Qayınata, qayınana muştuluq mənə nə verərsiniz?!

Beyrəyin atası, anası dedilər:

Dilin üçün öləyin, gəlinciyim!
Yolunda qurban olağın, gəlinciyim!
Yalansa bu sözlərin gerçək ola, gəlinciyim!
Gerçəksə xəbərin, sağ-salamat çıxıb gəlsə,
Qarşı yatan qara dağlar sənə yaylaq  olsun!
Soyuq-soyuq sular sənə bulaq olsun, gəlinciyim!
Qulum, nökərim sənə nökər olsun!
Şahbaz atlarım sənə binət olsun!
Qatar-qatar dəvələrim sənə yüklət olsun!
Aga yəlda ağca qoyunum sənə şülən olsun!
Qızılım-gümüşüm sənə xərclik olsun!
Qara başım qurban olsun sənə, gəlinciyim!

Bu dəmdə bəylər Beyrəyi atasının yanına gətirdilər. Qazan bəy dedi:
— Muştuluq, Baybura, oğlun gəldi!
Bayburanın ağlmaqdan gözləri kor olmuşdu. Dedi:
— Qoy çeçələ barmağını qanatsın, qanını dəsmalına bulaşdırıb gözümə sürtsün, gözüm açılsa, onda bilərəm ki, oğlum Beyrəkdir. Çünki aglamaqdan gözləri kor ol-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

muşdur.

Beyrək çeçələ barmağını qanatdı, dəsmalına bulayıb atasının gözünə sürtdü, o saat gözü açıldı.

Atası-anası sevindilər. Beyrəyin ayağına düşdülər. Atası:

Dünlüyü altun! Uca evimin dirəyi oğul!
Qaza bənzər qızımın, gəlinimin çiçəyi oğul!
Görər gözüm aydını oğul, belimin qüvvəti oğul!
Bütün elin əzizi, canım oğul! – deyib çox ağladı, Allahına şükürlər elədi.

Yalançı oğlu Yalıncıq bunu eşitdi. Beyrəyin qorxusundan qaçdı, özünü dağa-düzə saldı. Beyrək ardınca düşdü, qova-qova qamışlığa gətirdi. Adamlara dedi:

— Əyə, od gətirin!

Gətirdilər, qamışlığa od vurdular, Yalançı oğlu Yalınçıq gördü ki, yanacaq, qamışlıqdan çıxdı, Beyrəyin ayağına düşdü. Qılıncının altından keçdi. Beyrək də onun günahını bağışladı.

Qazan bəy dedi:

— Gəl, muradına yetiş!

Beyrək dedi:

— Yoldaşlarımı çıxarmayınca, o düşmən qalasını almayınca toy eləmərəm.

Qazan bəy igidlərə üz tutub: Məni sevən atlansın! – dedi.

Qalın Oğuz bəyləri atlandılar Bayburd qalasına çapar yetdilər. Kafırlər də bunları qarşıladılar.

Qalın Oğuz bəyləri əvvəlcə arı sudan dəstəmaz aldılar. Ağ alınlarını yerə qoydular, iki rükət namaz qıldılar. Adı görklü Məhəmmədi yada gətirdilər.

Gumbur-gumbur nağaralar döyüldü. Bir qiyamət savaş oldu, meydan dolu baş oldu. Şukuli Məliyi böyurdübən Qazan bəy atdan yerə saldı. Qara Təkuru Dəli Dondar qılıncladı. Yerə saldı. Qara Aslan Məliyi Qarabudaq yerə saldı. Dərələrdə kafirə qırqın girdi. Yeddi kafir bəyi qılıncdan keçdi. Beyrək, Yegnəg, Qazan bəy, Qarabudaq, Dəli Dondar Qazan oğlu Uruz bəy – bunlar qalaya yürüş etdilər. Beyrək qırx igidinin üzərinə gəldi, onları sağ-salamat görüb Allaha şükür elədi.

Kafirin kilsəsini yıxdılar, yerinə məscid tikdilər. Keşişin öldürdülər, azan çəkdirdilər. Əziz Tanrı adına dualar oxutdular.

Əsirlərin yüksək çinlisini, daş-qaşın seçməsini, qızın göyçəyini və doqquzlama əla cuxa xanlar xanı Xan Bayandıra beşdə bir pay ayırdılar.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Baybura bəyin oğlancığı Beyrək, Bəybecan Məliyin qızını aldı. Yenə uca evinə böyük otağına döndü, toy etməyə başladı. O qırx igidləinin isə bir neçəsinə Xan Qazan, bir neçəsinə də Bayandır Xan qız verdilər.

Beyrək də yeddi bacısını yeddi igidə ərə verdi. Qırx yerdə otaq tikdi. Qırx qız taleli taleyinə birər oxunu atıb, ardınca getdi. Qırx gün, qırx gecə toy-düyün elədilər.

Beyrək igidləri ilə murad verib murad aldı.

Dədəm Qorqud gəldi şadlıq çaldı, boy boyladı, soy soyladı, qazi ərənlər başına nə gəldiyini söylədi, bu Oğuznamə Beyrəyin olsun, – dedi.

Xeyir-dua verirəm, xanım:
— Qara dağların yıxılmasın,
Kölkəlicə qaba agacın kəsilməsin!
Ağsaqqallı atan yeri uçmaq (cənnət) olsun!
Ağbirçəkli anan yeri behişt olsun!
Tanrı səni oğulla qardaşından ayırmasın!
Axır vaxtda ari imandan ayırmasın!
Amin-amin deyənlər var olsun.
Yığışdırsın, duruşdursun günahınızı
Görklü Məhəmmədi–Mustafa üzü suyuna
bağışlasın, xanım hey!

## BURLA XATUNUN DASTANI



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bir gün Ulaş oğlu Salur Qazan yerindən durmuşdu. Yaşıl çəmənlərdə otaqlarını tikdirmişdi. Min yerdən ipək xalçalar döşənmiş uca seyvan göy uzunə yüksəlmişdir. Doxsan tümən gənc oğuz onun söhbətinə yığışmışdı. Ağzı böyük şərab kupləri ortalığa qoyulmuşdu. Doqquz yerdə şərab məclisi qurulmuşdu. Qızıl badələr, sürahilər sufrəyə düzülmüşdü.

Doqquz qara gözlü, burma saçlı, əlləri biləyindən xınalı, barmaqları bəzəkli, boğazları birər qarış kafir qızları Qalın Oğuz bəylərinə qızıl badələr gəzdirirdilər. Hər birindən Ulaş oğlu Salur Qazan içmişdi. Bəylərə növbənöv çadır-otaq bağışlardı.

Qatar-qatar dəvələr bağışlardı.

Oglu Uruz, qarşısında yaya söykənib dururdu. Sağ yanında qardaşı Qaragünə oturmuşdu. Sol yanında dayısı Aruz Qoca əyləşmişdi. Qazan sağına baxdı, qas-qas güldü, soluna baxdı, çox sevindi, qarşısına baxdı, oğlancığı Uruzu gördu, əlin çaldı, ağladı.

Oglu Uruza bu iş xoş gəlmədi. İrəli gəldi, diz çökdu, atasını çağırıb söylədi, görəlim, xanım, nə söylədi:

— Ünüm ünlə
Sözüm dinlə,
Ağam Qazan!
Saga baxdın, qas-qas güldün,
Soluna baxdın, çox sevindin.
Baxdın önə, məni gördün,
Uşaq kimi nə hönkürdün?
Səbəb nədir, söylə mənə!
Qara başım qurban sənə!
Deməz olsan, mən duraram.
İgidlərə qıy vuraram,
Üz tutaram xan Abxaza,
Könül verib kafir qıza,
Qızıl xaça əl basaram!
Boynumdan zəncir asaram.
Pülüklü kişinin əlin
Öpüb, allam yad gözəlin.
Üz tutmaram bir də sənə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Deməsən səbəbin mənə!
Qurban olsun başım sənə!

Uruzun sözündən Salur Qazan alındı, onun üzünə baxdı, çağırıb söylədi görəlim, xanım, nə söylədi:

Dinlə, sən ey əziz oğul!
Gəl söyləyim xəbərdar ol!
Sağda gördüm qardaşımı -
İgid əmin Qaragünə,
Solda gördüm öz dayımı –
Baxdım, fərəh verdi mənə:
Hər birisi ad çıxarıb,
Şöhrəti var, qəhrəmandı.
Önə baxdım, səni gördüm
Köks ötürdüm, qəlbim yandı:
Keçmişşən on beş yaşını,
Tapmamısan tay-tuşunu.
Yay çəkmədin, ox atmadın,
Eldə bir ad çıxartmadın.
Yox hələ şöhrətin-şanın,
Adı gərək qəhrəmanın!
Sabah ölsəm söylə, əgər,
Bu yerimdə kim əyləşər?!
Tanrı şirin canım alar,
Tac-taxtım kimə qalar?
Dostlar aglar, gülər yadım,
Sonunu andım, ağladım.

Bunu eşidib Uruz söylədi, görəlim xanım, nə söylədi:

Doğrudan, atam Qazan, dəvəcə böyümüşsən, köşəkcə ağlın yoxdur. Təpəcə böyümüsən, darıca beynin yoxdur! Hünəri oğul atadanmı görüb öyrənər, yoxsa atalar oğuldanmı öyrənər? Sən haçan məni döyüşlərə apardın, qılınc çalıb baş kəsdin ki, mən də səndən görüb öyrənəydim?



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qazan əlini əlinə çalıb qah-qah güldü, söylədi, xanım, görəlim nə söylədi: Əyə, – dedi, a dostlar, doğrudan, Uruz yaxşı dedi, şəkər yedi. Siz yeyin-için, söhbətinizi pozmayın, məclisi dağıtmayın. Qoyun mən bu oğlanı götürüb özümlə ova aparım. Yeddi günlük azuqə ilə yola çıxım. Ox atdığım, qılınc çalıb baş kəsdiyim yerləri buna göstərim. Kafir sərhədlərinə – cızıqlara, Ağlağana, Göyçə dağa alım aparım, sonra oğlana gərək olar.

Qazan qonur atını çəkdirdi, mindi. Seçmə igidlərindən üç yüzünü çağırıb hayladı. Qırx ala gözlü igid yoldaşlarını da Uruz özü ilə götürdü.

Qazan oğlunu alıb, dəstəsilə qara dağlar üzərinə ova çıxdı. Ov ovladı, quş quşladı, ceyran-maral vurub yıxdı. Sonra gömgöy çəməndə çadır qurub, bir neçə gün yeyib-içib oturdular.

Məgər Başıaçıq Tatyan qalasından və Aqısqa qalasından kafirin casusu vardı. Bunları görüb kafir başçısına – Təkura xəbər apardı: — Nə oturursan? – dedi, – itini ulatmayan, pişiyini mövlatmayan alpanlar başçısı Salur Qazan oğlancığı ilə sərxoş olub yatırlar.

On altı min qara donlu kafir birdən atlandı, Qazanın üzərinə yürüş etdi.

Qazangil bir də baxdılar ki, qarşı tərəfdən altı bölük toz qalxıb dağları bürüdü.

Kimi dedi:

— Bu keyik sürüsüdür.

Kimi dedi:

— Yağı tozudur.

Qazan dedi:

Keyik sürüsü olsa, bir, ya iki bölük olardı. Bu gələn bilin, yağıdır!

Birdən toz yarıldı. Gün kimi işıldadı, dəniz kimi dalğalandı, meşə kimi qaraldı. On altı min it hürməkli, qara börklü azğın dinli, quzğun dilli kafir Qazangilin üstünü aldı.

Qazan qonur atını çəkdirdi, sıçrayıb belinə mindi. Oğlu Uruz bədöy atının cilovunu çəkib oynatdı, Qazanın qarşısına gəldi, soruşdu:

Bəri gəl, ey atam Qazan!
Dəniz kimi bu qarşıdan
Alov kimi işıldayıb,
Ulduz kimi parıldayıb,
Gələn nədir? – söylə mənə.
Başım qurban olsun sənə!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qazan dedi:
Bəri gəl, aslanım oğul,
Eşit, deyim xəbərdar ol!
Dəniz tək çalxanıb gələn,
Kafirlərin ləşkəridir.
Gün kimi şıllayan
Başındakı ışığıdır.
Ulduz tək parlayıb gələn
Kafirlərin cidasıdır.
Azğın dinli yağıdır bu, oğul – dedi.

Uruz dedi:
Yağı nədir?
Qazan dedi:
Oğul, onun üçün yağı deyirlər ki, döyüş meydanında biz onlara yetsək, öldürərik, onlar bizə yetsə, öldürərlər. Urkz dedi: Ata, içində bəy igidləri öldürülsə, qan sorularmı? Tələb edərlərmi?
Qazan dedi:
— Oğul, min kafir öldürsən, kimsə səndən qan dəviləməz. Amma bu, azğın dinli kafirdir. Budur indi onlar bizim üstümüzə gəlirlər, sən də mənə yaman yerdə əngəl oldun!
Atası belə deyəndə Uruz söylədi, görəlim, xanım, nə söylədi:

— Atam Qazan, nə söylərsən, bir bəri gəl!
Bu meydanda mən olmaram sənə əngəl!
Bədöy atım – saxlarıdım bu gün üçün,
Günü gəldi, səyirdərəm sənin üçün!
Düz cidamı saxlarıdım bu gün üçün!
Günü gəldi, gen köksümdə qaba qarın,
Oynadaram sənin üçün!
Qaba poladüz qılıncımı saxlarıdım bu gün üçün!
Günü gəldi, kafir başın kəsdirərəm sənin üçün!
Dəmir donu saxlarıdım bu gün üçün,
Günü gəldi, döydürərəm sənin üçün!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Başımdakı qunt işıqlar saxlarıdım sənin üçün!
Günü gəldi.
Qara çomaq altında yoğurdaram sənin üçün!
Polad papaq saxlarıdım bu gün üçün,
Günü gəldi, yoğurdaram sənin üçün!
Qırx igidim saxlarıdım bu gün üçün,
Günü gəldi, kafir başın kəsdirərəm sənin üçün!
Aslan adım saxlarıdım bu gün üçün,
Günü gəldi, qazanaram sənin üçün!
Yaxa tutub kafir ilə ugraşaram sənin üçün!
Agız-dildin sən bir xəbər söylə mənə,
Qara başım qurban olsun, ağam, sənə.
Qazan dedi:
— Oğul! Oğul! Canım oğul!
Bir qulaq as, xəbərdar ol!
Bu yağının üç ox atsa, birin yazmaz oxçusu var!
«Hey» – deməmiş baş gətirən cəlladı var.
Adam ətin yəxni qılan aşpazı var.
Sən varası kafir deyil, bunun gedər-gəlməzi var!
Özüm yerimdən duraram,
Qonur atı səirdərəm
Düşmənlərə od vuraram.
Gələn kafir mənimkidir,
Yetirib qılınclayaram.
Çarpışaram dönə-dönə,
Qarpışaram dönə-dönə!
Özünü bir daldaya sal,
Qılınc çalıb baş kəsərəm,
Döyüşümü gör, ibrət al!

Uruz sakit olmayıb, burada söyləmiş, görəlim xanım, nə söyləmiş:

— Eşit məni, əziz ata,
Erkək quzu Ərəfata



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Gətirirlər qurban üçün!
Oğul atanın yolunda
Canın qoyar ad-san üçün!
İcazə ver mən də gedim
Səninlə meydana, ata!
Qılınc vurum dava edim,
Başım qurban sənə, ata!

Qazan burada söyləmiş, görəlim, xanım, nə söyləmiş:

— Oğul, oğul, quzum oğul!
Mənim canım, gözüm oğul!
Axı qılınc çəkməmisən,
Baş kəsib qan tökməmisən.
Qırx igidin yanına al!
Özünü tez daldaya sal!
Köksü gözəl zirvəyə qalx,
Mənim savaşmağıma bax!
Həm öyrən, həm bizi də güd,
Söz eşidib dinlə öyüd.

Bundan sonra Uruz daha atasının sözünü sındırmadı. Qırx yoldaşını da yanına alıb, dağın dalda bir zirvəsinə qalxıb, oradan döyüş meydanını seyr etməyə başladı.

O zamanlar oğul ata sözünü iki eləməzdi. İki eləsəydi, o oğlanı qəbul etməzdilər.

Uruz kənarda süngüsünü sancıb gözlədi.

Salur Qazan elə ki, gördü düşmən qoşunu bölük-bölük olub qarşıda sıra bağladı, atından endi, arı sudan dəstəmaz aldı. Alnın yerə qoydu, iki rükət namaz qıldı. Adı görklü Məhəmmədi yada gətirdi, qara dinli kafirə göz qaraldıb, öz dəstəsinə: – Haydı, arxamca gəlin! – dedi, – qızmış aslan kimi hayqırıb meydana atıldı.

Gumbur-gumbur nağaralar çalındı o gün,
Qızıl burma tunc borular çalındı o gün.
Bəy ərənlər dönə-dönə döyüşdü o gün.
Qara poladüz qılınclar çalındı o gün.
Qarğı dilli qayın oxlar atıldı o gün!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İti, uzun, düz cidalar susaldı o gün!
Namərd yağı, xain düşmən basıldı o gün!

Bu döyüşə baxa-baxa Qazan oğlu Uruzun həvəsi gəldi, yoldaşlarına qıy vurdu:
Ey! Bəri gəlin, qırx yoldaşım,
Sizə qurban olsun başım!
Görürsüzmü, ağam Qazan –
O yenilməz qoç pəhləvan
Qızmış şirə, nərə dönmüş!
Mənə ibrət oldu bu iş!

— Gəlin, bu döyüş mənə uşaq yeməyincə gəlməz, - dedi, atını oynadıb, sağ cinahdan meydana atıldı. At təpdi, sağlı-sollu düşmən səfini elə dağıtdı, sanki dar yolda dolu düşdü, ya qara qaz sürüsünə şahin girdi. Düşmən səfinin bir ucunu basdı, dağıtdı. Qaçıb gedən yağılardan biri qəfil dönüb Uruzu nişan aldı, oğlanı və bədöy atını oxladılar. At yıxıldı, kafirlər oğlanın üzərinə şığıdı. Uruzun qırx yoldaşı atdan endi, ala qalxan bağını qısa düydülər, qılınclarını sıyırıb, Uruzu qorumağa çalışdılar. Savaşdılar. Qan su yerinə, axdı. Dərin dərya boy verməz, yalqız igid hay verməz. Düşmən sel kimi axıb gəldi, oğlanın qırx igidini onun üzərində şəhid etdilər. Uruzu tutdular. Qarusundan ağ əllərini bağladılar. Qıl örkəni ağ boynuna taxdılar, üzü üstə yerə yıxıb ağ ətindən qan çıxınca döydülər. «Ata!» – deyə, ağlatdılar, «ana!» – deyə, bozlatdılar. Əli bağlı, boynu bağlı üzü üzərində sürüyə-sürüyə alıb apardılar. Uruz dustaq getdi.

Qazanın bu işlərdən xəbəri yox. Elə bildi ki, yağı basıldı. Atının cilovunu çəkib, geri döndü. Gəldi oğlunu qoyduğu yerdə tapa bilmədi.

— Bəs bu oğlan hara getdi? – deyə, yoldaşlarından soruşdu.

Onlar dedilər:

— Oğlan uşağı quş ürəkli olur, yəqin qaçıb anasının yanına getmişdir.

Qazan hirsləndi yoldaşlarına:

— Ey bəylər! Eləsə Tanrı mənə bir kor oğul vermişdir! Gedək onu anasının yanından alaq, qılıncla paralayıb altı bölük edək, altı yolun ayrıcında tullayaq gedək! Qoy bir daha kimsə bundan sonra dar yerdə yoldaş qoyub qaçmasın!

Bunu deyib Salur Qazan qonur atını mahmızladı, yola düzəldi, evinə gəldi

Boyu uzun Burla xatun qabaqca evdə böyük hazırlıq görmüşdü. «Atdan ayqır, dəvədən buğra, qoyundan qoç qırdıraraq, oğlanının ilk ovudur, Oğuz igidlərinə qoy la-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yiqli qonaqlıq düzəldim», – demişdi.

Gördü ki, Qazan gəlir, yumurlanıb yerindən ayağa durdu, samur cübbəsini əyninə aldı, ərinə qarşı gəldi. Kipriklərini qaldırıb, Qazanın üzünə doğru baxdı, sağına-soluna göz gəzdirdi, oğlancığı Uruzu görmədi. Ana bağrı sarsıldı, ürəyi yerindən oynadı. Qara qıyma gözləri qan yaşla doldu. Qazanı çağırıb söylədi, görəlim, xanım nə söylədi:

Bəri gəl, Salur Qazan!
Bəri gəl, Salur bəyi!
Gəl, elimin dayağı,
Gəl, evimin dirəyi!
Gəl ey başımın baxtı,
Gəl ey evimin taxtı!
Xan atamın köyküsü,
Can anamın sevgisi!
Göz açıban gördüyüm,
Könül verib, sevdiyim.
Üç yüz seçmə igidi
Səsləyib «him» eylədin.
Köksü gözəl dağlara
Dəstəni cəm eylədin.
Oğlunu da götürüb,
Çapıb ova yönəldin.
Onda qoşa gedibsən,
İndi tək niyə gəldin?
Güclə qara dünyada,
Tapdığım övlad hanı?
O tək balam görünməz,
Harda qoydun oğlanı?
Asılı qayalardan
Yoxsa uçub, quş olmuş!
Ya ki, Tala düzünün
Aslanına tuş olmuş?!
Yoxsa yağı kəsərək
Oğlumun sağ-solunu,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Tutub əsir aparmış,
Bağlayıb  əl-qolunu?
Dil-dodağı quruyub,
Gözündən yaş axıbmı?!
Anıb ata-ananı,
Həsrət ilə baxıbmı?!
Yalnız oğuldan, Qazan,
Söylə bir xəbər mənə.
Söləməsən qarğaram
Yana-yana mən sənə!

Qazan susdu, nə deyəcəyini bilmədi. Bircə dəfə soruşa bildi:  – Uruz evə gəlməyibmi?

Burla xatunu qəhər boğdu. Oğlunu andı, bir daha söylədi:

Oğul! Ortacım oğul!
Başımda tacım oğul!
Qarşı yatan dağımın
Gül yaraşığı oğul!
Qaralan gözlərimin
Nuru, işığı, oğul!
Burla xatun yenə Qazana müraciətlə dedi:
Sam yelləri əsmədən
Qazan, qulağım çınlar.
Sarımsaq yemədən
Qazan ciyərim göynər,
Sarı ilan sancmadan
Ağ tənim qalxıb şişər.
Yalnız oğul xəbərin
Qazan, söylə tez mənə!
Deməz olsan qarğaram.
Dönə-dönə mən sənə!

Anası bir daha söylədi:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qarqı cida oynadanlar vardı, gəldi,
Altun cida oynadana, ya Rəb, noldu?
Qara qoç ata minənlər vardı, gəldi,
Bədöy atlı bir oğlana ya Rəb noldu?
Nökər gəldi, naib gəldi,
Yalnız bir ogula ya Rəb noldu?
Yalnız oğul xəbərin, Qazan, degil mənə,

Deməz olsan yana-yana qarğaram a Qazan sənə – dedi və Qazandan cavab almayıb yenə söylədi:

Quru-quru çaylara su saldım,
Qara donlu dərvişlərə nəzir verdim.
Yanıma el baxdığımda, qonşuma ev baxdım.
Umanına-usanına aş yeritdim.
Ac görsəm doyurtdum,
Yalınçıq görsən donatdım.
Dilək ilə bir ogul güclə buldum.
Yalnız oğul xəbərin, a Qazan,
Degil mənə.
Deməz olsan yana-göynəyə qarqaram, Qazan, sənə – dedi:
Və yenə söylədi:

Qarşı yatan qayadan
Uçurdunsa oğlunu,
De külünglə dağıdıb,
Uçurtdurum mən onu!
Yüyrək axan sularda
Axıtdınsa oğlunu,
Çeşmələri qurudub,
Kəsdirərəm mən onu!
Azğın dinli kafirə
Tutdurdunsa oğlunu,
Zindanları dağıdıb,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Darda qoymaram onu!
Eləsə xan babamın
Yanına vararam mən.
Qoşun, silah, xəzinə
Alıb qayıdaram mən.
Minib bədöy atıma,
Silahımı qaparam.
Girib qanlı döyüşə,
Mən oğlumu taparam!
Dönmərəm bu yürüşdən,
Düşüb düşmən izincə.
Dönmərəm qol-bud olub,
Atımdan enməyincə!

Yenə söylədi:

Yoxsa a Qazan
Ayağımdan sərmuzəmi alımmı?
Qara dırnaq ağ üzümə çalımmı?
Alma kimi yanağımı, sökümmü?
Şivən salıb üz-gözümü didimmı?
«Oğul!», «oğul!» – deyib nalə edimmi?
Karvan ilə qızıl dəvə, söylə hansı elə keçdi?
Köşəkləri bozlayaraq belə gəldi, belə keçdi!
Törəməsin aldırmışam, bozlayımmı?
İlxı ilə bədöy atlar, söylə hansı elə keçdi?
Quluncuğu kişnəyərək belə gəldi, belə keçdi.
Quluncuğun aldırmışam, kişnəyimmi?
Sürü-sürü ağca qoyun söylə hansı elə keçdi?
Quzuları mələşərək belə gəldi, belə keçdi!
Quzucuğun aldırmışam mələyimmi?
«Oğul, oğul!» – deyib, mən də ağlayımmı?
«Noldu» – deyib ürəyimi dağlayımmı?



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ana arzularını xatırlayıb, yenə söylədi:

Qalxıban, dağlardan enəm deyərdim,
Qarayal atıma minəm deyərdim.
Girib İç oğuza, ya Daş oğuza,
Bir ala göz gəlin tapıb Uruza,
Qırmızı gərdəyim quram deyərdim!
Arzuya, murada irəm deyərdim.
İndi oğlum hanı? De, Qazan, mənə!
Deməsən, yanaram, qarğaram sənə!

Ana belə qəhərlənib söyləyincə, Salur Qazanın ağlı başından getdi, qara bağrı sarsıldı, ürəyi yerindən oynadı, gözləri qan yaşla doldu, aləm başına fırlandı. Arvadına ürək-dirək verərək:

— Gözəlim! Oğlumun harada olduğunu bilsəm, səndənmi soruşardım? Yəqin ovda qalıb, ağlama, – dedi, mənə yeddi gün möhlət ver. Yerdə isə oğlunu yerdən çıxararam, göydə isə göydən endirərəm. Tapdım, tapdım, tapmaramsa, Tanrı verdi, Tanrı da aldı, neyləyə bilərəm, mən də gəlib səninlə şivənə girərəm!

Burla xatun dedi:

— Ovda olduğunu ondan bilərsən ki, bu yorğun atından düşməyib, geri qayıdasan, kütəlməmiş cidanla, silahınla uşağın izinə düşüb gedəsən!

Qazan geri döndü, gəldiyi yolu əlinə alıb atını çapdı: – Doxsan tümən gənc oğuz, ardımca gəlsin, oğlan dustaqdır, bilin! – dedi.

Gedə-gedə yağı basılan yerə çatdı. Oğlunun ala gözlü qırx igidi öldürülmüş, bədöy atı oxlanmışdır. Axtardı meyidlər arasında oğlunun ölüsünə rast gəlmədi. Yəqin bildi ki, oğlu tutulub, əsir aparılmışdır.

Qazan ağladı:

Qara dağımın yüksəyi, gözümün işığı oğul!
Qanlı suyumun daşqını, evimin yaraşığı oğul!
Qocalıq vaxtımda tapdığım yalqız oğul!
– deyib, ah etdi, düşmənin izini alıb, getdi.

Bu tərəfdən yağılar Qapılı Qara Dərbənddə düşmüşdülər. Oğlanın əyninə qara kürk geyindirib qapının dabanı üzərində uzatmışdılar.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İçəri girən ayaqlayıb keçir, çıxan basıb keçirdi. Qarı düşmən: Qazan oğlu Uruz əlimizə keçmişkən zülm ilə öldürək, – deyə, oğlana olmazın əzab verirdilər.

Bir də baxdılar ki, Salur Qazan qonur atını oynadaraq gəlir. Yağılar tez qalxıb qılınc-qalxanlarını taxdılar, çövşən geyindilər.

Oğlan başını qaldırıb:

Əyə, kafir, nə olub, niyə belə küyləndiniz? – deyə soruşdu.

Dedilər:

— Atan gəlib, deyirik onu da tutub ikinizi də birdən öldürək.

Uruz dedi:

— Aman əyə, kafir, aman! Tanrının birliyinə yoxdur güman. Mənim əlimi açın, yeriyib atama deyim dava etməsin, məni qoyub, getsin.

Oğlanın əl qolunu açdılar. Durdu atasına tərəf gəldi. Söylədi, görək, xanım, nə söylədi:

Bəri gəl, bəri gəl, ey canım ata!
Ey şahım, sultanım, ey xanım ata!
Ata, nə bildin ki, dustaq olmuşam?
Əlləri, gözləri bağlı qalmışam.
Ala göz igidlər bütün qırıldı,
Boynuma qıl sicim düyün vuruldu.
Kafirlər sözləşdi səndən az qabaq:
«Qazanı da atdan düşürüb salaq.
Qarısından ağ əllərin bağlayaq.
Oğluyla birlikdə kəsək başını.
Axıdaq gözündən qanlı yaşını,
Ocağın söndürək». Dön geri, ata!
Qorxuram qəfilcə düşmənlər tuta.
Qayıt ocağımız sönməsin, qayıt!
Evimizdə şivən qopmasın, qayıt!
Qayıt evimizə, ata, yaxşı yol!
Ağbirçək anama sən ümidgah ol!
Qara gözlü bacım qoy ağlamasın!
Anam qara geyib, göy bağlamsın!
Oğul üçün ata ölsə eyibdır,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Anam məni sorsa düzünü bildir.
De ki, dustaq gördüm qərib diyarda,
Əlləri, qolları bağlıdır, darda.
Qılıncım boynunu söylə ki, kəsir,
Yeri donuz damı, döşəyi həsir.
Topuğunu əzir ağır buxovlar.
Aldığı zərbədən yarası hovlar.
Acı soğan ilə arpa çörəyi,
Öynədə, axşamda budur yeməyi.
Gözləsin qoy bir ay o baxa-baxa,
Gəlməsəm gözləsin iki ay daha.
Üç ayda gəlməsəm, ölmüşəm demək.
Qismətim olmadı qırmızı gərdək!
Anam göy geyinib, qaralar örtsün,
Ayqır atım kəsib, qoy ehsan etsin.
Halalım üçün də o, dəstur versin,
Mən girən gərdəyə özgəsi girsin.
Anam göy geyinib qaralar örtsün,
O, Qalın Oğuzda yasımı tutsun.
Mənim canım, ata, qurbandır sənə,
Dön geri, dön geri deyirəm yenə.

Bir daha söyləmiş, xanım, görəlim, nə söyləmiş:

Qarşı yatan qara dağlar,
Abad olsa el yaylayar.
Qanlı-qanlı axan sular,
Aram daşsa yaxşı olar.
İlxılarda bədöy atlar,
Əsil olsa qulun verər.
Karvanında qızıl dəvə,
Əsil olsa köşək verər.
Ağa yəlda ağca qoyun
Əsil olsa, şişək verər.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bəy ərənlər, nər kişilər,
Yaxşı olsa oğlu olar.
Həsrətimi çəkən anam
Məndən yaxşı oğul doğar.
Südün halal etsin anam,
Geriyə dön, əziz atam! Savaşıma gəl!

Oğlunun sözlərindən Salur Qazan daha da qəhərləndi, söyləmiş, xanım, görəlim nə söyləmiş:

Oğul! Bağ-bağçamın çiçəyi oğul!
Uca dağlarımın yüksəyi oğul!
Bu güclü belimin qüvvəti oğul!
Gözümün işığı, qüdrəti oğul!
Atımı çapmışam bu gün səninçün,
Tufantək qopmuşam bu gün səninçün,
Ağ donuma kir əyləndi səninçün.
Mənim başım qurban olsun səninçün.
Sənsən ömrümüzün güllü baharı,
Ananın kəsilib səbri, qərarı.
Sən gedəli batıb evimiz yasa,
Sığarmı qeyrətə, ara, namusa,
Gubmur – gumbur tavullar döyülmədi,
Ağır, ulu divanım sürülmədi.
Qara geydi bütün dostun, tanışın.
Qızım, gəlinim tökdü qanlı göz yaşın.
Ağsaqqal atanın beli büküldü.
Sənsiz belim sınar mənim, ay bala.
Atan səni qoyub dönərmi dala.
Ağca üzlü anan qarşıma dursa,
Bəs Uruzum hanı? – deyərək sorsa,
Deyimmi qandalda ayağı bağlı,
Boynunda qıl sicim, sinəsi dağlı.
Kafir, ayaqyalın sürüyür onu.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bəs mənim namusum götürər bunu?!
Yeməyi soğanla arpa çörəyi,
Heç buna dözərmi ana ürəyi?!

Qazan yenə söylədi:

Qarşı yatan qara dağlar,
Qarıyıbdır çiçək açmaz.
Axıntılı görklü sular
Quruyubdur, suyu daşmaz.
Karvanlarda ağca maya
Qarıyarsa, dolün verməz.
İlxılarda bədöy atlar
Qarıyarsa, qulun verməz.
Ər igidlər qarıyarsa,
Yenidən gərdəyə girməz.
Atan qoca, anan qoca
Tanrı bizə səndən yaxşı oğul verməz.

Oğul, mən ölməmişəm ki, sən kafir əlində əsir qalasan! O uca göylərdəki qara bulud olub kafir  üzərinə gurlayaram! Ağ ildırım olub şaxıyaram, kafirləri qamış kimi od vurub yandıraram. Doqquzunu bir-birinə saydıraram. Vuruşmadan, döyüşmədən dünyanı bir-birinə çaxaram.

Yaradan Allahdan – mədəd! – dedi. Qonur atından yerə endi, axıb gedən arı sudan dəstəmaz aldı. Ağ alının yerə qoydu, namaz qıldı, ağladı, qadir Tanrıdan kömək dilədi, üzünü yerə sürtdü. Məhəmmədə salavat gətirdi.

Dəvə kimi kükrədi, aslan kimi titrədi, qılınc çaldı. Dönə-dönə bir zaman yaxşıca vuruşdu, kafiri alam  –  dedi, ala bilmədi.

Bir saatda yağı ordusuna üç kərə at təpdi. Nagah birdən gözünün qapağına qılınc toxundu, qara qanı şorladı, gözünü örtdü. At belində dayana bilməyib qan içində yerə yıxıldı.

Bu, burada qalsın, görək Yaradan neylər. Qazan gedəndən sonra Boyu uzun Burla xatun oğlancığını andı, dayana bilmədi. Qırx incə belli qız yoldaşları ilə qara ay-qırı çəkdirdi, mindi, qara qılıncını, qalxanını qurşandı, «başım tacı Qazan gəlmədi» -



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

deyib, onun izini alıb getdi.

O, gələ-gələ özünü onda yetirdi ki, Qazan yaralanıb atdan yerə düşmüşdür. Yaxınlaşarkən Qazan arvadını tanımadı, çağırıb söylədi:

Qara ayqırın cilovunu mənə ver, igid.
Gözünü dikib üzümə bax, igid.
Altındakı qara ayqırın mənə ver, igid.
Əlindəki uzun cidanı mənə ver, igid
Əynindəki göy poladın mənə ver, igid.
Canım qurban sənə, igid!

Burla xatun dedi:

— Qarşım alıb igid məni nə yandırırsan?
Keçən günlərimi nə andırırsan?
Qalxıb öz yerindən ey duran Qazan!
Qaragöz atına ey minən Qazan!
Oğlumdan bir xəbər verərsən Qazan!
Yağı qılıncımı toxunmuş sənə?
Belə biganə tək baxırsan mənə?
Bıçaq alıb qanadlarım ey qıran Qazan!
At üstündə, əylənməyib yortdan Qazan!
Uzəngidə dürəmməyən dizin olmuş.
Xan qızı halalını tanımayan gözün olmuş.
Bükülmüşsən sənə nə olmuş?
Çal qılıncın yetdim, Qazan! – dedi:

Bunu deyib, Burla xatun düşmən üzərinə at saldı, qılıncını sıyırıb aslan kimi hayqırdı. Qazanı əhatə edən düşmən səflərini vurub dağıtdı.

Elə bu məhəldə Oğuz ərənləri – Qazanın döyüş yoldaşları bir-bir gəlib yetdi, görəlim, xanım, kimlər yetdi:

Qara dərə ağzında qadir verən, qara buğa dərisindən puşəkinin yapuqu olan, acığı tutanda yumruğu ilə qara daşı kül eyləyən, qara bığını yeddi yerdə ənsəsində düyən, Qazan bəyin qardaşı Qaragünə çaparaq yetdi:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çal qılıncın, qardaş Qazan, yetdim! – dedi.

Onun ardınca görəlim kimlər gəldi:

Parasarın Bayburd hasarından pırlayıb uçan, ap-alaca gərdəyinə yetişən, Qalın Oğuzun əzizi, Qazan bəyin sevimlisi – inagı Boz ayqırlı Beyrək çapar yetdi. Çal qılıncın, Xan Qazan, yetdim, – dedi.

Onun ardınca görəlim, xanım kimlər yetdi:

Çəpə baxsa çalımlı, çal qaraquş ərdəmli, qurqurama qurşaqlı, qulağı qızıl sırğalı, Qalın Oğuzun bəylərini bir-bir atdan salan Qazlıq Qoca oğlu bəy Yeynək çaparaq yetdi — Çal qılıncın, agam Qazan, yetdim – dedi.

Onun ardınca iyirmi dörd sancaq bəyləri boyun sevən, min igid başçısı pəhləvan Düyər, Bəkdüz elinin başçısı Aruz Qoca çapar yetdi: — Çal qılıncın, ağam Qazan, yetdim, – dedi. Qazanın bütün igid bəyləri ətrafına toplandı. Saydıqca saya gəlməz Oğuz qəhrəmanları özlərini vaxtında yetirdilər.

Əvvəlcə arı sudan dəstəmaz aldılar, iki rükət namaz qılıb adı görklü Məhəmmədi yada saldılar, bu təklif düşmən üzərinə hucum edib, qılınc çaldılar. Özündən deyən ciyərli igidlər o gün seçildi, üzə çıxdı. Bir qiyamət savaş oldu, meydan dolu baş oldu, qiyamətin bir günü o gün qopdu, bəy nökərindən, nökər bəyindən ayrıldı.

Oğuz bəyləri ilə Dəli Dondar sağ tərəfdən hücum elədi. Seçmə igidlərlə, Qarabudaq soldan cumdu. Qazan özü ortadan hücum edib Təkur ilə Şukili Məliyin üzərinə cümüb böyurdub atdan yerə saldı, ağgca qanın yer üzərinə tökdü.

Sag tərəfdə Qaratukin Məliyə Dəli Dondara qarşı gəlib qılıncladı atdan saldı.

Sol tərəfdə Qarabudaq Buğacıq Məliyə qarşı gəldi, nizəyə sancıb yerə saldı, başın kəsdi.

Boyu uzun Burla xatun kafirin qara tuğunu qılınclayıb yerə saldı.

Düşmən məğlub oldu, kafir qaçdı. Dərələrdə kafirə qırğın düşdü, on beş min kafirdən kimi qırıldı, kimisi əsir alındı. Qazan oğlu üzərinə gəldi, atdan enib əllərin açdı. Ata-oğul qucaqlaşıb öpüşdülər. Üç yüz igid Oğuzdan şəhid oldu. Qazan oğlunu qurtardı, geri döndü. Qələbə mübarək oldu, oğuz bəyləri düşmənin variyyətini bol-bol qarət etdilər.

Qazan bəy Ağcaqala – Surməliyə gəlib qırx otaq tikdirdi. Yeddi gün yeddi gecə yemə-içmə oldu. Qırx ulu qulla, qırx cariyəni Qazan bəy oğlu Uruz başına dolandırıb azad etdi. Seçmə igidlərə qara ölkə verdi, gözəl libasları – cubbə-çuxa verib sevindirdi.

Dədəm Qorqud gəlibən qopuz çalıb şadlıq etdi, bu Oğuznaməni düzdü-qoşdu,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

belə dedi:

Hanı öydüyüm ərənlər.
Dünyaya «mənim deyənlər?!»
Yer gizlədi, əcəl aldı,
Fani dünya yenə qaldı.
Gəlimli-gedimli dünya,
Axırı – son ucu ölümlü dünya!

Xeyir-dua verirəm, xanım sizə:

Yerli Qara dağın yıxılmasın!
Kölgəlicə qaba agacın kəsilməsin.
Gürrah axan görklü suyun quruması<!>
Qanadlarının ucu qırılmasın!
Qadir səni namərdə möhtac etməsin!
Çaparkən Ag-boz atın büdrəməsin.
Çarpışanda qara poladüz qılıncın kütəlməsin!
Allah verən ümidin üzülməsin!
Axıra kimi arı imandan
Allah səni ayırmasın!
Ağ alnında beş kəlmə dua etdik,
Qəbul olsun!
Yığışdırsın, duruşdursun,
Günahınızı adı görklü
Məhəmmədə bağışlasın,
Xanım hey!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## DƏLİ DOMRULUN DASTANI

Oğuz elində Duxa Qoca oğlu Dəli Domrul* deyərlərdi, bir qəhrəman vardı. Bir quru çayın üzərində bir körpü salmışdı. Keçəndən otuz üç, keçməyəndən döyə-döyə qırx gümüş alardı. Bunu nə üçün belə etdiyini soruşanda deyərdi: onun üçün ki, dünyada məndən dəli, məndən güclü qəhrəman vardırmı, çıxa mənimlə döşləşə, savaşa? Qoy mənim qəhrəmanlığımın, igidliyimin, güclülüyümün sorağı Rum elinə, Şam ölkəsinə, bütün dünyaya yayılsın.

Təsadüfən bir gün onun körpüsünün yanında bir köç düşmüşdü. Bu köçdə bir

* «Dədə Qorqud»da «dəli» sözü ağılsız mənasında deyil, «Koroğlu» dastanında olduğu kimi, igid, qoçaq deməkdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

gözəl oğlan xəstələnib öldü. Kimi oğul, – deyib, kimi qardaş, – deyib ağladı. Onun üzərində böyük ağlaşma qopdu.

Dəli Domrul ağlaşmanın səsini eşidib, çaparaq özünü ora yetirdi, dedi:

— Əyə, nə böyürüşürsünüz? Mənim körpümün yanında bu qalmaqal nədir? Niyə ağlaşma qoparmışsınız?

Dedilər:

Ey qəhrəman, bizim bir yaxşı igidimiz vardı, öldü. Ona görə ağlayırıq.

Dəli Domrul dedi:

— Əyə, igidinizi kim öldürdü?

Dedilər: — Vallah, igid Tanrıdan buyuruq oldu, al qanadlı Əzrail göydən gəldi, onun canını aldı.

Dəli Domrul dağlarda, çöllərdə yaşayan asudə bir qəhrəman idi, ömründə bu barədə heç nə eşitməmişdi. Ona görə də hirsləndi, soruşdu:

— Əyə, o Əzrail dediyiniz nə kişidir ki, adamın canını alır?

Dedilər:

— Tanrı onu göydən göndərdi. O da igidimizin canını aldı.

Dəli Domrul üzünü göyə tutdu:

— Ya qadir Allah! Birliyin, varlığın haqqıyçün sən o Əzraili mənim gözümə görsət! Savaşım, güləşim, vuruşum, yaxşı igidin canını onun əlindən qurtarım. Bir daha yaxşı igidin canını almaya! –dedi.

Bunu deyib döndü, evinə gəldi.

Haqq-taalaya Dəli Domrulun sözü xoş gəlmədi: — Bax, bax! Əyə! Bu Dəli azğın məni tanımır, mənim ulu dərgahımda özbaşınalıq eyləyir? – dedi, Əzrailə əmr elədi:

— Ey Əzrail! Get o Dəli Domrulun gözünə görün. Bənizini saralt, canını al!

Bir gün Dəli Domrul qırx igidi ilə yeyib-içib oturarkən, nagah Əzrail göydən gəldi. Onu heç kəs, nə keşikçi, nə qapıçı görmədi. Dəli Domrulun görər gözü görməz oldu, tutar əlləri tutmaz oldu. Dünya-aləm gözünə qaranlıq göründü. Çağırıb söylədi, görəlim, xanım, nə söylədi:

Əyə, kimsən? Heybətlisən!
Saqqalın ağ, dəhşətlisən.
Qapıçılar görəmmədi,
Keşikçilər duyammədı,
Görər gözüm görməz oldu.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Tutar əlim tutmaz oldu.
Titirədi canım, ürpəşdi!
Qızıl badəm yerə düşdü.
Ağzım  içi buz tək oldu,
Sümüklərim duz tək oldu.
Ey gözləri çöngə qoca!
Əyə, kimsən, söylə mənə!
Qadam, balam gəlsin sənə!

Belə decək Əzrailin acığı tutdu. Dedi:
— Əyə, Dəli, nə axmaqsan,
Gözümə yaxşı baxmazsan!
Mən bu çöngə gözlərimlə,
Gözəllərdən can almışam.
Ağ saqqallı qocaların,
Qara saqqal igidlərin,
Ürəyini qoparmışam.
Saqqalımın ağlığı bu!
Əzrailəm, tanıdınmı?!

— Əyə, Dəli axmaq! Öyünürdün, deyirdin ki, al qanadlı Əzrail mənim əlimə düşəydi, öldürəydim, yaxşı igidin canını onun əlindən qurtaraydım. İndi, əyə, Dəli, gəldim ki, sənin canını alam, verirmisən? Yoxsa mənimlə vuruşacaqsan?

— Dəli Domrul bunu eşidən kimi yerindən sıçradı:

Əyə, al qanadlı Əzrail sənmisən?

Əzrail:

— Əlbəttə, mənəm,  – dedi:

Dəli Domrul:

— Bu yaxşı igidlərin canını sənmi alırsan?

— Bəli, mən alıram.

Dəli Domrul qışqırdı:

— Əyə, qapıçılar qapını bağlayın! Əyə, Əzrail! Mən səni gen yerdə gəzirdim, dar yerdə əlimə keçdin, indi mən səni öldürrəm, yaxşı igidlərin canını qurtararam! – dedi, – qara  poladüzlü qılıncını siyirdi, əlinə aldı, Əzrailə çalmaq istədi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əzrail bir göyərçin oldu, bacadan uçdu getdi.

Qoçaq Dəli Domrul əlini-əlinə çaldı, qah-qah ilə güldü. Dedi:

— İgidlərim, Əzrailin gözünü elə qorxutdum ki, gen qapını qoydu, dar bacadan qaçdı. Amma o, elə bilir ki, göyərçin olub qaçmaqla canını mənim əlimdən qurtaracaqdır. Heç bilmir ki, mən onu şahin quşumla aldırmayınca əl çəkən deyiləm. Bunu dedi, durdu, atına mindi, şahin quşunu əlinin üstünə aldı, Əzrailin dalınca düşdü. Yolda bir-iki göyərçin gördü, öldürdü, geriyə döndü.

Evinə gələrkən Əzrail onun atının gözünə göründü. At hürkdü. Dəli Domrulu götürdü yerə vurdu. Başı çiynində bükülü qaldı. Əzrail fürsəti əldən verməyib onun köksü üzərinə çıxdı.

Dəli Domrul dedi:

— Əyə, Əzrail, mən səni belə bilməz idim. Kişisən, düz yerdə üzbəüz gələydin! Onda görərdik, kim kimin canını alır.

Oğurluq ilə can aldığını duymaz idim!
Sənə məhəl qoymaz idim.
Tökməsi böyük bizim dağlarımız olur.
O dağlarımızda bağlarımız olur.
O bağların qara salxımlı üzümü olur.
O üzümü sıxarlar, al şərabı olur.
O şərabdan içən sərxoş olur.
Şərab içdim duymadım,
Nə söylədim bilmədim.
Həyatdan usanmadım,
İgidlikdən doymadım.
Canımı alma, Əzrail, mədəd! –dedi.

Əzrail dedi:

— Əyə, Dəli axmaq! Mənə niyə yalvarırsan? Tanrıya yalvar! Mənim əlimdə nə var ki? Mən də bir buyruqçuyam, sözün var ona de.

Dəli Domrul

— Əyə, bəs can verən, can alan Tanrıdır?

Əzrail dedi:

— Bəli, odur.

Dəli Domrul Əzrailə:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

— Əyə, bəs sən nə ilməkli qada olub keçmisən boğazıma? Sən aradan çıx, Tanrı ilə mən özüm danışaram, – dedi.

Dəli Domrul burada söyləmiş, görəlim, xanım nə söyləmiş:

— Ucalardan ucasan!
Kimsə bilməz necəsən,
Uca Tanrı!
Neçə cahillər səni göydə, arar, yerdə istər,
Sən özün mömünlər könlündəsən,
Daim duran Cabbar Tanrı!
Baqi qalan Səttar Tanrı!
Mənim canımı alırsansa, sən özün al!
Əzraili almağa qoyma!

Dəli Domrulun burada sözü Allaha xoş gəldi. Əzrailə əmr elədi ki:

— Əyə, Əzrail qoy, Dəli Domrul öz canı yerinə başqa bir can tapsın, versin. Onun canı ölümdən azad olsun.

Əzrail dedi:

— Əyə, Dəli Domrul, Tanrının əmri belə oldu ki, Dəli Domrul canı yerinə can tapsın, onun canı ölümdən azad olsun.

Dəli Domrul dedi:

— Mən canı necə tapım? Məgər kim canından bezibdir? Bir qoca atam, bir qarı anam var, gəl gedək, ikisindən biri bəlkə ola ki, canını verə, mənim canım azad ola.

Dəli Domrul sürdü atasının yanına gəldi. Atasının əlin öpüb söyləmiş, xanım, görəlim nə söyləmiş:

— Ağ saqqallı, əziz, ata!
Bilirsənmi nələr oldu?
Pis söz dedim, haqq Tanrıya xoş gəlmədi.
Əzrailə əmr eylədi uçub gəldi, köksümü basıb yıxdı, xırıldadıb mənim dadlı canım alar oldu.— Ata səndən can dilərəm, verərmisən?
Yoxsa: «Oğul, Dəli Domrul» – deyib, zar-zar ağlarmısan?

Atası dedi:

— Oğul, oğul, ay oğul, canım parası oğul!
Doğulanda doqquz dəvə kəsdim sənə,
inan, oğul!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Uca evim dirəyisən,
Qaza bənzər, qız-gəlinimin çiçəyisən.
Qarşı yatan, qara dağım gərək isə,
Qoy aparsın, Əzrailə yaylaq olsun!
Tovla-tovla şahbaz atım gərək isə,
Minsin getsin, qoy aparsın onun olsun!
Qatar-qatar dəvələrim gərək isə,
Nə yükləyir qoy yükləsin, onun olsun!
Sürü-sürü qoyunlarım gərək isə,
Qoy aparsın qurbanlığa, onun olsun!
Qızıl-gümüş, pul gərəksə,
verim ona xərclik olsun!
Amma oğul, dünya şirin, can əzizdir,
ona qıya bilmərəm mən.
Səni məndən çox istəyən anan vardır ona tələs,
Ondan istə, olar ki, o əsirgəməz.
Dəli Domrul atasından üz görməyib, sürdü anasının yanına gəldi:
— Əziz ana, bilirmisən nələr oldu?
Pis söz dedim, o, Tanrıya xoş gəlmədi.
Əmr eylədi Əzrailə gəlib canım alar oldu.
Çox yalvardım, əvəzində can istədi.
Getdim, atam can vermədi, qıymam dedi.
Ana, səndən can dilərəm, mənə fəda edərmisən?
Yoxsa: «Oğul, Domrul!» – deyib saçlarını
didərmisən?
Acı dırnaq ağ üzünə çalarmısan?!
Qarğı kimi qara saçın yolarmısan?!

Anası burada söyləmiş, görəlim, xanım, nə söyləmiş:

Oğul! Oğul! Ay oğul!
Doqquz ay qarnımda götürduyum, ogul!
On ay deyəndə dünya üzünə gətirdiyim oğul!
Tovlama beşiklərdə bələdiyim oğul!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dolab-dolab ağ südümdən
Əmizdirdiym ogul!
Uca bürclü qalalarda tutulaydın
Oğul!
Qızıl-gümüş gücü ilə qurtarardım, səni o an!
Amma indi yaman yerdə ilişmisən, duymaq olmaz,
Dünya şirin, can əzizdir, şirin cana qıymaq olmaz!

Anası da canını vermədi. Belə olanda Əzrail gəldi ki, Dəli Domrulun canını alsın.

Dəli Domrul dedi:

— Əyə, Əzrail, dayan!

Əzrail dedi:

— Əyə, Dəli axmaq, daha nə istəyirsən? Ağ saqqallı atanın yanına getdin, canın vermədi, ağ birçəkli ananın yanına getdin canını vermədi. Daha kim sənə can verəcək?

Dəli Domrul dedi:

— Həsrətim vardır, Əzrail, gedim görüşüm.

Əzrail dedi:

— Dəli, həsrətin kimdir?

Dəli Domrul dedi:

— Yad qızı halalım, arvadım var. Ondan mənim iki oğlum, əmanətim var, gedim tapşırım, onlarla görüşüm, ondan sonra mənim canımı alarsan.

Dəli Domrul arvadının yanına gəldi, dedi:

— Bilirsənmi nələr oldu, yad qızı, halalım mənim?
Tanrı ilə sözə gəldik, çox pis oldu halım mənim.
Əzrailə əmr elədi gəlib canım alar oldu.
Xahiş etdim, əvəzimdə can yerimə can dilədi.
Getdim, atam can vermədi,
Getdim, anam can vermədi.
Hər ikisi belə dedi:
Dünya şirin, cansa əziz,
Canı qıya bilmərik biz.
İndi gəldim halallaşaq,
Gəlsin görüm oğul-uşaq.
Bu dağlarım, yaylaqlarım,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sərin-sərin bulaqlarım,
Sənə gözəl yaylaq olsun!
Oğlanlarım qoy sağ olsun!
Tovla-tovla şahbaz atım, darda sizə bəlgə olsun.
Uca-uca otaqlarım qalsın sənə kölgə olsun!
Qatar-qatar dəvələrim qalsın sənə karvan olsun!
Sürü-sürü qoyunlarım qalsın sənə qurban olsun!
Gözün kimi tutar isə,
Könlün kimi sevər isə,
Get haqqın var inan,arvad!
Amma iki oğlancığım yetim qoyma, aman, arvad!

Arvadı bunu eşitcək, canı od tutub yandı, söylədi, görəlim, xanım, nə söylədi:

— Nə sözdü bu deyirsən?!
Ah nələr söyləyirsən?
Göz açıban gördüyüm,
Könül verib sevdiyim.
Qoç igidim, qoç ərim!
İxtiyarım, sərvərim!
Qarşı yatan dağları
Səndən sonra neylərəm?
Yaylasam, gorum olsun!
Soyuq-soyuq suları
Səndən sonra neylərəm,
İçərsəm, qanım olsun!
Bolluca var dövləti
Səndən sonra neylərəm,
Yesəm, zəqqutum olsun!
Tovla-tovla atları
Səndən sonra neylərəm,
Minsəm, tabutum olsun!
Səndən sonra əgər mən,
Bir igidi sevərsəm,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Onunla belə yatsam,
Zəhərli ilan olub
Mənim tənimi çalsın,
Tanrı canımı alsın.
Sənin o atan-anan,
Bir canda nə var, onu
Ah sənə qıymamışlar.
Bu qədər yaşamışlar,
Dynadan doymamışlar!
Yer tanıq olsun, Domrul,
Göy tanıq olsun, Domrul?!
Nə deyirsən, nə, Domrul?!
Mənim bu şirin canım
Qurbandır sənə, Domrul!

Arvadı bu sözləri deyən kimi Əzrail qadının canını almağa gəldi. İgid adam olan Dəli Domrul yoldaşına qıya bilmədi. Üzünü göyə tutub söyləmiş, görəlim, xanım nə söyləmiş:

Ucalardan ucasan,
Kimsə bilməz necəsən,
Cahillər görməz səni.
Göydə, ya yerdə arar.
Sən öz könlumuzdəsən .
Eşit, ey ulu Tanrı!
Böyük yollar üstündə
İmarətlər tikərəm,
Çaylara körpü salıb,
Uzun yollar çəkərəm.
Ac görsəm, doyuraram,
Sevərəm yoxsulları.
Çılpağa paltar verib
Şad edərəm onları.
Alırsan ikimizin canını birgə al!
Qoyursan ikimizin canını birgə qoy!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dəli Domrulun sözü Tanrıya xoş gəldi. Əzrailə əmr eldi: – Bu ər-arvad ki, bir-birinə bu qədər sədaqətlidir, Dəli Domrulun atasının, anasının canın al! Bu iki cavanın hər birinə yenidən yüz qırx il ömür verdim, – dedi.

Əzrayıl dəxi Domrulun atasının, anasının canını aldı.

Böyük məclis quruldu. Dədəm Qorqud gəlib boy-boy boyladı, soy soyladı, bu dastanı düzdü – qoşdu, bu boy Dəli Domrulun olsun! Məndən sonra alp Ozanlar söyləsin. Alnı-açıq comərd kişilər dinləsin – dedi.

Xeyir-dua verəyim, xanım:
— Yerli Qara dağların yıxılmasın!
Kölgəlicə qaba ağacın kəsilməsin!
Gur-gur axan görklü suyun quruması̇n!
Qadir Tanrı səni namərdə möhtac eləməsin!
Ağ alnında beş kəlmə dua qıldıq, qəbul olsun!
Yığışdırsın, duruşdursun günahınızı
Adı görklü Məhəmmədə bağışlasın, xanım hey!
Bu nağıldır əfsanədir.
Amma düşün məna nədir?
İnsan gözəl həyat sürsə,
Qısa ömür uzun olar,
Can deyib, can eşidərsə,
Bir il dönər yüz il olar!
Yaxşı dostun sədaqəti
Ölümdən də qüvvətlidir!
Sədaqətlə güc birləşsə,
Ölüm üçün dəhşətlidir!
Bu dastanı düzüb qoşduq
Dəli Domrulun adına.
Əhsən onun öz gücünə,
Əhsən onun arvadına!
İki qəlbin birgə səsi,
Birgə vurub döyünməsi,
Bir əsərdir sədaqətdən,
Bu maraqlı hekayətdən,
Ozanlar qoy söz salsınlar,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Görənlər ibrət alsınlar.
Çətinliyə sinə gərən,
Cavanlara yol göstərən,
Mərd igidlər dinləsinlər.
Var olsun qoy mərdlik, hünər.
Ömür sürüb səadətlə,
Qarısınlar, qocalsınlar.
Sədaqətdən qüvvət alıb
Qocaldıqca ucalsınlar.

## QANTURALININ DASTANI

Oğuz zamanınıda Qanlı qoca adlı bir korbud kişi vardı. Yetişmiş, şücaətli bir oğlu vardı adına Qanturalı deyərdilər.

Bir gün Qanlı qoca dedi:

— Oğul, atam öldü, mən qaldım, yerin-yurdunu tutdum. Sabahkı gün mən ölsəm, sən qalacaqsan. Bundan yaxşısı yoxdur ki, gözüm görür, qulağım eşidirkən gəl səni evləndirim.

Oğlan dedi:

— Ata, indi ki, sən deyirsən gəl səni evləndirim, məgər sən mən deyən qızı tapa biləcəksənmi?

Qanlı qoca təəccüb etdi:

— Oğul, sən necə qız istəyirsən ki, mən onu tapa bilməyəm?

Qanturalı dedi:

— Ata, mən elə bir qız istərəm ki, mən yerimdən durmadan o durmuş ola. Mən qaraqoç atıma minmədən o minmiş ola. Mən qanlı kafir üzərinə getmədən o getmiş ola, mənə baş gətirmiş ola!

Qanlı qoca dedi:

— Oğul, sən qız istəməzmişşən, bir igid, bahadır istərmişşən ki, onun arxasında



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yeyəsən-içəsən, xoş keçinəsən!

Qanturalı dedi:

— Bəli, canım ata! Bəs necə? Yoxsa varasan, gedib bir cici-bacı türkmən qızını alasan, nagahan dayana bilməyib, yıxılam, ayağımın altında qala, qarnı partlaya?

Qanlı qoca:

— Oğul, onda qızı görmək səndən, mal-dövlət verib almaq məndən, – dedi.

Atası belə deyəndə, igidlər igidi Qanturalı yerindən durdu, qırx yoldaşını yanına aldı. İç Oğuza girdi qız tapa bilmədi, Daş Oğuza girdi, tapmadı, qayıtdı evlərinə gəldi.

Atası soruşdu:

— Oğul, qız tapa bildinmi?

Qanturalı dedi:

— Yıxılsın Oğuz elləri! Mənə yarar bir qız tapa bilmədim.

Atası dedi:

— Ay oğul, qız istəyən belə axtarmaz!

Qanturalı:

— Bəs necə axtararlar, ata?! – dedi.

Qanlı qoca:

— Oğul sabah varıb, günorta qayıtmaq olmaz. Günorta varıb axşam qayıtmazlar! Sən mala bax, becid ol, vaxtında yığ apar, mən gedim sənə qız axtarmağa – dedi.

Qanlı qoca sevinib-güvənib, dünya görmüş ağ saqqallı qocaları yanına aldı, getdi. İç Oğuza girdi, qız tapa bilmədi, Daş Oğuza girdi, qız tapa bilmədi, gəzə-gəzə, dolandı Trabzona gəldi. Gördü ki, Trabzon Təkurunun bir gözəl qızı var. Sağına, soluna iki qoşa yay çəkdirmişdi. Atdığı ox yerə düşməzdi. O qızın kəbinlik əvəzində üç güclü güləşən heyvanı var idi. Atasının şərti bu idi ki, hər kim onun qızını almaq istəsə bu üç heyvanı basıb öldürməli idi. Öldürə bilməsə, onun boynunu vurdurardı. Beləliklə, otuz iki pəhləvanın başı kəsilib qala bürcündən asılmışdı.

Bu heyvanlardan biri qara buğa, biri qoğan aslan, üçüncü isə qara buğra idi. Bu otuz iki baş ki, bürcdən asılmışdı, bunlar qoğan aslanla, qara buğranın üzünü görməmişdi, ancaq buğanın buynuzunda həlak olmuşdular.

Qanlı qoca bu başları və heyvanları gördü, qorxudan bədəninə üşütmə düşdü.

Yaxşısı budur ki, oğluma doğrusunu deyim. Hünəri varsa, gəlsin alsın, yoxsa eldəki qıza razı olsun,  – dedi.

At ayağı külək, ozan dili çevik olur. Qanlı qoca qayıdaraq gəlib Oğuza çıxdı.

Qanturalıya xəbər verdilər. Qırx yoldaşı ilə atasını qarşıladı, əlini öpdü, soruşdu:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

— Xanım ata, mənə yarar qız tapdınmı?
Qanlı qoca:
— Tapdım, oğul! Amma hünərin var isə, – dedi.
Qanturalı soruşdu:
— Qızıl-gümüşmü istər? Yoxsa at-dəvəmi istər?
Atası:
— Yox oğul, hünər gərək, hünər!
Qanturalı:
— Ata, qara yallı qazlıq atımı yəhərləyim. Qanlı düşmən elinə çapım, gedim. Qılınc çalım, qan töküm, baş kəsim? Ya nə edim? Necə hünər göstərmək lazımdır?
Qanlı qoca dedi:
— Hay, oğul, hünər dediyin o deyil. Baş kəsib qan tökmək hünər deyil, oğul! Hünər odur ki, o qızın üç döyüşkən, yırtıcı heyvanı var: qara buğa, qoğan aslan, qara buğra. Hər kim o üç heyvanı bassa, o qızı ona verərlər. Basıb öldürməsə, onun başını kəsib bürcdən asırlar.
Qanturalı:
— Ata, bu sözü sən mənə gərək deməyəydin. İndi ki, dedin, getməliyəm. El içində başıma qaxınc, üzümə toxunc olmasın.
— Xanım ana, bəy ata, salamat qalın! Mən gedər oldum! – dedi.
Qanlı qoca: – Gördünüzmü mən öz-özümə nə etdim? – dedi, – qoy oğlana qorxunc xəbərlər verim, bəlkə getməyə bu yoldan dönə.

Qanlı qoca söyləmiş, görəlim, xanım, nə söyləmiş:
Oğul, sən varacaq dolambac yolun
Yaman güdükcüsü, baxanı vardır.
Atlı batıb çıxmaz onun palçığı,
İlan dələ bilməz ormanı vardır.
Alınmaz qalasi, uca sarayı,
Göz vurub, can alan cananı vardır.
Hay deyib, baş kəsən zalım cəlladı,
Çiynində yoqrulmaz qalxanı vardır.
Yaman yerə səni yönəltdim, oğul!
Getmə, bu yolların çox qanı vardır.
Bu qoca atanın, qoca ananın



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dərdinə dözməyə nə canı vardır!?

Qanturalı atasının cavabında söylədi, görəlim, xanım, nə söylədi:

— Ata, gəl söyləmə belə sözləri,
Qorxutmaq eyb olar axı, alp əri.
Palçıqlı yoluna döşətdirib qum,
Düşmən üzərinə edərəm hücum.
Meşəsinə şimşək olub çaxaram,
Uca qələlərin vurub yıxaram!
Göz vurub, can alan şux gözəlini
Gəlin gətirərəm tutub əlini.
Bəlkə də dəvənin köksündə ölsəm,
Bəlkə gəlməz olsam, bəlkə də gəlsəm,
Buğa buynuzunda əzilsəm də bil,
Aslan pəncəsində didilsəm də bil,
Bu yoldan dönmərəm, dönmərəm, əlbət!
Bəlkə də dönmərəm sağ və səlamət!
Yenə görüşənəcən bəy ata, xanım ana, salamət qalın! – dedi.

Gördülər ki, oğlan namus üçün yenilməzdir.

Hamı:

— Oğul, uğrun açıq olsun! Sağ varıb, salamət gələsən, – deyib, xeyir-dua verdilər.

Qanturalı atasının, anasının əllərini öpdü. Qırx igidini səslədi, yanına aldı. Yeddi gün, yeddi gecə at çapdılar, Trabzon sərhədinə yetişdilər. Atdan düşüb çadır tikdilər. Yeyib-içib burada xeyli dincəldilər. Qanturalı yüyrək atını oynadıb çapar, gürzünü göyə atar, enib yerə düşmədən havada qapıb, yoldaşlarına deyirdi:

— Qırx eşim,
Qırx yoldaşım!
Yüyrək olsa yarışım,
Güclü olsa güləşsəm,
Üç vəhşini öldürsəm,
Öz gücümü bildirsəm,
Gözəllərin soltanı,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sarı donlu Selcanı
Alıb geriyə dönsəm,
Güvənsəm və sevinsəm,
Sizə qurbandır başım,
Ey qırx eşim, yoldaşım!

Bunlar bu söhbətdə ikən Trabzon təkuruna xəbər verdilər ki, Oğuzdan, Qanturalı deyilən, bir igid gəlmiş,qızını istəyir.

Təkurun adamları yeddi ağaclıqdan* Qanturalıya qarşı gəldilər. Salam və ehtiramdan sonra soruşdular:

— Nəyə gəlmisiniz, igid?

Alışmağa-verişməyə gəldik! – dedilər.

Təkurun adamları qonaqlara hörmət elədilər. Ağ çadır tikdilər, ala xalı döşədilər. Ağca qoyun kəsdilər. Məclis qurdular. Süfrəyə yeddi illik al şərab gətirdilər. Yedilər-içdilər. Sonra yığışıb Qanturalını yoldaşları ilə birlikdə Təkurun yanına gətirdilər.

Təkur əvvəldən hazırlanmış meydanda təxt üzərində oturmuşdu, yüz nəfər gözəl geyinmiş silahlı keşikçi onun qulluğunda düzülmüşdü.

Qanturalı yeddi qat meydanı dolandı gəldi.

Təkurun qızı sarı donlu Selcan xatun meydanda onun üçün xüsusi düzəldilmiş köşkdə əyləşmişdi. Cəmi yanında olan qızlar al geyinmişdi. Özü isə sarı paltarda idi. Yuxarıdan aşağıya- meydana tamaşa edirdi.

Qanturalı gəldi. Qara şapkalı Təkura salam verdi. Təkur əleyk aldı. Yerə böyük xalı döşədilər, Qanturalı əyləşdi.

Təkur soruşdu:

– İgid, nə yerdən gəlmişsən?

Qanturalı ayağa durdu. Təkura sarı yavaş-yavaş yeridi. Ağ alnını açdı, ağ biləklərini sığadı, dedi:

Qarşı yatan qara dağını aşmağa gəlmişəm,
Axıntılı sərin suyunu, keçməyə gəlmişəm.
Dar ətəyinə, gen qoltuğuna sığınıb gəlmişəm.
Tanrının buyuruğu, peyğəmbərin qövlü ilə
Qızın sarı donlu Selcan xatunu almağa gəlmişəm.

---

* Ağac– keçmişdə məsafə ölçüsüdür. Bir ağac 7 kilometrə yaxındır



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Təkur:

Bu igid sözdə ötkündür. Əgər hünəri də varsa, buyursun, – dedi, – sonra əmr elədi:

Bu oğlanı anadangəlmə soyundurun.

Qanturalını soyundurdular. Ancaq qızıl tikməli kətan bezini Qanturalı belinə sarıdı. Onu meydanın ortasına gətirdilər.

Oğuzda camal və kamal sahibi olan dörd igid üzü niqablı gəzərdi. Biri Qanturalı idi, biri Qara Çəkur və oğlu Qırxqunuq, dördüncüsü Boz ayqırlı Beyrək idi.

Qanturalı üzündən niqabını götürdü. Selcan xatun köşkdən baxırdı. Qanturalının gözəl camalını gördü, daraqlığı boşaldı, pişiyi miyolladı, dabaq olmuş dana kimi ağzının suyu axdı.

Yanındakı qızlara dedi:

— Kaş,Tanrı atamın könlünə rəhm salıb, kəbin kəsdirib məni o igidə verəydi! Bunun kimi igid heyf ola ki, bu vəhşilər əlində həlak ola! – dedi.

Elə bu zaman dəmir zəncirlə bağlanmış buğanı gətirdilər. Buğa dizi üzərinə çökdü, buynuzu ilə bir mərmər daşı vurub yoğurdu, pendir kimi diddi.

Adamlar:

İndi bu saat igidin üzərinə atılıb yıxar, yerə sərər, oğlanı buynuzuna keçirib öldürər. Yıxılsın Oğuz elləri ki, belə bir igid bir qızdan ötrü özünü ölümə verir, – dedilər.

Bunu eşitcək Qanturalının qırx igidi ağlaşdı.

Qanturalı sağına baxdı – qırx igidini ağlar gördü, soluna baxdı, elə gördü:

— Hey, qırx eşim, qırx yoldaşım! Niyə ağlarsınız? Qolça qopuzumu götürün, məni öyün! – dedi.

Burada qırx igid Qanturalını öymüşlər, görəlim, xanım, necə öymüşlər:

— Ey Soltanım Qanturalı,
Səhər-səhər sən duralı
Qapınızda qış və bahar
Qarabaşlar inək sağar-
Görməmisən? Buzov, dana,
Oynar, qaçar dörd bir yana.
Buğa-buğa dedikləri.
Həmin buzov deyil məgər?
Bundan qorxsan el nə deyər?



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Selcan xatun gendən baxır,
Hər baxışı ürək yaxır.
Sarı donlu qız eşqinə
«Hu» de, qüvvət gəlsin sənə!

Qanturalı sarı donlu qız eşqinə bir «hu», - dedi.

— Əyə, buğanızı boşlayın gəlsin!

Buğanın zəncirini açdılar, boşladılar. Buğa almaz cida kimi şiş buynuzunu qabağa verib, Qanturalıya doğru sürüb gəldi.

Qanturalı adı görklü Məhəmmədə salavat gətirdi və buğanın qarşısında şax dayanıb, yumruğunu onun alnına elə vurdu ki, buğa dalı üstə yerə çökdü. Ancaq Qanturalı yumruğunu çəkməyərək, buğanı dalı-dalı sürüb meydanın başına çıxardı.

Çox çalışdılar, nə buğa yenər, nə Qanturalı. Buğa yavaş-yavaş boşaldı, ağzı köpükləndi. Qanturalı öz-özünə dedi: Ağıllı adamlar bu dünyanı ağılla  yola vermişlər. Mən buna niyə dayaq olub durmuşam, yaxşısı budur ki, önündən kənara sıçrayım, nə hünərim varsa, arxadan göstərim. Adı görklü Məhəmmədə salavat gətirdi və buğanın önündən sovuldu. Buğa buynuzu üzərində dik yerə gəldi. Qanturalı tez buğanın quyruğundan tutub, fırladı , üç kərə yerə çırpdı. Buğa xurd-xəşil oldu. Bıçağını çıxardı, basdı boğazladı. Dərisini üzdü. Ətini meydana qoyub, dərisini Təkurun önünə gətirdi:

— Tezdən qızını mənə verərəsən?

Təkur dedi:

— Əyə, verin qızı, götürüb şəhərdən çıxsın, getsin.

Təkurun qardaşı oğlu vardı, dedi:

— Vəhşilərin başçısı qoğan aslandır, onunla da oyun göstərsin, qızı ondan sonra verərik.

Getdilər, aslanı çıxardılar, meydana gətirdilər. Aslan elə dəhşətlə hayqırdı ki, meydandakı atların hamısı qan qovşadı.

Yoldaşları:

— Buğadan qurtuldu, aslandan necə qurtaracaq? – dedilər, – ağlaşdılar. Qanturalı igidləri ağlar görüb, dedi:

— Əyə, igidlərim, qolça  qopuzumu ələ alın, məni öyün. Sarı donlu qız eşqinə bir aslandan qorxub dönümmü?

Yoldaşları burada söyləmişlər, görəlim, xanım nə söyləmişlər:

— Soltanım Qanturalı,
Düzdə qızmar günəş altda dövran sürən,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Daylar basıb ön damarın dəlib soran,
Qara poladüz qılıncdan çəkinməyən,
Ağ yeləkli ötkün oxdan diksinməyən,
Vəhşilər padşahı qoğan aslan,
Quduran köpək əniyinə özünü daladarmı?
Alp igidi bir küçük də qorxudarmı?
Sarı donlu qız eşqinə qeyrətə gəl!

Qanturalı:

— Əyə, aslanınızı buraxın gəlsin! – Qara poladüz qılıncım yox ki, qıvraşdığı dəm iki biçəydim. Sənə sığındım comərdlər. Ulu Tanrı, səndən mədəd, – dedi:

Aslanı buraxdılar, sürdü Qanturalıya tərəf gəldi. Qanturalının yanında aslandan qorunmaq üçün heç bir şeyi yox idi. Meydana girəndə onu Təkurun əmri ilə anadangəlmə soyundurmuşdular. Ancaq zərli bez kətan dolağını belinə sarımış və bir kiçik bıçağı var idi. O bez kətanını bıçağına dolayıb, sol əli ilə aslanın pəncəsinə doğru uzatdı. Aslan bununla məşğul ikən, gözləyib, aslanın düz alından sağ əli ilə elə bir yumruq ilişdirdi ki, onun beyni alt çənəsinə yoğruldu. Süksünündən tutdu, qanırıb belini üzdü. Sonra başı bərabərində iki əli ilə qaldırıb yerə elə çırpdı ki, xurd-xəşil oldu. Təkurun önünə gəlib:

— Sabah qızı mənə ver, aparım! – dedi.

Təkur:

Qızı gətirin verin! Bu igidi gözüm gördü, könlüm sevdi, istəsə bizimlə qalsın, istəməsə götürüb öz ellərinə getsin, – dedi.

Yenə Təkurun qardaşı oğlu mane oldu:

Heyvanların ən güclüsü dəvədir. Onunla da oyun göstərsin, sonra qızı verərik, – dedi.

Çün köməklik Tanrıdan oldu, bəyin, paşanın Qanturalıya rəqbəti artdı.

Təkurun Qanturalıdan xoşu gəlmişdi. Ona görə də dedi: — Dəvənin ağzını yeddi yerdən bağlayın, gətirin!

Paxıl adamlar Təkurun qardaşı oğlunun işarəsi ilə dəvənin ağzını bağlamadılar. Ovsarını sıyırıb boşladılar. Döyüş başlandı.

Qanturalı dəvənin qoltuğundan girir, fırlanır, qarnının altından çıxırdı. Dəvə onu süpürləyib sinəsi altına yıxmağa çalışırdı. Onlar xeyli güləşdilər.

İki heyvanla güləşib yorulmuş, əldən düşmüş igid sərxoş kimi gicəllənib ayaq üstə dura bilmirdi. Onun zəiflədiyini görüb altı cəllad sıyırma qılınc, başı üstündə hazır



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

dayandı.

Qanturalının yoldaşları bu halı görüb, ağlaşdılar, oğlanı cəsarətə gətirmək üçün söyləmişlər, görəlim, xanım, nə söyləmişlər:

Ey soltanım Qanturalı!
Sarı donlu qız eşqinə durub gəldin,
Qazlıq ata minib qamçı vurub gəldin,
Ala gözlü qırx igidlə yola düşdün,
Gen dərəli Ala dağı gecə aşdın,
Axıntılı gur çayları dəlib keçdin.
Trabzon ellərinə gəlib düşdün,
Sarı donlu qız eşqinə meydan sürüb sən güləşdin,
Buğa gəldi, quyruğundan tutub onu yerə çaxdın.
Aslan gəldi, yumruğunu düyümləyib vurub yıxdın.
Qara buğra gəldi, nəyçün gicəlləndin, Qanturalı?!
El içndə, ayıb olar, igid, düşün, sən bu halı.
Qara-qara dağ başından xəbər keçər,
Qanlı-qanlı gur sulardan bətər keçər,
Qalın Oğuz ellərinə xəbər gələr,
Qanturalı nələr etmiş, hamı bilər:
Buğa gəlmiş qılçalamış,
Aslan gəlmiş yerə çalmış,
Qara buğa gələndəsə çaşmış belə!
Adın düşə dildən-dilə,
Uşaq-böyük deyə-gülə!
Ağ saqqalı atan bilə,
Xəcalətlər çəkib ölə!
Anan tökə göz yaşını.
İgid, qaldır bir başını,
Altı cəllad başın üstə hazır durur,
«Həh» deməmiş, qafillicə boynun vurur.
Baxmazmısan Selcan xatun fənd göstərir,
«Burnundadır dəvələrin canı» – deyir.
Sarı donlu qız köşkdən baxır, baxır.
Baxışilə hər baxanı oda yaxır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sarı donlu qız eşqinə «hu» de, igid!

Qanturalı özünə gəlib, ayağa durdu.

— Əyə, mən bu dəvənin burnundan yapışıb yıxsam, qızın sözü ilə etdi – deyərlər. Sabah Oğuz elinə xəbər çata: «dəvə əlində əsir qalmışdı, qız qurtardı», – deyərlər, söz edib tənə vurarlar.

— Ey qırx yoldaşım! Qopuzumu götürün, çalın! Öyün məni! Sarı donlu qız eşqinə bir buğradan dönərəmmi? Başını kəsməsəm, ondan əl çəkərəmmi?

Yoldaşları Qanturalını öydülər:

— Qaf qayalar başında özünə yuva salan,
Göyün yeddi qatında süzərək qanad çalan,
Mancanaqdan atılmış daş kimi qıcıldayıb,
Gölün qara qazını caynağında aparan,
İsti-isti baş salıb ciyərini qoparan,
Quşların padşahı, soltanı çal qaraquş
Quyruğu ala sağsağana söylə, məğlubmu olmuş?!
Alp igidlər döyüşdən dönərmi dava günü,
Qalx, ələ al özünü!
Sarı donlu qızı gör, köşkündən necə baxır,
Bir baxışla aləmi eşq oduna yaxır.
Sarı donlu qız eşqinə bir «hu!» de, dedilər.

Qanturalı adı görklü Məhəmmədə salavat çevirdi, qeyrətə gəldi, özünü cəmləşdirib, dəvənin boş böyrünə elə bir yumruq ilişdirdi ki, dəvə bağırdı. Bir də vurdu, dəvə ayaq üstə dayana bilməyib yerə yıxıldı. Oğlan tez bıçağını çıxarıb dəvəni iki yerdən boğazladı. Sonra onun kürəyindən iki qayışlıq gön çıxarıb Təkurun ayaqlarına atdı:

— Süvarilər tərkbaşına, üzəngi qayışına tikmək üçün lazım olar! – dedi.

Təkur dedi:

— Vallah bu igidi gözüm gördü, könlüm sevdi, qızı gətirin!

Qırx yerdə otaq tikildi, qırx yerdə qızıl ala gərdək quruldu. Qanturalı ilə qızı gətirib gərdəyə qoydular. Ozan gəldi, yeltəmə çaldı. Oğuz igidinin öpgəsi qabardı. Qılıncını çıxardı, yerə çaldı, kərtdi, – dedi:

Bu yer kimi kərtilim,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Torpaq kimi sovrulum,
Qılıncımla doğranım,
Öz oxuma sancılım!
Heç oğlum doğulmasın,
Doğularsa, heç on günə varmasın!-
Əgər bəy atamı, xanım anamı
Görməmiş, mən bu gərdəyə girərsəm!…

Yerindən durdu, yoldaşlarını səslədi. Çadırları sökdülər, dəvələri yüklətdilər, atları kişnətdilər, gecə ikən minib yola düşdülər. Yeddi gün, yeddi gecə yortdular, Oğuzun sərhədinə çatdılar.

Qanturalı yoldaşlarına dedi:

— Ey qırx eşim, qırx yoldaşım,
Sizə qurban mənim başım!
Haqq-taala yol verdi, vardım,
O üç heyvanı öldürdüm, qurtardım,
Sarı donlu Selcan Xatunu aldım
Çətin işdə zəfər çaldım,
Xəbər verin anam bilsin,
Qarşımıza atam gəlsin!

Yoldaşları dayanmayıb getdilər. Qanturalı gördü ki, dayandıqları bu yer çəmənlərin, güllərin ətri ilə insanı valeh edir. Gül gülü , bülbül bülbülü çağırır. Qu quşları, durnalar, turaclar, kəkliklər uçuşur, ceyranlar, keyiklər qaçışır.

Selcan xatunun bu yer çox xoşuna gəldi. Düşdülər, yedilər, içdilər işrətə məşğul oldular.

O zaman Oğuz igidlərinə nə qəza üz versəydi, yuxudan olardı. Qanturalı da neçə günün əziyyətindən sonra yorulub əldən düşmüşdü. Yuxusu gəldi, uyudu, yatdı.

Oğlanın şirin yuxuya getdiyini görüb, qız öz-özünə dedi:

Elimizdə mənə göz dikənlər çox idi. Nagah birdən yığışıb gəlməsinlər!? Yatdığı yerdə igidimi öldürməsinlər! Ağca üzlü mən gəlini tutub təzədən atam evinə aparmasınlar. Ehtiyat igidin yaraşığıdır. Qız bunu dedi, durdu, oğlanın atını yaxşıca yəhərləyib hazır tutdu. Özü də atlandı, dava paltarını geyindi süngüsünü əlinə aldı, bir yüksək yerə çıxıb at belində dayanıb gözlədi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Doğrudan da, qız düz fikirləşmişdi. Onlar gələndən sonra atası peşman oldu: Üç heyvanı öldürdüyü üçün bir qızcığazımızı aldı, getdi, – deyib, əlini başına döydü. Möhkəm geyinib silahlanmış altı yüz seçmə kafir atlanıb, Qanturalıgilin arxasınca çapdı. Gecə-gündüz deməyib yortdular, nagahdan gəlib çatdılar, onların üstünü aldılar.

Keşiyində hazır dayanmış Selcan xatun, çaparaq gələn atlıları gördü. Öz atını oynadıb Qanturalının üzərinə gəldi, söylədi, görəlim, xanım, nə söylədi:

Qafil olma, dur başını qaldır,igid!
Yağı gəlir üstümüzə, indi yaman haldır, igid!
Sinən çarpaz dağlanmadan,
Qafil başın kəsilmədən,
At tərkindən asılmadan,
Qaf qayalar oynamadan,
Qanlı sular qaynamadan,
Oyan, oğlan, yağı gəldi!
Bura kimi atı çapdın,
Yatmaq üçün yermi tapdın?!-
Deyib,qız cığırdı.

Qanturalı diksindi, yerində gərnəşdi, gözünü açmadan soruşdu:

— Nə söylərsən görklüm, gözəlim? Nə olmuşdur?

Qız dedi:

İgid, üzərimizə yağı gəldi, oyan, ayağa qalx, dava meydanıdır, hünər göstərmək gərək!

Qanturalı dik sıçradı, ayağa durdu. Selcan xatunu silahlı – qalxanlı at belində başı üzərində dayanmış görəndə, sevindi, öz arzusunun yerinə yetdiyinə şükürlər edib «Əmənna, səddəqna, məqsudumuz Haqq-Taala dərgahında hasil oldu» – deyib, arı sudan dəstəmaz alıb ağ alnını yerə qoydu. İki rükət namaz qıldı, yeri öpdü. Atının belinə sıçrayıb, adı görklü Məhəmmdə salavat çevirdi, qara donlu kafirə at saldı, qarşı çapdı.

Selcan xatun atını oynatdı, Qanturalının qarşısna keçdi.

Qanturalı soruşdu:

— Gözəlim, sən hara gedirsən?

Qız dedi:

— Bəy igid! Baş salamt olsa, börkü tapılar! Bu gələn düşmən çoxdur, güclüdür.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Birgə vuruşmaq gərək, ölənimiz ölsün, sağ qalanımız qayıdıb yenə bu çadıra gəlsin! – dedi.

Selcan xatun qılıncını sıyırıb düşmənin bir tərəfini qılınclayıb, geri oturdu. Qaçanını qovmadı, «aman!» deyənini öldürmədi. Sonra elə bildi ki, düşmən tamam basıldı, qayıdıb çadıra gəldi. Gördü ki, Qanturalı yoxdur.

Elə bu zaman Qanturalının atası-anası gəldilər. Gördülər ki, gəlin əlində qanlı qılınc dayanmış, oğlanları isə görünmür. Anası oğlunu qızdan soruşdu, görəlim, xanım, necə soruşdu:

At belində duran gəlin!
Qaşın yay tək quran gəlin!
Söylə görək tayın hanı?
Sən günəşsən, ayın hanı?
Harda qalmış Qanturalı?
Necə olmuş onun halı?
Yoxsa başın kəsdirmisən,
At tərkindən asdırmısan?
Hanı oğlum, söylə mənə?
Qara başım qurban sənə!

Qız bildi ki, bu qayınanası ilə qayınatasıdır. Qamçı ilə çadıra işarə edib: – oraya düşün, – dedi. Özü atını mahmızlayıb, bir yüksək yerə çıxdı. Baxdı ki, bir dərənin içində toz gah yığılır, gah dağıdır. Atını qamçılayıb tez özünü ora yetirdi. Gördü ki, Qanturalının atını və gözünün qapağını oxlamışlar, üzünü qan bürümüş, durmadan qanını silir. Düşmən dörd tərəfdən üzərinə hücum çəkir. O isə qılıncını sıyırıb qabağına keçəni qovur, dağıdır. Selcan xatun bunu görüb, canına odlar düşdü. Bir bölük qaza şahin girmiş kimi düşmənin içinə cumdu. Bu ucundan o ucuna at təpib hamısını qılıncdan keçirdi. Qanturalı baxıb gördü ki, kimsə bir igid onun yağılarını atının döşünə salıb qovur. Selcan xatun olduğunu bilmədi. Çünki, yarasından axan qan gözlərini pərdələmişdi. O, bu igidə üz tututub burada söyləmiş, görəlim, xanım, nə söyləmiş:

Qazlıq ata minən igid, nə igidsən?
Düşmən səfin pozan igid, nə igidsən?
İcazəsiz bir igidə kömək etmək bizim
eldə eyib olur,
Mən demədən gələn igid, nə igidsən?



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Səni tutub boğazından asaram.
Qılınc ilə gözəl başın kəsərəm.
Ey ölümü yetmiş, igid, nə igidsən?
Əyə, çıx get.
Yoxsa durub togan quş olub uçummu?
Saqqalınla boğazından tutummu?
Qafillicə sənin başın kəsimmi?
Qara başın tərkə asımmı?
Əyə qəzası yetmiş igid, nə igidsən?
Qayıt get.

Selcan xatun cavabında söyləmiş, görəlim, xanım, nə söyləmiş:

Hey igidim!
Bəy igidim!
Karvanında qızıl dəvə,
Köşəyini əzərmi de?!
İlxısında bədöy atlar,
Qulunundan bezərmi, de?!
Ağa yəlda ağca qoyun
Quzusuna qıyarmı, de?!
Sevgilisi sevgilisin
Meydanda tək qoyarmı, de?!

Bəy igidim, bu yağının bir ucunu sən, bir ucunu mən basıb dağıtmalıyıq,– dedi, – döyüşə davam etdi.

Qanturalı Selcan xatunu tanıdı. Özü də piyada bir tərəfdən cumub düşməni qılıncdan keçirdi.

Onlar igidliklə döyüşdülər. Düşmən basıldı, dava qurtardı. Selcan xatun piyada qalmış yaralı Qanturalını atının tərkinə alıb, geriyə, düşdükləri yerə gəlməkdə olsun, Qanturalı öz-özünə fikirləşdi: «Aha, indi Oğuza qaydarıq, orada qızlar Selcan xatunun başına yığışar, hərə bir söz deyib özünü öyər, söz-sözy gətirər, bu da: «Qanturalını ölümdən mən qurtardım» – deyib özünü öyər. El içində rüsvay olaram. Yaxşısı budur qızı öldürüm». Qanturalı atdan yerə sıçradı. Qızı səsləyib dedi:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Aha, Selcan  xatun, demək,
İndi bizim elə getsək,
Qız-gəlinlər durub gələ,
Söhbət edib, deyib – gülə,
Hərə durub bir söz deyə,
Bir-bir öz-özünü öyə,
Sən də qalxıb öyünəsən,
Deyəsən olmasaydım mən,
Qanturalı yatmış idi,
Mən olmasam batmış idi,
Öz tərkimdə xilas etdim,
Ölmüş idi mən diriltdim!
Gözüm döndü, könlüm getdi.
Öldürərəm səni – dedi.
— Düş atdan yerə! Səninlə vuruşacağam!

Qız işin nə yerdə olduğunu görüb, Qanturalını sakit etməyə çalışdı. Söylədi, görəlim, xanım,  nə söylədi:

Bu nə sözdü, bəyim igid,
Öyünmərəm, öyünmərəm!
Xoş gəlmədi nəyim, igid?
Öyünmərəm, öyünmərəm!
Öyünsə qoy ər öyünsün,
Qızda nə hünər, öyünsün?
Öyünməklə övrət ər olmaz.
Ala yorğan içində dolaşmadıq.
Dadalı damaq dadıb sənlə soruşmadıq.
Ağ duvağım altından heç söyləşmədik!
Sənlə şirin söhbət edib, əyləşmədik.
Tez sevib, tez usandın, nə deyim sənə!
İstəklinəm, zalım oğlu, qıyma mənə!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qanturalı dedi:
— Yox, əlbəttə, səni öldürməliyəm!
Qız hirsləndi:
— Əyə, sarsaq oğlu, sarsaq, mən aşağı qulpdan yapışıram, sən yuxarı qulpdan yapışırsan! Axmaq oğlu! Oxunlamı, ya qılınclamı döyüşmək istəyirsən? Buyur! – dedi, – atını çapdı, hündür bir yerə çıxdı. Sadaqından doxsan oxunu yerə tökdü. İki oxun dəmirini çıxartdı. Birini gizlədi, birini əlinə aldı. Dəmirli oxla atmağa qıymadı.
Qanturalıya:
— İgid, at oxunu! – dedi.
Qanturalı dedi:
— Qızların yolu əvvəldir. Əvvəl sən at!
Qız bir oxla Qanturalını nişan aldı atdı. Elə atdı ki, başında olan bit ayağına endi, tükləri biz-biz durdu. O, cavab oxunu atmadı, irəli gəlib Selcan xatunu qucaqlayıb bağrına basdı. Öpüşdülər, barışdılar.

Qanturalı burada söyləmiş, görəlim, xanım, nə söyləmiş:
— Zərif donla şölə saçıb, geyin, bəzən!
Yeriyəndə yer basmayıb, sanki üzən!
Qar üstünə qan dammış tək al bənizlim!
Qoşa badam sığmayan o dar ağızlım.
Qələmçilər çala bilməz qara qaşlım!
Burması qırx tutamlıq qara saçlım!
Aslan cinslim! Soltan qızı!
Yanaqları al-qırmızı!
Səni burda sınardım mən?!
Əgər sənə qıyar olsam,
Öz canıma qıyardım mən!

Selcan xatun burada söyləmiş, görəlim, xanım, nə söyləmiş:

Bizim eldə mən yerimdən duranda,
Hələ bir oxum da getməmiş boşa.
O ala dağlara ova çıxanda,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Keyiki, ceyranı vurub yıxanda,
Qarayal atıma qamçı vuranda,
Dəmirsiz bir oxla girib savaşa,
Sənə qıyarmıdım, sevgilim? Haşa!
İrağından tutuban yaxınından gəlişdilər.
Gizli yaxa tutuban iyləşdilər.
Dadlı damaq veribən soruşdular.
Ağ-boz atlar minibən çapışdılar.

Oğlanın ata-anasının yanına gəldilər. Qantralının atası oğlunu görüb şükürlər elədi. Anası onu bağrına basdı.

Qanlı Qoca oğlu ilə, gəlini ilə Oğuza girdi. Gömgöy güllü-çiçəkli çəməndə çadırlar qurdurdu. Atdan ayqır, dəvədən buğra, qoyundan qoç qırdırdı. Böyük toy elədi. Bütün Oğuz elini toya çağırdı.

Altunluca günlüyü tikib, Qanturalı gərdəyə girdi, muradına, arzusuna çatdı.

Dədəm Qorqud gəlib, qopuzunu sinəsinə basıb şadlıq çaldı, boy boyladı, söy söylədi, qəhrəmanların başına nə gəldiyini söylədi.

Bu dastanı düzdü – qoşdu, Qanturalı ilə Selcan xatunun dastanı olsun, – dedi.

İndi hanı dediyim bəy ərənlər,
Dünyaya «mənim» deyənlər?!
Yer gizlədi, əcəl aldı,
Fani dünya kimə qaldı?!
Gəlimli-gedimli dünya,
Son ucu ölümlü dünya!

Dədə Qorqud bir daha alqışlar söylədi:

— Əcəl gəldikdə Tanrı səni arı imandan
ayırmasın.
Qadir səni namərdə möhtac eləməsin.
Allah verən ümüdin üzülməsin.
Ag alnında beş kəlmə dua qıldıq, qəbul olsun.
Amin deyənlər didar görsün.
Yığışdırsın, dürüşdürsün günahınızı



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Adı görklü Məhəmməd Mustafaya bağışlasın,
xanım, hey!

## YEYNƏYİN DASTANI

Bir gün Qamğan oğlu Xan Bayandır yerindən durmuşdu. Göy çəməndə ağban evlərini qurmuşdu, uca seyvanı göy üzünə aşınmışdı. İç oğuz, Dış Oğuz bəyləri söhbətinə dərilmişdi, yemə-içmə idi.

Qazlıq Qoca deyirdilər, bir kişi var idi, Bayandır xanın vəziri idi. Şərabın təsiri başına vurdu, dizləri üzərinə çökdü, Bayandır xandan xahiş elədi ki, yürüşə çıxmaq üçün ona icazə versin.

Bayandır xan dedi:

— Hara istəyirsən, get!

Qazlıq Qoca dünya görmüş, iş bilən adam idi. Yararlı kişiləri yanına cəm elədi. Yarağı-ərzaqı ilə yola düşdü. Çox dağlar, dərələr aşdı, günlərin birində Düzmürd qalasına gəlib çıxdı. Qara dəniz kənarında idi, o qalanın bir Təkuru var idi. Adına Arşın oğlu Dirək Təkur deyərdilər. Onun altmış arşın qaməti var idi. Altmış batman* ağırlığında gürz** gəzdirərdi. Elə qatı, möhkəm yayı var idi ki, özündən başqa heç kəs çəkə bilməzdi.

Qazlıq qoca qalaya çatan kimi döyüşə başladı.

Arşın oğlu Dirək qaladan çölə çıxdı, meydana girdi: kimdir hərif, gəlsin! – dedi.

Qazlıq Qoca onu görən kimi qaraqoç atına mindi, yel kimi yetdi, yeləm kimi yapışdı, var gücü ilə onun başına bir qılınc endirdi, lakin zərrə qədər kəsmədi.

---

* B a t m a n – keçmişdə müxtəlif ağırlıqda (3-8 kiloqram) çəki vahidi

** G ü r z – keçmişdə silah növlərindən biri: toppuz, əmud



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Növbət Arşın oğlu Dirəyə çatdı. O altmış batman gürz ilə Qazlıq Qocaya elə bir təpməcə vurdu ki, dünya başına fırlandı. Ağzından, burnundan qan şorladı.

Arşın oğlu Dirək Qazlıq Qocanı qarmalayıb tutdu, götürüb qalaya saldı. Yoldaşları bunu görən kimi, qaçıb canlarını güclə qurtardılar.

Qazlıq Qoca düz on altı il Düzmürtd qalasında dustaq qaldı. Sonra, Əmən deyirlər Oğuz pəhləvanlarından bir kişi altı dəfə oraya hücum etdi qalanı ala bilmədi.

Qazlıq Qoca gedəndə arvadı hamilə idi. Sonra bir oğlancıq doğdu. On altı yaşına girdi, igid bir oğlan oldu. Atasını ölmüş bilirdi. Çünki yasaq eləmişdilər, onun dustaq olduğunu uşaq bilmirdi. Gizli saxlayırdılar. Oğlanın adı Yeynək idi.

Günlərin birində Yeynək yoldaşları ilə bir yerdə yeyib-içib əylənirdilər. Qaragünə oğlu Qarbudaq ilə sözləri çəp gəldi, gileyləşdilər. Bir-birilə sözləşdilər.

Qarabudaq dedi:

— Burada niyə laf vurub oturursan, gur-gur guruldayırsan. Belə ki qoçaqsansa, get atanı qurtar, on altı ildir Düzmürd qalasında dustaqdır.

Yeynək bu xəbəri eşidən kimi ürəyi yerindən oynadı, qara bağrı sarsıldı. Ayağa qalxdı, Bayandır Xanın hüzuruna gəldi. Baş endirib yer öpdü, söylədi, görəlim, xanım, nə söylədi:

Səhər-səhər durubsan,
Evlərini qurubsan.
Tovla-tovla qoç atlı,
Süfrəsi bol nemətli,
Qatar-qatar dəvəli,
Böyük elli-obalı,
Türküstanın dirəyi,
Elin ağli, ürəyi!
Qalmış igid arxası,
Sən ey xasların xası,
Xalqın şiri, aslanı,
Qaraçuqun qaplanı,
Miskinlərin ümidi,
İgidlərin igidi,
Mənə kömək ver, gedim,
Atamı xilas edim!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

— Mən atamı indiyə qədər ölmüş bilirdim. İndi bildim ki, o, sağdır, düşmən qalasında dustaqdır. Dövlətli başın üçün mənə qoşun ver, atam dustaq olan qalaya göndər.

Bayandır Xan buyurdu:

— İyirmi dörd sançaq bəyi gəlsin! – dedi.

Xəbər verdilər Oğuz qəhrəmanları yığışıb gəldilər.

Bayandır Xan dedi:

— Əvvəlcə dəmir qapı Dərbənddə bəy olan, qarğı cidasının ucunda ər böyürdən, döyüşə girdikdə «kimsən?» – deyib, sormayan Qıyan Səlcuq oğlu Dəli Dondər səninlə getsin!

— Ayqır gözlü suyunda at üzdürən, əlli yeddi qalanın kilidini alan, Əylik qoca oğlu Dönəbilməz Düləkvuran səninlə getsin.

— Qoşa bürcdən qıyan oxu yerə sarpmayan, Buğraçı oğlu Elalmış səninlə getsin.

— Üç kərə yağı görməsə qan ağlayan Doğsun oğlu Rüstəm səninlə getsin.

— Əjdahalar ağzından adam alan Dəlivuran səninlə getsin.

— «Yerin bir ucundan o biri ucuna yetəm» - deyən Soğan Sarı səninlə getsin.

Saymaqla qurtaran deyil Oğuz qəhrəmanları. Bayandır Xan iyirmi dörd tanınmış qəhrəmanı öz dəstələri ilə Yeynəyə yoldaş verdi, gedin, – dedi, – Uğurunuz açıq olsun!

Sabaha vədə qoydular. Hamı hazır yarağını görmək üçün evlərinə dağılışdı.

O gecəsi Yeynək yuxu gördü. Səhər durub yoldaşlarına danışdı, dedi:

— Yoldaşlarım, bilmirsiniz, gecə yuxuda nələr gördüm? Göz açıb tamam başqa bir dünya gördüm. Alp igidləri yanıma saldım. Ağ saqqallı Dədəm Qorquddan öyüd aldım. İrəlidə yatan qara dağları aşdım. Qabaqda görünən Qara dənizə yetdim. Ağacdan gəmi yondum, kömləyimi çıxarıb yelkən qurdum. İrəlidə yatan dənizi dəldim. Qabaqda görünən qara dağın bir yanında alnı-başı qabarıq bir kişi gördüm. Durub ayağa qalxdım. Qarğı dilli süngüm ilə o kişini sancmaq üçün döndüm, gözümün ucu ilə ona baxdım. Bir də görəm öz dayım Əmən imiş! Yaxınlaşıb salam verdim. Əvvəl tanımamışdım: – Oğuz qəhrəmanlarından kimsən? – dedim.

Göz qaldırıb üzümə baxdı:

— Oğul, Yeynək, hara gedirsən? – dedi.

Tanıdım, dedim:

— Düzmürd qalasına gedirəm, dayı, atamı xilas etmək üçün gedirəm.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Burada dayım söylədi, görün nə söylədi:
Yeddi igid nəsilimdə mən tək igid olmamışdı,
Yeddi bayırın qurduna bənzərdi igidlərim,
Yeddi bağla qurulurdu mənim yayım,
Biləyindən düm qızıl idi mənim oxum.

Yeddi qatla getdim o qalanı ala bilmədim, geri döndüm, bala, sən məndən qoçaqmı çıxacaqsan? Yeynək? Dön, geri qayıt.

Yeynək yuxusunda dayısına söyləmiş, görəlim, xanım, nə söyləmiş:

Qalxıb, dayı, sən yerindən duranda,
İgidləri səsləyib qıy vuranda,
Adı bəlli igidlərlə getmədin,
Ona görə qalanı fəth etmədin.
İndi, dayı, dönmərəm mən bu yoldan,
Ər ərdən üstündür, ağıl ağıldan.
Yolundan dönməsə kişi yaxşıdır.
Ağılla işləsə, işi yaxşıdır.

Yeynək bu yuxusunu nağıl edəndə dayısı da o yaxında idi. O da gəldi. İgidlərin dəstəsi yığışdı, sıralandı, yola düzəldi.

Aradan bir neçə gün keçmiş Düzmürd qalasına gəlib çatdılar. Dövrə qurub düşdülər. Qarovulçular Arşın oğlu Dirək təkura xəbər apardılar. O, eşidən kimi silahını taxıb qaladan çölə çıxdı. Meydana girib özünə müqabil istədi.

Qıyan Səlcuq oğlu Dəli Dondər irəli keçdi. Altmış tutam uzun cidasını qoltuğuna qısıb hərifi qarşıdan çalmaq istədi. Arşın oğlu Dirək qarmalayıb süngünü Dəli Dondərin əlindən aldı. Ona altmış batman gürzü ilə bir təpməcə vurdu ki, dünya gözündə qaraldı. Atını döndərdi, geri gəldi.

Dönəbilməz Düləkvuran irəli keçdi. Altı pərli çomağı ilə at təpdi, gəlib yuxarıdan aşağı təkura çaldı. Təkur qarmalayıb bunun da çomağını əlindən aldı. Gürzlə elə vurdu ki, bu da güclə qaçıb canını qurtardı.

Bu dəfə Qazlıq Qoca oğlu Yeynək qeyrətə gəlib özü meydana çıxdı. O, yaradan Allaha üz tutub onu öydu, kömək istədi, dedi:

Ucalardan ucasan,
Kimsə bilməz necəsən.
Sən atadan olmadın,
Anadan doğulmadın.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Kimsə rizgin yemədin,
Kimsəyə güc etmədin,
Hamı yerdə əhədsən,
Allahü səmədsən.
Adəmə sən tac vurdun,
Şeytana lənət qıldın,
Bir suçundan ötəri,
Bargahından sürdün.
Nəmrud göyə ox atdı,
Balığı qarşı tutdun.
Ululuqda həddin yox,
Sənin boyun, qəddin yox,
Və cisimlə cəddin yox.
Basdığın bəlirtməyən,
Vurduğun ulatmayan,
Kəsdigin qanatmayan,
Basdıgın sındırmayan,
Yaxdığın yandırmayan
Qadir Tanrı,
Götürdüyün göyə yetirən,
Qarğadığın qəhr edən Ulu tanrı.

Sənə sığındım, səndən mədəd, – dedi, atını mahmızladı, irəli atıldı, yel kimi yetdi, yeləm kimi yapışdı, təkurun çiyninə bir qılınc çaldı. Geyimini-kecimini doğradı. Altı barmaq dərinliyində qılınc onun bədəninə işlədi. Qara qanı şorladı, qoynu-qoltuğu qanla doldu. Qara başı büküldü, düşdü. Qayıdıb özünü güclə qalaya salmaq istədi. Yeynək at salıb, özünü daldan yetirdi. Lap qapının ağzında qara poladüz qılıncı ənsəsindən elə vurdu ki, Arşın oğlu Dirəyin başı top kimi diyirlənib yerə düşdü.

Ondan sonra Yeynək dönüb qoşunun içinə qayıtdı.

Düşmənlər Arşın oğlu Dirəyin həlak olduğunu görüb, Qazlıq Qocanı həbsdən çıxartdılar. Əlini-qolunu açıb boşladılar. O, Oğuz qəhrəmanlarının yanına çıxıb gəldi:
— Hey, igid, təkuru kim öldürdü? – deyib, söylədi, görəlim, xanım, nə söylədi:

Karvanımda ağ mayanı yüklü qoydum,
Nəyi oldu? Nərmi, mayamıdır, bilmədim,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ağa yəlda ağca qoyunu yüklü qoydum,
Qoç oldu, qoyun oldu, bilmədim.
Ala gözlü halalımı yüklü qoydum,
Oğlan doğdu, qızmı doğdu, bilmədim.
Bilmək istərəm, igidlər, deyin mənə.

Yeynək atasının qarşısına çıxdı. Burada söyləmiş, görəlim, xanım, nə söyləmiş:

Karvanının dəvəsini
Yüklü qoydun, nər oldu.
Ağa yəlda ağca qoyunu
Yüklü qoydun, qoç oldu.
Ala gözlü xatununu
Yüklü qoydun, aslan oldu, – dedi:

Yeynək atası ilə qucaqlaşıb görüşdü. Ondan qalan bütün igidlər hamısı gəlib Qazlıq qoca ilə görüşdülər. Bütün Oğuz atlıları yenidən düşmənə hücuma keçib yürüş etdilər, hasarı dağıdıb, qalanı aldılar, yəğmaladılar.

Yeynək atasını xilas etdi. Şeypur çalındı, tavullar vuruldu, qəhrəmanlar geriyə – Oğuza döndülər.

Məclis quruldu, süfrələr açıldı. Dədəm Qorqud məclisə gəldi, qopuzunu götürüb, soy söylədi, boy boyladı. Xeyir-dua verirəm xanım, bu Oğuznamə Yeynəyin olsun, – dedi:

— Yerli qara dağın yıxılmasın!
Kölgəlicə qaba ağacın kəsilməsin.
Ağsaqqallı atan yeri ucmaq olsun!
Ağbirçəkli anan yeri behişt olsun!
Tanrı səni axır günədək arı imandan ayırmasın.
Ağ alnında beş kəlmə dua qıldıq, qəbul olsun!
Günahımızı ulu Tanrı Məhəmməd Mustafanın
    üzü suyuna bağışlasın, xanım hey!

## BASATIN DASTANI



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bir gün Oğuz eli sakit oturduğu yerdə yağılar ölkəyə basqın etdi.

Elin sakit həyatı,
Onun toyu, büsatı,
Dava ilə pozuldu.
Alay yola düzüldü.
Atıldılar meydana
Vətənin igidləri.
Boyandı qızıl qana
Minlərlə xalq əsgəri!
Böyük bir savaş oldu,
Qılıncların səsindən
Və at kişnəməsindən
Dağlar lərzəyə gəldi,
Ahlar göyə yüksəldi!
Axır düşmən qovuldu,
Dava-dalaş sovuldu.
El köç edib gedərkən,
Bir uşaq düşdü qaldı.
Gecə şirlər, pələnglər,
Onu dövrəyə aldı.
Şir vurub pəncəsini
Onu yerdən götürdü.
Balasına yem üçün
Yuvasına gətirdi.
Bala şir görən kimi
Uşaqla pəncələşdi.
Uşaq da bərk dayanıb,
Bala şirlə güləşdi.
Bir-birinə üns edib,
Onlar oynaqlaşdılar.
Durub qarşı-qarşıya
Mayallaq da aşdılar.
Bunu görən ana şir,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Uşağa saldı mehir,
Oxşayıb verdi əmcək,
Uşaq böyüdü şir tək.
Aylar, illər ötüşdü.
Yenə bir gün el gəlib,
Əvvəlki yurda düşdü.
Bir axşam el çobanı,
Səslədi el-obanı:
Gəlin, gəlin, adamlar!
Yırtıcı var, vəhşi var!
Çobanı Qazan xanın yanına gətirdilər.
Qazan soruşdu: nə var? Söylə, nə olmuş çoban?
Çoban söylədi əlan:
Sən ey ellərin xanı,
Qaraçuqun qaplanı.
Qonur atın yiyəsi,
Elbaşı, el atası.
Qamışdan çıxdı bir şir,
Bədənim əsir tir-tir.
Özün ilxıya vurdu,
Bir dayın qanın sordu.
Görkəmindən aslandı,
Amma baxdım, insandı.

Çoban gördüklərini bir az da geniş şəkildə danışaraq dedi: Adam olduğunu ondan bildim ki, iki ayaqları üzərində yüyürüb, atların çiyninə tullanıb ön damarlarını sorurdu.

Aruz Qoca dedi:

— Əyə, bəlkə bu, köçdüyümüz vaxt mənim düşüb qalan oğlumdur?

İgidlər tez atlarına mindilər, aslanın yatağı üzərinə gəldilər. Aslanı qaldırıb qovdular, oğlanı tutdular. Aruz onu evinə gətirdi, şadlıq etdi, böyük qonaqlıq verdi. Amma oğlanı nə qədər gətirdilərsə,durmadı, geriyə aslan yatağına qaçdı. Yenə tutub gətirdilər, dayanmadı. Axırda elin ağ saqqalı Dədə Qorqudu çağırdılar. Dədə Qorqud gəldi, uşağa öyüd verərək dedi:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Oğlum! Sən insansan, heyvana qoşulma! Gəl cavanlarla otur-dur, igidlərlə dostluq elə, at min, ova çıx, böyük qardaşının adı Qıyandır, sənin adın Basat olsun! Adını mən verdim, yaşını Allah versin.

Bundan sonra Basat sakit oldu. Obanın cavanlarına qaynayıb-qarışdı.

Keçdi illər, fəsillər,
Böyüdükcə nəsillər.
Elin də dərdi artdı.
El bir yandan yaratdı,
Bir yandan sökdü yağı.
Doğma vətən torpağı
Nə görmədi həyatda?!
Böyümüşdü Basat da.
Məşhur olmuşdu eldə,
Xalq əzbər edib dildə
Adına and içərdi.
Günü daim keçərdi
Ovda, səfərdə düzdə.
İndi söhbəti biz də
Qoy açaq təzə sözdən,
Danışaq Təpəgözdən.
Başı bəlalıdır el,
Dərdli, qanadlıdır el,
Üstündən getməz qada,
Nə görməmiş dünyada?!
Obalar talan oldu.
Düşmənlər yalan oldu,
Təpəgözlü bir yağı
Kəsdi yolu-yolağı,
Yarıinsan övladı,
Adamları ovladı.
Anası cin-pəriydi,
Cinlərin dilbəriydi.
Bir gün eldən bir çoban



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Onu görüb nagəhan,
Sevib ona yar oldu,
Sonra gör nələr oldu:

El bir gün yaylağa köçdü. Aruzun bir çobanı vardı. Adına Sarı çoban deyərlərdi, köçün önüncə bundan əvvəl kimsə köçməzdi. Bu həmin çoban idi ki, doqquz ay əvvəl pəri qızı ilə sevişib-görüşmüşdü.

O, Uzun Pinar deyilən bir bulağa çatanda, qoyunları otlamağa buraxdı. Birdən qoyun hürkdü. Sən demə, yenə o bulağa pərilər gəlib qonmuş imiş.

Çobanı görən kimi qanad-qanada verib uçdular. Lap dalda uçan birisi çobanı səsləyib dedi:

— Çoban, əmanətini götür, apar!

Çoban tez qalxdı irəli getdi. Gördü ki, bir yığnaq şey düşüb, elə tərpəşir ki, baxanda adamın əti ürpəşir.

Çoban yamanca qorxdu, geri çəkildi, yığnağı sapand daşına tutdu. Vurduqca böyüdü. Çoban yığnağı qoydu qaçdı, qoyunun ardına düşdü.

Bu tərəfdən də Oğuz elinin hökmdarı Bayandır xan camaat ilə ova çıxmışdı. Bu bulağın üzərinə gəldilər. Gördülər ki, burada qəribə bir şey yatır, başı-ayağı bilinmir. Onu dövrəyə aldılar. Endi bir igid, bunu təpiyi ilə vurdu. Vurduqca yığnaq böyüdü! Bir neçə igid də atdan endilər. Təpiklə vurdular, vurduqca böyüdü. Aruz qoca da enib təpiyilə vurdu, mahmızı toxundu, yığnaq yarıldı, içindən bir oğlan çıxdı. Gövdəsi adam, təpəsində bir gözü var idi. Aruz aldı bu oğlanı ətəyinə bükdü, dedi:

— Xanım, bunu mənə verin! Oğlum Basatla bir yerdə bəsləyim.

Bayandır xan: — Sənin olsun, – dedi.

Aruz Təpəgözü aldı, evinə gətirdi. Buyurdu bir dayə gəldi, onu əmizidirmək istədi, döşünü ağzına verdi. Təpəgöz bir sordu – dayənin olanca südünü aldı, iki sordu – qanını aldı, üç sordu – yazığın canını aldı. Bir neçə dayə gətirdilər hamısını həlak etdi.

Gördülər olmaz, süd ilə bəsləyək, – dedilər. Gündə bir qazan süd yetməzdi.

Nəhayət, bir təhər bəslədilər, böyüdü, yüyürən, gəzən oldu, uşaqlarla oynayıb yaşa doldu. Küçədə oynarkən oğlan uşaqlarının kiminin burnunu, kiminin qulağını yeməyə başladı. Axırda xalq bunun əlindən cana gəldi. Aciz qaldılar. Aruza şikayət edib, ağladılar.

Aruz Təpəgözü döydü, söydü, yasaq elədi, olmadı. Axırda evindən qovdu.

Sən demə, anası olan Pəri qızı Təpəgözdən xəbər tutub, qayğısına qalırmış. Aruz



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qoca onu qovduqdan sonra anası gəlib Təpəgözün barmağına bir üzük keçirdi: «Oğul, sənə ox batmasın, bədənini qılınc kəsməsin!» – dedi.

Təpəgöz Oğuzdan çıxdı, uca bir dağa getdi, «Sallaxana qayası» deyilən yeri özünə məskən elədi. Yol kəsdi, adam öldürdü, böyük hərami oldu. Üzərinə bir neçə adam göndərdilər, ox atdılar, batmadı, qılınc vurdular, kəsmədi. Süngü ilə sancdılar, kar eləmədi. Çoban-çoluq qalmadı, hamısını yedi, oturaq camaatdan da yeməyə başladı.

Xalq yığılıb onun üzərinə hücum elədi. Təpəgöz bunları görüb qalxdı, bir köklü ağacı yerindən qoparıb atdı. Pəhləvanlar başçısı Qazanı elə vurdu, dünya gözünə dar oldu. Qazanın qardaşı Qanagünə Təpəgözün əlindən güclə qurtardı. Dözən oğlu Rüstəm, Uşun Qoca oğlu kimi igid və iraq candan, iki qardaşı Təpəgözün əlində can verdi. Bığı qanlı Bəgdüzü Təpəgöz lap əldən saldı. Ağ saqqallı Aruz Qocaya qan qusdurdu, oğlu Qıyanın ödü yarıldı, həlak oldu.

Camaat Təpəgözə bata bilmədi, köçüb, qaçdı. Təpəgöz onların qarşısını kəsib buraxmadı, geri, öz yerlərinə oturtdu. Xülasə, Oğuz eli yeddi kərə qaçmaq istədi, Təpəgöz önün alıb yeddi kərə onları yerlərinə gətirdi. Xalq Təpəgöz əlindən tamam zara gəldi. Getdilər, elin ağsaqqalı Dədə Qorqudu çağırdılar, onunla danışdılar: «gəlin kəsmət kəsək» – dedilər, Təpəgözün yanına göndərdilər.

O gəldi, salam verdi, dedi:

— Oğul, Təpəgöz! Xalq ayağına məni minnətçi göndərib, sənə kəsmət verək, deyirlər.

Təpəgöz dedi:

— Gündə altmış adam verin.

Dədə Qorqud:

— Bu hesabla sən adam qoymazsan,– dedi. Amma gündə iki adam, beş yüz qoyun verək.

Dədə Qorqud belə decək Təpəgöz:

— Yaxşı, qoy elə olsun! Amma mənə iki adam da verin, yeməyimi bişirsin! – dedi.

Dədə Qorqud döndü, Oğuza gəldi: «Yunlu qoca ilə Yapıqlı qocanı Təpəgözə verin, yeməyini bişirsin, – dedi. Həm də gündə iki adamla beş yüz qoyun istədi».

Camaat razı oldu. Dörd oğlu olan birini verdi, üçü qaldı. Üç oğlu olan birini verdi, ikisi qaldı. İki oğlu olan birini verdi, biri qaldı.

Qapıqqan deyərdilər, bir kişi var idi, iki oğlu var idi. Birini vermiş, biri qalmış idi. Yenə növbət dolanıb ona gəlmişdi. Anası fəryad edib ağladı.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu vaxt eşitdi ki, Aruz oğlu Basat davaya getmiş imiş, qayıdıb gəlir. Qarı öz-özünə düşündü: «Gedim Basata deyim, mənə bir əsir versin, oğlumu qurtarım».

Basat öz dətəsilə yeyib-içib oturarkən, gördülər ki, bir arvad gəlir. O, içəri girdi, Basata salam verdi, ağladı:

Təkə buynuzundan sərt yaylı!
El, obada adı bəlli!
Aruz oğlu xan Basat!
Mənə mədəd!

Basat dedi:

— Nə istəyirsən?

Qarı dedi:

— Dünya üzündə bir yağı peyda oldu. Oğuz elini tərpənməyə qoymadı. Qara polad qılınclar onun tükünü də kəsmədilər. Pəhləvanlar başçısı Qazana ağır zərbə vurdu. Ağ saqqallı atan Aruza qan qusdurdu. Meydan üzündə qardaşın Qıyanın ödü partladı, can verdi. Bütün Oğuz igidlərinin kimini yarımcan edib, kimini həlak elədi. Dörd oğlu olan birini verdi, üç oğlu olan birini verdi, iki oğlu olan birini. İki oğlum vardı, birini verdim, biri qaldı. Dolandı növbət yenə mənə gəldi, onu da istəyirlər igid! Mənə mədəd!

Qarının sözlərini eşidən kimi Basatın qara gözləri yaşla doldu. Qardaşı üçün söyləmiş, görəlim, xanım, nə söyləmiş:

Qıraq yerdə tikilmiş
Otaqların o zalım
Yıxdırdı yoxsa, qardaş!
Yüyrək olan atların,
Tovlasından o zalım
Qaçırtdı yoxsa, qardaş!
Qızmış dəvələrini,
Qatarından o zalım
Ayırdı yoxsa, qardaş!
Şulənində qırdığın
Qoyununu o zalım
Qırdırdı yoxsa, qardaş!
Ağ saqqallı atamı,
Oğul deyib o zalım



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ağlatdı yoxsa qardaş!
Ağca üzlü anamı,
Oğul deyib o zalım
Sızlatdı yoxsa, qardaş!
Qarşı yatan qara dağımın yüksəyi qardaş!
Axıntılı gözəl suyumun daşqını qardaş!
Güclü belimin qüvvəti, qara gözlərimin işığı qardaş!

«Qardaşımdan ayrıldım» – deyib, ah çəkdi, Təpəgözdən intiqam almağa and içdi.

O, qarını arxayın yola saldı. Qarı Basatgilin evinə getdi. «Oğlun gəldi», – deyib, Aruzu muştuluqladı.

İgidlər Basatı qarşılamağa çıxdı. Basat atasının əlini öpdü, görüşdülər. Anası ona qarşı gəlib oğlunu qucaqladı. Basat anasının əlini öpdü.

Camaat yığışıb gəldi. Basat dedi:

— İgidlər, Təpəgöz ilə vuruşmağa gedirəm, nə buyurursunuz?

Qazan bəy burada söyləmiş, görəlim, xanım nə söyləmiş:

Bir qara tufan kimi qopdu Təpəgöz, Basat!
Göy üzündə çevirdim, ala bilmədim, Basat!
Bir qara qaplan oldu, qapdı eli Təpəgöz,
Dağa, meşəyə girdim , ala bilmədim, Basat!
Bir qızmış aslan oldu, təpəgözlü Təpəgöz,
Qamışlıqda qovladım, ala bilmədim, Basat!
Nə qədər qoçaq olsan, məncə olmazsan, Basat!
Ağ saqqallı atanı ağlatmagilən! Basat!
Ağ birçəkli ananı sızlatmagilən! Basat!

Basat dedi:

Sən ey ellərin xanı,
Qaraçuqun qaplanı,
Qonur atın yiyəsi,
Gənc Uruzun atası,
Miskinlərin ümidi!
Dura bilimrəm, indi
Getməliyəm, gedəcəm!
Vəhşini məhv edəcəm!

Qazan dedi:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

– Özün bilərsən!

Atası ağladı, dedi:

— Oğul, ocağımı yiyəsiz qoyma! Kərəm elə, getmə!

Basat dedi:

— Yox, ağ saqqallı ata, gedəcəyəm.

Qulaq asmadı.

Ox qabından bir dəstə ox çıxardı, qurşağına sancdı. Qılıncını həmayil edib qurşandı, yayını qoluna keçirdi.

Atasının, anasının əlini öpdü, halallaşdı:

— Salamat qalın! – dedi, – yola düşdü.

Basat Təpəgözün olduğu Sallaxxana qayasına gəldi. Gördü Təpəgöz arxası günə yatır. Çəkdi belindən bir ox çıxardı, Təpəgözün bağrına bir ox vurdu. Ox keçmədi, paralandı. Birini də atdı, o da para-para oldu.

Təpəgöz qocalara dedi:

— Əyə, bu yerin milçəyi adamı dincəlməyə qoymur ki!

Basat birini də atdı, o da paralandı. Bir parçası Təpəgözün önünə düşdü.Təpəgöz sıçradı, baxdı, Basatı gördü, əlini əlinə çaldı, qah-qah güldü, qocalara:

— Oğuzdan yenə bizə, bir körpə quzu gəldi, – dedi, Basatı önünə qatdı, tutdu, boğazından yapışıb sallaya-sallaya yatağına apardı, onu çəkməsinin küncünə tulladı.

Qocalara:

— Əyə, qocalar! Günortam üçün bunu hazırlayın, – deyib, yenə yatdı.

Basat elə bil dərin quyuya düşdü. Yaxşı ki, yanında xəncəri varmış, çəkməni yardı, içindən çıxdı.

Dedi:

— Əyə, qocalar, bunun ölümü nədədir?

Dedilər:

— Bilmirik, amma gözündən qeyri yerdə ət yoxdur.

Basat Təpəgözün baş ucuna gəldi, göz qapağını qaldırdı, baxdı, gördü ki, gözü ətdir. Dedi:

— Əyə, qocalar, şişi ocağa qoyun, qızarsın

Şişi ocağa qoydular, qızardı.

Basat şişi götürdü, Təpəgözün gözünə elə basdı ki, gözü o saat töküldü. Onun naləsindən dağ-daş lərzəyə gəldi.

Basat sıçradı qoyunların içinə, mağaraya düşdü. Təpəgöz bildi ki, Basat



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

mağaradadır. Mağaranın qapısını kəsib, bir ayağını qapının bir yanına, o birini də o bir yanına qoydu, dedi:

— Əyə, qoyun, erkəc!

Bir-bir gəl, keç!

Qoyunlar bir-bir gəlib keçdi, hər birinin başını sığadı:

Toğlucuqlar başçısı sığal qoç, gəl keç! – dedi. Bir qoç yerindən qalxdı, gərnəşib dartındı. O dəm Basat qoçu basıb boğazladı, dərisini üzdü, quyruğu ilə başını dəridən ayırmadı, içinə girdi, Təpəgözün önünə gəldi.

Təpəgöz bildi ki, Basat dərinin içindədir. Dedi:

— Ey sığal qoç! Mənim nə yerdən həlak olacağımı bildin. İndi elə çalım səni mağara divarına ki, quyruğun mağaranı yağlasın.

Basat qoçun başını Təpəgözün əlinə verdi. Təpəgöz buynuzundan bərk tutdu, qaldırcaq buynuz əlində qaldı. Basat Təpəgözün budu arasından sıçrayıb çıxdı. Təpəgöz götürüb buynuzu yerə çaldı.

Dedi: – Oğlan, qurtuldun?

Basat dedi: – Tanrım qurtardı.

Təpəgöz dedi: – Əyə, oğlan, al bu barmağımdakı üzüyü barmağına tax, sənə ox və qılınc kar eləməsin!

Basat aldı, üzüyü barmağına keçirdi.

Təpəgöz soruşdu: – Oğlan, üzüyü alıb taxdınmı?

Basat dedi: – Taxdım.

Təpəgöz qəfil Basatın üzərinə atıldı, xəncər ilə çaldı.

Basat sıçradı, kənarda durdu. Gördü ki, üzük barmağından çıxıb Təpəgözün ayağı altına düşübdür.

Təpəgöz dedi:

— Əyə, qurtuldun?

Basat dedi: – Tanrım qurtardı.

Təpəgöz dedi: – Oğlan, o günbəzi görürsənmi?

Görürəm.

Təpəgöz dedi:

— Mənim orada xəzinəm var. O qocalar almamış, get möhürlə.

Basat günbəzin içinə girdi, gördü ki, qızıl gümüşlə doludur, özünü unutdu.

Təpəgöz günbəzin qarşısını kəsdi, soruşdu:

— Günbəzə girdinmi?



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Basat dedi: — Girdim.
— İndi elə çalım ki, günbəzlə birlikdə parça-parça olasan!
Basat hərlənib günbəzin o biri tərəfindən bacadan bayıra çıxdı.
Təpəgöz bunu bilmədi, o, əlini günbəzə elə ilişdirdi ki, divar lay-lay olub yerə töküldü. Soruşdu:
— Oğlan, qurtuldunmu?
Basat dedi: Tanrım qurtardı.
Təpgöz dedi:
— O mağaranı görürsənmi?
— Görürəm.
— Orada iki qılınc var, biri qınlı, biri qınsız.
Mənim başımı o qınsız qılınc kəsməlidir. Get gətir, mənim başımı kəs!
Basat mağara qapısına getdi. Gördü bir qınsız qılınc durmadan enir-qalxır.
Basat:
— Mən buna birdən yapışmayım, – deyib, qılıncını çıxarıb irəli tutdu. Qılıncı iki parça böləndü.
Getdi bir ağac gətirdi, qılınca tutdu. Onu da iki para elədi. Sonra yayını əlinə aldı, oxla o qılınc asılan zənciri vurdu. Qılınc düşdü, yerə sancıldı. Öz qılıncını qınına qoydu. O, qılıncın qolçağından bərk tutub gəldi, dedi:
— Əyə, Təpəgöz! İndi necəsən?
Təpəgöz heyrətlə soruşdu:
Əyə, oğlan bəs ölmədin?
Basat: — Tanrım qurtardı – dedi.
Təpəgöz:
— Demək sənə ölüm yox imiş,– dedi və özünün nəhayət həlak olacağını hiss etdi.
Burada söylədi, görəlim, xanım, nə söylədi:
Gözüm, gözüm, yalnız gözüm!
Sən yalnız gözlə mən Oğuz elini sındırmışdım,
Ala gözdən ayırdı bu igid məni!
Elə ki mən çəkərəm göz yükünü,
Heç igid görməsin bu günü!
O, Basata yalvarıb dedi:
— İndi, qardaş, qıyma mənə!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Basat dedi:
— Əyə, sarsaq, ağ saqqallı atamı ağlatmışsan.
Qarıcıq ağbirçəkli anamı sızlatmışsan,
Qardaşım Qıyanı öldürmüşsən.
Sən ey vəhşi Təpəgöz!
Sənə kar etməmiş söz,
İndi qılınc kar edər,
Anan ahü-zar edər.
Görər bala dağını!
Sən elin növrağını
Necə pozmuşsan, bilər.
O, ağlar, xalqım gülər!
Qoyarammı mən səni
Qılıncım dartmayınca
O eybəcər kəlləni
Üzüb qopartmayınca?!

Bunu deyib, Basat yerindən qalxıb irəli gəldi.

Təpəgözü dizi üstə çökdürdü. Onun öz qılıncı ilə boynunu vurdu, kəlləsini dəldi, yay girişinə taxdı, sürüyə-sürüyə mağara qapısına gətirdi.

Yunlu qoca ilə Yapıqlı Qocanı Oğuza muştuluqçu göndərdi. Bütün Oğuz ellərinə xəbər çatdı.

Aruz qocanın evinə şad xəbər gəldi:

— Muştuluğumu ver, oğlun Təpəgözü öldürdü,– deyib gözaydınlığı verdilər.

Bütün Oğuz camaatı yığışıb Sallaxana qayasına getdi. Təpəgözün başını oraya gətirdilər, təpikləyib top kimi vurub, atdılar.

Xalq böyük bayram şənliyi qurdu.

Elin ağsaqqalı Dədə Qoqud məclisə gəldi. Qopuz çaldı, öyüdlər verdi, böyük qəhrəmanların başına nələr gəldiyindən danışıb, alqışlar söylədi:

Bu dastanı düzüb qoşdu. Basata xeyir-dua verdi:
— Allah sənə dar keçiddə keçid versin!
Qanlı-qanlı sulardan keçid versin!
Ərliklə qardaşının qanın aldın,
Qalın Oğuz bəylərin yükdən qurtarsın.
Qadir Allah üzünü ağ eləsin Basat!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sonra dinləyən xana xeyir-dua verdi:
Ölüm vaxtı gəldikdə Allah səni,
Arı imandan ayırmasın!
Günahımızı adı görklü
Məhəmməd Mustafaya bağışlasın – xanım, hey!
Dədə Qorqud davam etdi:
Xalq yolunda canını qoyan qəhrəmanlar heç vaxt ölməz!
İgidlik təkcə zorla bitmir, ağıl, tədbir də lazımdır!
Basat kimi o tədbirli qəhrəmana min eşq olsun!
Təpəgözü öldürdü, xalqını müsibətdən xilas etdi, nakam ölən igidlərin qanını aldı.
Belə igidlərin üzü ağ olsun, uca dağlara yetəndə yolu açıq olsun!
Qanlı-qanlı sulardan keçəndə sağ-salamat keçsin.
Qoy bu dastan Basatın olsun! – dedi.
Qoy sevinsin el-oba,
Basat, sənə mərhəba!
Qoy bilsin ki, yağılar
Elimin qüdrəti var.
Qoruyur bu vətəni,
Qoymaz ona əl vura
Azğın yağı düşməni.
O nə qədər bəd olsa,
Səbir kasamız dolsa,
Partladarıq başında,
Torpağında, daşında.
Bu elin, odlar yaşar,
Ölməz Basatlar yaşar!

**İMRANIN DASTANI**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qamğan oğlu xan Bayandır yerindən durmuşdu. Agban evini qara yer üzərində tikmişdi. Ala seyvanı göy üzərinə ucalmışdı. Min yerdə ipək xalçalar döşənmiş, İç Oğuz, Daş Oğuz bəyləri böyük məclisə toplaşmışdı.

Doqquztümən Gürcüstan hər il Oğuz dövlətinə qiymətli şeylərdən ibarət xərac verərdi. Söhbətin şirin yerində adam gəldi, Gürcüstan hakimi Qara Təkurdan bir at, bir qılınc və bir çomaq gətirdilər. Bu, o demək idi ki: «Mən sənə tabe olmuram, əgər vuruşmaq istəyirsən, mən hazır, at belində qılınclamı, çomaqlamı buyur meydana».

Bayandır xan bu işdən çox pərt oldu.

Dədə Qorqud dedi:

— Xanım, nə üçün pərt olursan?

Dedi:

— Necə pərt olmayım ki, hər il qızıl-gümüş göndərərdilər, igidlərə paylardım, könülləri xoş olurdu. İndii bunu kimə verim ki, xatiri xoş ola?

Dədə Qorqud dedi:

— Bunun üçünü də bir igidə ver, öz adamlarını da götürüb, getsin sərhəddə dayansın, Oğuz elinə qarovul olsun.

Bayandır xan:

— Kimə verim? – dedi, sağına-soluna baxdı, heç kəs razılıq vermədi. Bəkil adında bir igid vardı, ona baxdı, dedi:

— Sən nə deyirsən?

Bəkil razı oldu. Qalxdı, yer öpdü. Dədə Qorqud durdu, özü qılıncı onun belinə bağladı, çomağı omuzuna buraxdı, yayı qoluna keçirdi, şahbaz atını çəkdirib ata mindirdi, xeyir-dua verdi:

— Get, uğurun xeyir olsun! Vətənin keşiyində dur, məmləkəti qoru, heç bir yağını yurdumuza buraxma! – dedi.

Bəkil özünün bütün qohum-əqrəbasını ayırdı, evini-çadırını köçürdü Bərdəyə, Gəncəyə və oradan Gürcüstan ağzına varıb sərhəddə dayandı, düşdü, ölkənin keşiyini çəkməyə başladı. Əgər bir quldur gəlib sərhədi keçmək istəsəydi, tutub başını kəsib Oğuza ərməğan göndərərdi. İldə bir kərə isə Bayandır xanın divanına gələrdi.

Yenə bir gün Bayandır xan adam göndərdi Bəkili çağırtdırdı: tez yanıma gəlsin, – dedi.

Bəkil bir dəstə igidlə atlandı, hədiyyələr, peşkəşlər götürüb, Bayandır xanın görüşünə gəldi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bayandır xan da Bəkili layiqincə qonaq edib, yaxşı at, yaxşı geyim və qiymətli xərcliklər verdi. Üç gün tamam yeyib-içib əyləndilər.

— Üç gün də Bəkili ova, şikara qonaq edək, –deyə Bayandır xan igidlərə müraciət etdi. Hamı durdu, ov yarağını götürüb hazırlaşmağa başladı. Kimi atını öyər, kimi qılıncını, kimi yay çəkib ox atmağını öyərdi. Amma Salur Qazan nə atını öydü, nə özünü, ancaq igidlərin hünərindən danışdı.

Üç yüz altmış atlı alp igid atlanıb ova getsə, xınalı keyik üzərinə yürüş olsa, Bəkil nə yay qurardı, nə ox atardı, yayını yeləyindən çıxarardı, keyikiin, ceyranın boynuna atardı, çəkib dayandırardı. Diri tutub əli ilə yoxlayardı. Arıq olsa bəlli olsun deyə, qulağını dəlib buraxardı, kök olsa başını kəsərdi. Əgər başqa birisi keyik, ceyran ovlasa, qulağı dəlik olsa, «Bəkil suncudur», – deyə, ona göndərərdi.

Bəkilin bu məharətini hərə bir cür qiymətləndirərdi.

Qazan bəy dedi:

— Bu hünər atındır, yoxsa kişinindir?

Dedilər:

— Əlbəttə kişinindir.

Bayandır xan dedi:

— Yox, at işləməsə, kişi öyünə bilməz.

Bu söz Bəkilə xoş gəlmədi:

— Bizi alplar içərisində qurşağımızadək palçığa batırdın, – dedi. Bayandır xanın bəxşişini onun önünə tökdü, küsdü xanın divanından çıxdı. Ala gözlü igidlərini yanına alıb evinə qayıtdı.

Oğlancıqları Bəkilin qarşısına gəldi, onları oxşamadı, ağ üzlü arvadını gördü, dindirmədi.

Arvadı burada söyləmiş, görəlim xanım nə söyləmiş:

Ey başımın ağası,
Al duvağım yiyəsi-
Göz açıban gördüyüm,
Könül verib sevdiyim!
Qalxıb yerindən durdun,
İgidlərə qıy vurdun!
Atlanıb yola düşdün,
O Ala dağdan aşdın,
Qonaq getdin divana



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ulu Bayandır xana.
Söylə, məni inandır,
Xanlar xanı Bayandır
Sənə pis baxdı yoxsa?
Xatirinə dəydi? Ya,
Qohum qohumla oldu,
Dedi, danışdı, güldü,
Sənsə tökdün göz yaşın!
Tək qaldı qərib başın?!
Döndün başı aşağı,
Dindirmirsən uşağı!
Niyə ağzı bağlısan?
Nədən qaşqabaqlısan?

Bəkil cavabında söylədi:

Bəli, gözəlim, durdum,
İgidlərə qıy vurdum,
Atlanıb yola düşdüm.
O Ala dağdan aşdım.
Vardım Bayandır xana,
Söz dedi, doydum cana!
Qonaqlıq əla idi,
Qohum qohumla idi.
Xan məni təhqir etdi,
Acı sözlə incitdi.
Əlindən gəlib cana
Köçürəm Gürcüstana!

Arvad dedi:

İgidim, bəyim Bəkil,
Bu cür fikirdən çəkil.
Şah Tanrı kölgəsidir,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Kim ki, ona asidir
Onun işi düz olmaz.
Könüldə olsa bir pas,
O pası açar şərab,
Özünə təsəlli tap.
Sən gedəli dağların,
Meşələrin bağların,
Ovlanmamış, ovu çox,
İgidlərlə ova çıx.
Ov et könlün açılsın.
Qəlbinə nur saçılsın!
«Əzizim, kətən yaxşı,
Geyməyə kətən yaxşı,
Gəzməyə qərib ölkə,
Ölməyə, vətən yaxşı».
Getmə doğma vətəndən.
Axı keşikçisən sən!

Bəkil gördü arvadı ağıllı məsləhət verir. Atını çəkdirdi, mindi, oxunu-yayını taxdı, igidlərini yanına aldı, Ala dağa ova çıxdı.

Ov ovlayıb gəzərkən, birdən Bəkilin önündən bir yaralı keyik buğası keçdi. Bəkil onun ardından at salıb qovdu, yetişib yay kirişini boynuna atdı. Acıqmış buğa sıçrayıb özünü uca bir qayadan atdı. Bəkil atın cilovunu yığa bilməyib daşın üstünə yıxıldı. Sağ ombası qayaya toxunub əzildi.

Bəkil ayağa durdu, ağladı: — Böyük oğlum, qardaşım yox, ölsəm yurdumu kim qoruyacaq? – dedi, – qəhərləndi. O, özünü bir təhər ələ aldı, yanındakı qarmaq ilə atının tərkini tutub burdu, ayağını qaftanının altından ata sarıdı, bütün gücünü toplayıb atının belinə qalxdı.

Bəkil çapıb ov dalınca gedərkən yoldaşlarından uzaqlaşıb ayrılmışdı. Odur ki, onların da Bəkildən xəbəri yox idi. Atı öz yerişilə onu obasının ucuna gətirdi. Elə burada oğlancığı İmran bahadır, atasının qarşısına çıxdı. Gördü ki, atasının bənizi saralmış, baş dolağı boğazına keçib, yəhərin qaşına döşənmiş şəkildə atın belində güclə dayanmışdı. Oğlan atasının halını, yoldaşlarını soruşaraq söyləmiş, görək nə söyləmiş:

Əzizim, canım ata,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Xanım, sultanım ata!
İgidlərlə yığışdın,
Sən erkən yola düşdün.
Ala dağı xoşladın,
Ov etdin, quş quşladın!
Düşmənə uğradınmı?
Qaplana uğradınmı?
Nə tutmusan ombanı,
Yoldaşların bəs hanı?

Bəkil oğluna cavab verdi:

Oğul, mən səhər durdum,
Qara dağlara vardım.
Ala dağı xoşladım,
Ov etdim, quş quşladım.
Bir keyikə tuş oldum.
Atı dalınca saldım.
At məni aldı qaçdı,
Sümüklərim çaxnaşdı.
Üç gündür nəsə olmuş,
Halım yaman pozulmuş,
İndii bir az babatdır,
Hamı sağ-salamatdır.

— Oğul, məni atın üzərindən ehmallıca al, apar döşəyimə qoy, – dedi.

Aslan əniyi yenə aslandır! İmran atasını at üzərindən qıvradı götürdü, apardı döşəyinə qoydu, cübbəsini çıxarıb üstünə bürüdü, otağının qapısını örtdü.

O tərəfdən də Bəkilin yoldaşları gördülər ki, ov pozulmuş, hərə dağılışıb evli evinə getdi.

Bəkil beş gün yatdı, evdən çıxmadı, ombası əzildiyini heç kimə demədi. Bir gecə döşəyində acı-acı inləyib, ufuldayarkən arvadı dedi:

— Bəy igidim! Dəstə ilə yağı gəlsə, qayıtmazdın. Buduna iri ox dəysə, əyilməzdin. Kişi, qoynunda yatan həyat yoldaşına sirrini deməzmi? Dərdin nədir?

Bəkili dedi:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

— Gözəlim, atdan yıxılmışam, ombam sınıbdır.

Səhər arvad əlini-əlinə vurub qaravaşa dedi. Qaravaş çıxıb qapıçıya söylədi. Otuz iki dişdən çıxan bütün elə yayıldı: «Bəkil atdın yıxılmış, ombası sınmışdır!».

Şukili Məliyin casusu var idi, tez aparıb ona xəbər verdi, nə oturmusan? – dedi. — Bəkil atdan yıxılıb, ombası sınıbdır. Neçə gündür ki, evdən çölə çıxmır. Sərhəd başsızdır.

Təkur adamlarına:

— Tez yerinizdən durun, Bəkili yatdığı yerdə tutun, ağ əllərini qarusundan bağlayın, qəfillicə başını kəsin! Alca qanını yer yzərinə tökün! Elini-gününü çapın, qızını-gəlinini yesir edib gətirin,-dedi.

Bunlar gəlməkdə olsun, Bəkilin də də onların içində adamı var idi. Tez adam göndərdi:

— Başınıza çarə qılın, hazırlaşın, üstünüzə yağı gəlir,  – dedi.

Bəkil yaman hala duşdu. Aşağı baxdı, yuxarı baxdı. Öz-özünə düşündü: «Göy iraq, yer qatı», indii mən nə edim?!

Oğlancığını yanına çağırdı. Söyləmiş, görəlim, xanım, nə söyləmiş:

Oğul, ey ömrümün bahar müjdəsi!
Qaranlıq gözümün nuru-didəsi!
Bu güclü belimin qüvvəti oğul!
Evimin, bəxtimin zinəti oğul!
Açıq deyim, oğul, gör nələr oldu,
Ova getdiyim vaxt halım pozuldu,
Yaralı bir keyik açdı qol-qanad,
Qovarkən büdrədi bu çər dəymiş at.
Yıxıldım, sınıbdır qılçım ombadan,
Bundan xəbər tutub o qarı düşman.
Qara təkur ilə Şukili Məlik.
Deyiblər fürsətdir, hücum eylərik,
Çaparıq Bəkilin bütün elini,
Əsir aparırıq qızı, gəlini.
Yağı hücum edir, pis vaxtda, gəlir,
Oğul, görməliyik tezliklə tədbir.
Dur qazlıq atını çəkib hazırlaş,
Düz sür İç Oğuza yubanma, bir baş!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əvvəl salam söylə Bayandır xana,
Sonra da çatdır ki, Salur Qazana:
«Canım qorxudadır, durmasın gəlsin!
Yağı basqın edir, qoy hamı bilsin.
Özünü yetirsin tez hələlbət,
Gəlməsə pozulub, batar məmləkət.
Yetsin ki, yamandır de halım mənim,
Əsir gedəcəkdir, qızım-gəlinim».

Yenicə on beş yaşına girmiş İmran qeyrətə gəldi. Atasına söyləmiş, görəlim, xanım, nə söyləmiş:

Ata, nə deyirsən? Nə söyləyirsən!
Öz cavan oğlunu pərt eyləyirsən!
Öpmərəm əlini, kimdir ki, Qazan!
Gəlsin, qoy nə qədər gəlirsə düşman!
Mən özüm gedəcəm meydana bu yol,
Qovaram yağını, ata, əmin ol!
Əyni bərk donunu ver mənə, ata!
Gen yaxa döydürüm səninçün bu gün!
Polad qılıncını belimə bağla,
Baş kəsim, qan töküm, səninçün bu gün!
Qarğı süngünü ver əlimə alım,
Gorbud gövdələri atından salım!
Ötkün ağ yeləkli oxunu versən,
Ərdən ərə vurub keçirərəm mən.
Bir də say cidalı düz üç yüz əsgər,
Düşməndən qoymaram qala bir nəfər.

Bəkil dedi:

— Ölüm ağzın üçün, oğul! Mənim cavanlığımı yadıma saldın, keçmiş günlərimi andırmayasan!

— Əyə, gətirin mənim paltarlarımı oğlum geysin. Al ayqırımı gətirin, oğlum minsin. El tərpənməmiş oğlum meydana varsın, döyüşə girsrin.

Oğlanı geyindirdilər. Bəkilin oxunu-yayını qoluna keçirdi, qılıncını əlinə aldı, uzun



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

cidasını götürüb, qalxanını, qalpağını taxdı.

Ata-anasının əlinə öpüb, üç yüz igidlə İmran meydana at təpdi.

Kəhər at nə vaxt yağı qoxunu alsa, ayağını yerə döyərdi, tozu göyə çıxarardı. Qarşıdan gələn yağılar dəstə bağlayıb, dayandılar, dedilər:

— Bu at Bəkliindir, gəlin qaçağın!

Təkur dedi:

— Əyə, yaxşı baxın. Bu gələn Bəkildirsə, sizdən qabaq mən özüm qaçaram.

Gözçülər baxdılar, gördülər ki, at Bəkilindir, amma üstündəki Bəkil deyil. Bu, quş kimi qıvraq bir oğlandır.

Təkura gəlib xəbər verdilər:

— At, yaraq və dəmir geyim Bəkilindir, ancaq atın belindəki Bəkil deyildir.

Təkur dedi:

— Yüz adam seçilsin, taraqqa çatladın, oğlanı qorxudun! Oğlan quşürəkli olur, meydanı qoyub qaçar.

Yüz yağı seçilib, oğlanın üzərinə gəldilər. Onlar İmrana söyləmiş, görək nə söyləmiş:

Oğlan, oğlan, ay oğlan,
Atı arıq zay oğlan!
Qılıncı gödək oğlan!
Süngüsü dəyənək oğlan!
Oxları seyrək oğlan,
A qorxaq, öddək oğlan!
Yoldaşları lüt oğlan,
Cəmisi bir cüt, oğlan!
Şukili Məlik demiş,
Hökm edib, əmr eyləmiş,
Səni gərək öldürək,
Gücümüzü bildirək!
Yalnız igid alp olmaz,
Yovşan dibi bərk olmaz!
Ağ saqqallı atanı,
Ağ birçəkli ananı,
Ağladıb sızlatma gəl,
Təslim olub sülhə gəl!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İmran Təkurun sözündən qəzəblənib cavabında söyləmiş, görəlim xanım, nə söyləmiş:

Baxın, uşaq sanıb Bəkil oğlunu
Hərzə-hərzə hürər yağı, bəyənməz!
Altımda oynayan kəhər atımı,
Əynimdəki yar-yarağı bəyənməz.

Qılıncım atlını atından salar,
Qarğı dilli cidam ilan tək çalar.
Yaydan çıxan oxum qıjıllar, ular,
Düz dəyər, sol ilə sağı bəyənməz!

Sadağında oxum kişini dələr,
İgidlər darıxar, vuruşmaq dilər.
Qorxaqlar meydanda küy-kələk gələr,
Mərd igid hədəni, lağı bəyənməz!

Təkur İmrana istehza edərək dedi:
— Oğuzun arsızı türkmənin dəlisinə bənzər! Buna baxın a! Bir qırıq uşaq, gör nə ötkəm danışır?!
Sonra Təkur adamlarına dedi:
— Əyə, bir ondan soruşun görək Bəkilin nəyidir?
Onlar soruşdular:
Mindiyin at – tanıyırıq –
Bəkilindir, Bəkil hanı?
Qılıncını tanıyırıq,
Bəkilindir, Bəkil hanı?
İgidləri tanımışıq,
Bəkilindir, Bəkil hanı?
Burdasa çıxsın cəng edək,
Meydanı ona təng edək.
Oxlar ataq, qılınc çalaq,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Başlar kəsək qalaq-qalaq!
Sən bir uşaq, söylə kimsən,
Bəkilin nəyisən de sən?
Dünən çıxmısan yuvadan
Bu gün deyirsən davadan?!

Bəkil oğlu İmran söylədi, görəlim, xanım, nə söylədi:

Əyə, yağı, Bəkil budur kefə baxır bir həftədir,
Qonaqları gəlmiş çoxlu, yeyir-içir işrətdədir.
Xanlar xanı xan Bayandır, kürəkəni Salur Qazan,
Dözən oğlu Alp Rüstəmlə, Dönəbilməz Döləkvuran,
Bozayqırlı Beyrək ilə alplar başı Qaragünə,
Bütün Oğuz ərənləri bizə qonaq gəlmiş yenə.
Məclisində sağlıq deyib tərif edib hər igidi,
Şirin yemək-içmək dəmi səndən casus gəldi dedi:
Üstünüzə yağı gəlir, hazırlaşın, ayıq olun,
Düşmən quldur kimi gəlir, gözüaçıq, sayıq olun.
Bəkil məni öz atına mindirərək, silah verdi,
Dəmir geyim-cövşənini, polad papaq-külah verdi.
Qılıncını, süngüsünü, ox-kamanı, polad yayı…
Qonaqlara sirr vermdi, salmadı o, hay-harayı.
Dedi: – Oğlum, çap atını elimizə yağı gəldi,
Süngü vurub, qılınc oynat, İgidliyin çağı gəldi!
Axmaq yağı! Düz cidalı yoldaşlarım üç yüz nəfər!
Bəkil oğlu İmran mənəm, tanı mənəm nər oğlu nər!
Bu meydan, bu hünər dəmi, gəl yaxına, azğın yağı!
Görək kimdən kim öyrənər bu meydanda vuruşmağı!

Təkur:

— Dayan, axmaq uşaq, indi mən sənə göstərərəm! – deyib, dəstəsinə əl elədi, altı pərli gürzunu əlinə alıb, oğlanın üzərinə sürüb gəldi.

İmran qalxanını gürzə qarşı tutdu. Yuxarıdan aşağı yağı oğlanın başına gürzü elə vurdu ki, qalxanı əzib, dəbilqəsini yoğurdu, qalpaqlarını sıyırdı. Lakin oğlanı basa bil-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

mədi.

Gürzlə döyüşdülər, qara polad qılıncla vuruşdular, sərpə-sərpə meydanda xeyli qılınclaşdılar. Çiyinləri doğrandı, qılıncları qırıldı, bir-birinə qalib gələ bilmədilər. Qarğı dilli süngülərlə döyüşməyə başladılar. Buğa kimi buynuzlaşdılar, sinələri dəlindi, süngüləri sındı, yenə biri o birini basa bilmədi.

Bu dəfə at üzərində əlbəyaxa oldular. Bir-birinin qoluna-boynuna əl atdılar.

Təkur güclü, təcrübəli, neçə belə döyüşlər görmüşdü. İmran isə hələ indicə 15 yaşına girmiş uşaq idi, birinci dəfə idi ki, belə döyş görürdü.

Yağı oğlandan güclü çıxdı, onu götürüb yerə aldı, özü də üzərinə atıldı. Yerdə güləşməyə başladılar. Oğlan gördü basılacaq, kövrəldi, bütün qüvvətini topladı, ata-anasını, tay-tuşlarını gözü qabağına gətirib, Allah-taalaya üz tutub yalvararaq söyləmiş, xanım, görəlim nə söyləmiş:

— Ucalardan ucasan, uca Tanrı!
Kimsə bilməz necəsən, görklü Tanrı!
Sən Adəmə tac vurdun,
Şeytana lənət qıldın.
Bir suçundan ötəri
Dərgahından sürdün.
İbrahımı tutdurdun,
Xamı gönə çulğadın,
Onu oda atdırdın.
Odu bustan qıldın.
Birliyinə sığındım.
Əziz Allah.
Mədəd Allah, Səndən mədəd!
Ədalətə güvəndim mən,
Ədalətdən, həqdən mədəd!

Bunu deyəndə oğlana elə bil qırx kişinin qüvvəti gəldi. Nərə çəkib bir «hu» dedi, yağını götürüb, başı bərabərində havaya qaldırdı, yerə elə çırpdı ki, burnundan qan düdük kimi şorladı. Sıçradı şahin kimi sinəsinə qondu, boğazını əlinə aldı, qılıncı ilə başını kəsmək istərkən təkur yalvardı:

— Aman oğlan, məni öldürmə! Səndən aman istəyirəm. Bundan sonra mən sənə qardaş olaram. Mənə qıyma!

Oğuz qəhrəmanlarının adəti idi. Döyüş meydanında, kim olur-olsun, ən qatı



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

düşmən belə, aman diləsə onu öldürməzdilər, aman verərdilər, bağışlayardılar. İmran da belə etdi. Onun üzərindən durdu:

— Aman istədin, verdim, get, səni öldürmürəm, amma bir də bizim elimizə yağılığa gəlsən onda bağışlamayacağam.

Təkur durdu İmranın əlini öpdü, and içdi: – Bir də sizin elə yağılığa gəlmərəm, – dedi, atını sürüb getdi.

İmranın igidləri yağı qoşunundan tabe olmayanları qovub tutdular, Əsir aldılar, atlarını, silahlarını, sursatlarını qarət etdilər. Geriyə döndülər.

İmranın evlərinə muştuluqçu gəldi. Ağ saqqallı atası ona qarşı gəldi, qucaqlayıb alnından öpdü.

Evlərinə gəldilər. Böyük məclis quruldu. Bəkil qarşı yatan Qara dağdan oğluna yaylaq verdi, yüyrək atlar, qızıl dəvələr, ağca qoyunlar bağışladı.

İmran adaxlı idi. Anası qırmızı gərdək qurdurdu, toy edib oğlanı gərdəyə saldı. Ağ alınlı Bayandır xana beşdəbir ayırdılar.

Bayandır xana xəbər getdi. Bəkili çağırdı, könlünü aldı. Oğlu İmranın alnından öpdü. Qazan oğlu Uruzun sağ yanında ona yer göstərdi. Qiymətli geyimlər, cübbə, çuxa və başqa hədiyyələr bağışladı.

Dədə Qorqud məclisdə qopuzunu sinəsinə basıb oturanlara zövq verdi. Bu dastanı düzdü – qoşdu: – Bəkil oğlu İmranın olsun, – dedi.

Sonra Oğuz qəhrəmanlarının başına gələn macəralardan danışdı:

Xeyir-dua verirəm, xanım!
Yerli qara dagların yıxılmasın,
Kölgəlicə qaba ağacın kəsilməsin!
Allah verən ümüdün üzülməsin.
Günahınızı adı görklü Məhəmmədə
Bağışlasın, xanım hey!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## SƏGRƏYİN DASTANI

Oğuz zamanında Uşun qoca adlı bir kişinin iki oğlu var idi. Böyüyünün Adı Əgrək idi. Vuran-yıxan, igid bir qəhrəman idi. Bayandır xanın görüşünə haçan istəsə gedib-gələrdi. Ona qadağan yox idi. Elə ki, bir məclis, yığıncaq olurdu, adamları basa-basa keçib lap başda, Salur Qazanın önündə əyləşərdi, heç kəsi saymazdı.

Bir gün bir məclisdə belə bir saymazyanalıq göstərdiyi üçün Tərsuzamış adlı bir igidin acığı tutdu, hirsləndi, ona dedi:

— Əyə, Uşun Qoca oğlu! Bu oturan adamlar hərəsi bir qəhrəmandır. Oturduqları yeri qılıncları ilə, çörəkləri ilə saxlayırlar. Söylə görək sən kimdən artıqsan ki, belə saymazcasına hamını ayaqlaya-ayaqlaya gedib lap başda əyləşirsən? Sən baş kəsmisənmi, qan tökmüsənmi? Axı neyləmişsən ki, özünü bu qədər dartırsan?

Əgrək dedi:

— Əyə, Tərsuzamış, baş kəsib qan tökmək məgər igidlikdirmi?

— Əlbəttə, igidlikdir!

Tərsuzamışın sözü Əgrəkə kar elədi. Tez sıçrayıb yerindən qalxdı. Səfərə çıxmaq üçün Salur Qazan bəydən icazə istədi. Salur Qazan izn verdi. Üç yüz saytal igidi də ona yoldaşlığa qoşdu. Onlar yola düşdülər, Şərükan* ucundan Gökcə dənizinədək çapıb getdilər, qələbə qazandılar. Yolları qayıdana Əlincə qalasına düşdü.

Qara təkur orada gözəl bir qoruq düzəltdirmişdi. Uçarda qaz, ördək, toyuq, turac; qaçarda keyik, ceyran və dovşanları yığıb bura doldurub, bunları Oğuz qəhrəmanlarını tutmaq üçün bir tələyə çevirmişdi.

Uşun qoca oğlu bu qoruğa uğradı. Bura çatan kimi qoruğun qapısını qırıb içəri girdilər. Atlardan düşüb yəhəri aldılar, geyimlərini soyunub bir kənara qoydular. Turacdan, keyikdən vurub, yeyib-içib kef etməyə başladılar.

Bu tərəfdən, Qara təkurun casusu var idi, bunları görüb tez ona xəbər apardı:

---

* Ş ə r ü k a n – Zəngilanda kənd adıdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

— Oğuzdan bir bölük atlı gəldi, qoruğun qapısını sındırıb içəri girdilər. Yeyib-içib sərxoş yatırlar. Nə durmuşsunuz, tərpənin, yatdığı yerdə hamısını qırın, – dedi.

Altı yüz qara donlu kafir birdən atlandı. Çaparaq Əgrəkgili yatdıqları yerdə yaxaladılar. Üç yüz igidini qırıb qılıncdan keçirdilər və Əgrəki əsir alıb, qala zindanına saldılar.

Qara-qara dağlardan xəbər aşdı, qanlı-qanlı sulardan betər keçdi. Qalın Oğuz ellərinə xəbər gəldi. Uşun qocanın uca evinin qabağında şivən qopdu. Qaza bənzər qızı-gəlini ağ çıxarıb qara geydi. Uşun Qoca: «Oğul! Oğul!» – deyib oğlanın ağca üzlü anası ilə ağlaşdılar.

Əygili ulalur, qabırğalı böyüyür. Uşun qocanın kiçik oğlu Səgrək böyüdü, yaxşı bir bahadır, dəli-dolu igid oldu.

Bir gün yolu bir yığıncağa düşdü. Keçib oturdu. Yedilər-içdilər. Səgrək həyətə çıxdı. Gördü iki ögsüz uşaq bir-birilə çəkişir. Nə edirsiniz, – deyib, bir şillə birinə, bir şillə birinə vurdu. Əski donun biti, yetim oğlanın dili acı olar! Biri dedi:

— Əyə, bizim yetimliyimiz bəs eləməzmi? Bizi niyə vurursan? Hünərin varsa, qardaşın neçə ildir Əlıncə qalasında əsirdir, gedib onu qurtarsana?!

Səgrək dedi:

— Əyə, qardaşımın adı nədir?

Dedilər:

— Əgrəkdir.

Səgrək:

— İndii Əgrəkə Səgrək yaraşır! Qardaşım sağ imiş! Mən qardaşsız neylərəm? Qardaşsız Oğuzda bir gün də dayanmaram. Gözlərimin işığı qardaş! – deyib ağladı.

Sonra içəri qayıtdı. Məclisdəkilərlə görüşüb, çıxdı. Atını çəkdilər, mindi, evlərinə gəldi. Atından düşüb anasının yanına getdi. Qoy anamın ağzını arayım, – dedi. Söylədi, görəlim, xanım nə söylədi:

— Ana, atıma mindim,
Dağ aşıb, dərə endim.
Ala dağ ətəyində,
Getdim ki, toy-düyün var,
Yeyir-içir cavanlar.
Birdən bir atlı gəldi,
Özünü tez yetirdi.
Şad bir xəbər gətirdi:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

— Əgrək adlı bir cavan
Əsir imiş nə vaxtdan.
Qurtarıb gəlir indi,
Hamı bilib sevindi,
Yığışmış böyük-kiçik
Qarşısına gedirik,
Mən də gedimmmi, ana,
Əgrəkin qabağına?

Ana bunu eşidən kimi dərdli ürəyi köyrəldi, gözləri yaşardı, söylədi, görəlim, xanım, nə söylədi?

Ağzın üçün ölüm,oğul!
Dilin üçün ölüm, oğul!
Qarşı yatan qara dağım
Yıxılmışdı, dikəldi de!
Axıntılı gur-gur çayım
Qurumuşdu, su gəldi de!
Qaba ağacda dal budaq
Qurumuşdu göyərdi, de!
Gələn sənin qardaşındı,
Dustaq idi, dönür geri.
Oğuz igidləri getsə,
Önlərincə özün yürü.
Çatan kimi atdan enib:
Qardaş! – deyib salam eylə!
Əlini öp, boyunu quc,
Ehtiramın tamam eylə.
Nə durmusan, yeri, oğul!
Əgrəklə dön geri, oğul!

Anasından bunları eşidincə oğlan qəzəbləndi söylədi, görəlim, xanım, nə söylədi:

Ana, ağzın qurusun!
Ana, dilin çürüsün!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qardaşım sağ ımış, bəs
Adam bunu söyləməz?
Mən burda kef-damaqda,
Qardaşımsa uzaqda
Düşmən əlində dustaq!
– «Ana və Tanrı haqqı»,
Deməsəydilər ki, bax ki,
Alardım o canını!
Tökərdim al qanını!

Anası dedi:

— Oğul, qəzəblənmə! Uşaq idin, özüm demədim. Qorxdum eşidib, durmayıb gedəsən, gələsən, ya gəlməyəsən, bir dərdim dönüb iki ola!

Oğlanın atası da gəldi:

— Yalan xəbərdir, oğul, bu, – dedi, – gələn sənin qardaşın deyil, ayrı adamdır. Ağ saqqallı mən atanı ağlatma, ağ birçəkli ananı sızlatma, oğlum!

Oğlan dedi:

Üç yüz altmış atlı əgər yola düşüb ova getsə,
Qanlı keyik sürüsünü düzdə qova-qova getsə,
Qardaşlılar qardaşsızı alıb yerə qaxar olsa,
Yumruq altda ağlayıban dörd yanına baxar olsa…
Bəs o neylər kimsəsi yox, ümidi yox, dayağı yox,
Ala gözdən qan-yaş tökər qaçmağa da ayağı yox.
Ala gözlü qardaşımı itirmişəm, gülüm solmuş,
Əlbət gələr bir gün bizim obada da bahar olar.
Getdim döyüş meydanına qardaş üçün candan keçəm,
Qardaş qardaşın eşqilə şimşək kimi çaxar olar!

Ata və ana yenə:

Getmə, oğul, yanlış xəbərdir, – dedilər.

Oğlan:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

— Məni yolumdan ayırmayın, getməliyəm. Qarda- şım tutulan qalaya gedib, onun ölüsü-dirisi xəbərini bilməyincə, ölübsə, qanını almayınca, dirisə, xilas etməyincə Oğuz elinə dönmərəm! – dedi.

Ata-anası ağlaşıb, Salur qazanın üstunə adam saldılar: — Oğlan qardaşını andı, gedir, dayanmır, bizə nə məsləhət verirsən?

Qazan dedi:

— At buxovunu ayağına vurun!

Elə də etdilər. Adaxlısı var idi, tez toy-düyün etdilər. Atdan ayqır, dəvədən buğra, qoyundan qoç qırdırdılar. Oğlanı gərdəyə qoydular.

Oğlan qılıncını çıxardı, qızla öz arasına qoydu. Qız dedi:

— Qılıncı geyidir, igid! Murad ver, murad al, sarallam!

Oğlan dedi:

— Əyə, sarsaq qızı! Mən qılıncımla doğranım! Oxuma sancılım! Oğlum doğulmasın! Doğularsa on yaşına varmasın! Əgər qardaşımın üzünü görməyincə, ölmüş isə qanını almayınca, bu gərdəyə girərəmsə! – dedi, – ayağa durdu. Tovladan bir şahbaz at çıxardı, yəhərlədi, geyimini geydi, silahını taxdı, dizciyini, qaracuğunu bağladı, dedi:

Qız, sən məni bir il gözlə,
Gəlməsəm iki il gözlə!
Əgər keçsə üç ilimdən,
Onda bil ki, ölmüşəm mən.
Ayqır atım boğazlayıb
Tut yasımı, aşımı ver.
Könlün, gözün kimi sevər
Ona da get sən o zaman,
Yığ gözünü bu yollardan.

Qız burada söyləmiş, görəlim, xanım, nə söyləmiş:

İgidim, gözlərəm bir il, iki il,
Gözüm yollarından ayrılan deyil.
Gəlməsən üç il də gözləyərəm bil.
Gözləyərəm dörd il, beş il, altı il!
Görsəm ki, qurtarmır hicranın sonu,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Geyərəm əynimə mən dəmir donu,
Taxıb silahımı, oxu-kamanı,
Güdərəm yolları, kəsib hər yanı.
Altı yol üstündə çadır tikərəm,
Körpülər salaram, arxlar çəkərəm.
Gələndən-gedəndən soraram xəbər,
Xeyir xəbər verən olarsa əgər,
Bəxşişlər verərəm, məclis quraram,
Bəd xəbər verənin boynun vuraram!
Erkək milçəkdən də öcün alaram.
Murad ver, murad al, oğlan, sarallam!

Oğlan dedi:

— Əyə, sarsaq qızı! Qardaşımın başına and içmişəm, dayana bilmərəm, getməliyəm.

Qız ayağa durdu geyindi: – Qoy bədqədəm gəlin deyincə, üzsüz gəlin desinlər! – dedi, – gərdəkdən çıxdı, özünü qayınanasının, qayınatasının yanına saldı, dedi:

Anamdan artıq qayınana, dinlə məni,
Atamdan artıq qayınata, dinlə məni!
Karvanından hürkdü buğra, gedər oldu,
Sarvanların önün aldı, alınmadı!
İlxısında hürkdü ayqır, gedər oldu,
İlxılar önün aldı, alınmadı!
Sürüsündə hürkdü qoçun , gedər oldu,
Çobanların önün aldı, alınmadı!
Ala gözlü oğlun gedər, qardaş – deyə,
Yazıq gəlin önün aldı, alınmadı!

Ata-ana ah etdilər, ağladılar. Oğlanın yanına gəlib, getmə, oğul, – deyib yalvardılar.

Oğlan dedi:

— Əziz ata-ana! Axı mən qardaşım olan qalaya getməsəm olmaz!

Gördülər çarə yoxdur, xeyir-dua verdilər:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

— Get, oğul! Uğurun açıq olsun! Sağ varıb, salamat gələsən! Gələcəyin varsa tilsimdən də qurtararsan, – dedilər.

Səgrək atasını-anasının əlini öpdü, qara qoç atına sıçrayıb mindi. Üç gün, gecəli-gündüzlü çapdı, qardaşı tutulan o qoruğa gəldi, çıxdı. Gördü ki, ilxıçılar at otarır. Ətrafda öldürülmüş igidlərin sümüklərindən dərələrdə təpə düzəlmişdi. Oğlanın qanı cuşə gəldi, qılıncını sıyırıb ilxıçılara hücum etdi, bir neçəsini qılıncdan keçirdi. Tolambaz vurub dayları qovub gətirdi, o qoruğa salıb qapısını bağladı.

Gecə düşdü. Üç gün gecə-gündüz yol gəlmiş igidin gözlərini yuxu aldı. Atının cilovunu biləyinə bağlayıb uyudu, yatdı.

Bu tərəfdən ilxıçılardan sağ qalanı qaçıb gedib Qara təkura xəbər apardı, dedi:

— Oğuzdan bir dəli igid gəldi. İlxıçıları öldürdü, dayları hürkütdü, gətirib qoruğa qoydu. Özü isə indi yuxulayıb yatmışdı.

Təkur dedi:

— Yaraqlı altmış adam seçin, getsinlər tutub gətirsinlər.

Dəmir don geyinmiş altmış yaraqlı adam nagahdan oğlanın üzərinə çapıb gəldilər.

Geyim qıcıltısından, at fınxırmasından Səgrəkin atı qulaqlarını şəklədi. Axı at qulağı sayıq olar, oğlanı çəkib oyatdı. Oğlan diksinb durdu. Gördü ki, bir alay atlı gəlir, sıçradı adı görklü Məhəmmədə salavat gətirdi, atının belinə mindi. Qılıncını sıyırıb nərə çəkdi, düşmən dəstələrinin üzərinə elə cumdu ki, hamısı pərakəndə olub, özlərini güclə qala qapısından içəri saldılar.

Səgrək geriyə öz yerinə döndü və yenə atının cilovunu biləyinə keçirdi. Başını yerə atıb, yatdı.

Qoşundan sağ qalanlar qaçıb təkurun yanına gəldilər.

Təkur: — Tfu üzünüzə! – dedi – altmış kişi bir oğlanı tuta bilmədi?

Bu dəfə təkur oğlanın üzərinə yüz atlı göndərdi. At yenə oğlanı dartıb oyatdı. Səgrək gördü yenə kafirlər alay bağlayıb, gəlir. Durdu atına mindi, adı görklü Məhəmmdə salavat gətirdi, qılıncını havada tovlayıb düşmən üzərinə cumdu. Yenə basıb hamısını qılınclayıb qələyə tıxadı.

Atını döndərdi, yenə mənzilinə gəldi. Yuxudan ayıla bilmədi, başını yerə qoyub, atının cilovunu biləyinə keçirdi, yatdı.

Lakin, bu dəfə at oğlanın biləyindən boşlanıb, qaçdı.

Yenə sağ qalmış adamlar gedib təkura xəbər apardı: Hamımızı qırdı, – dedilər.

Təkur: — Bu dəfə uç yüz varın, – dedi.

Kafirlər dedilər:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Vara bilmərik, kökümüzü kəsər, hamımızı qırar, – dedilər.
Təkur dedi:
— Bəs necə eləmək gərək? Hə! Gedin o, neçə ildir dustaq etdiyimiz igidi çıxarın, gətirin. Təpəyənin köpünü süsəyən yırtar! At verin, geyim verin, getsin onu tutsun gətirsin, bunu buraxaq.
Gəldilər, Əgrəki zindandan çıxartdılar.
— İgid, sənə təkurun rəhmi gəldi, – dedilər – burada bir dəli igid yolçunun-yolaqçının, çobanın-çoluğun qabağını kəsib, çörəyini əlindən alır, camaata əziyyət verir. Sən gedib onu tutub öldürsən, səni boşlayarıq, çıxıb öz elinizə gedərsən.
Oğlan:
— Çox yaxşı! – dedi.
Əgrəki zindandan çıxarıb gətirdilər, yedirdilər, içirdilər. Üzünü, saçını-saqqalını yoldular. Bir at, bir qılınc verdilər. Üç yüz sılahlı əsgəri də ona qoşdular. Oğlanın üzərinə göndərdilər. Qoşun qoruğun yanında dayandı.
Əgrək soruşdu:
— Hanı o dəli igid?
Uzaqdan göstərdilər.
Əgrək dedi:
— Di, gəlin yanına gedib tutaq.
Dedilər:
— Xeyir! Təkurdan buyuruq sizədir.
Əgrək dedi:
— Canım, nədən qorxursunuz? Görmürsünüz yatıbdır? Gedək birlikdə tutub gətirək.
Dedilər:
— Yox! Nə uyumaq? Görmürsən qoltuğu altından baxır? Gözləyər, gözləyər, biz yaxına gedən kimi, sıçrayıb qalxar, gen dünyanı bizə dar edər.
Əgrək dedi:
— Onda siz dayanın,mən gedim, əlini-ayağını bağlayım, ondan sonra siz gələrsiniz.
Sıçradı kafirlərin arasından çıxdı. Atını sürüb, igidin başı üzərinə gəldi.
Atından endi, cilovunu bir budağa ilişdirdi. Baxdı gördü ki, on dörd gecəlik aya bənzər, gözəl, ala gözlü bir gənc igid purçum-purçum tərləmiş, uyuyur, gələndən-gedəndən xəbəri yoxdur. Dolandı başı üzərinə gəldi, gördü ki, belində qopuzu var.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qopuzu oğlanın belindən çıxardı əlinə aldı, çağırıb söylədi, görəlim, xanım, nə söylədi:

Qara yallı qoç atına minib gələn,
Uca yalçın Ala dağdan enib gələn,
Axıntılı gur sulardan içib gələn,
Dərələrdən, təpələrdən, keçib gələn
İgid, söylə qərib yerdə yatarmı heç?!
Mənim kimi qollarını bağlayarlar,
Tutub, donuz damında ac saxlayarlar,
Ağ saqqallı atan qalar gözü bağlı,
Ağ birçəkli anan olar sinə dağlı.
Nə yatmısan oyan, bu nə haldır, igid!
Qafil olma, dur, başını qaldır, igid!
Qollarını qarusundan bağlatma, dur!
O atanı, o ananı ağlatma, dur,
Qalın Oğuz ellərindən gələn igid!
Dörd yanını kafir alıb, oyan, igid!

Səgrək səsə ayılıb, tez ayağa qalxdı. Qılıncının dəstəyinə əl atdı. İstədi ki, bunu çalsın, gördü ki, əlində qopuzu var, əl saxladı, dedi:

— Əyə, kafir! Dədəm Qorqudun qopuzu hörmətinə çalmadım. Əgər əlində qopuz olmasaydı, qardaşımın başı üçün səni iki para edərdim. Çəkdi qopuzu Əgrəkin əlindən aldı. Söyləmiş, görəlim, xanım, nə söyləmiş:

Boz atı səyirdib quş tək süzmüşəm,
Qardaş sorağilə dünya gəzmişəm.
Qalanızda dustaq varsa de mənə,
Qara başım qurban, ey igid, sənə!

Ulu qardaş Əgrək burda cavabında dedi, görəlim, xanım, nə dedi:

Ağzın üçün ölüm, əziz qardaşım!
Dilin üçün ölüm, əziz qardaşım!
Yeriniz haradır, aranda, dağda?
Xanınız, başçınız kimdir qabaqda?



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Kimdir dava günü bayraqdarınız?
Kimdir böyüyünüz, hökmdarınız?
Adın nədir? Kimin oğlusan? De sən?
İgid öz adını danmaz igiddən.

Əgrək yenə söylədi:

Karvanımı güdən sarvanımmısan?
Sürümü otaran çobanımmısan?
Atlarımı güdən ilxıçımmısan?
Olsun qərib başım yolunda qurban!
Qulluğumda duran həmyaşımmısan?
Beşikdə gördüyüm qardaşımmısan?

Səgrək burada ulu qardaşına söylədi, görəlim, xanım, nə söylədi:

Elimiz Oğuzdu aranda, dağda,
Xanımız Bayandır başda, qabaqda,
Qazandır döyüşdə bayraqdarımız.
Ümumi elindir bütün varımız.
Uşun Qoca oğlu Səgrəkəm, Səgrək!
Dustaq qardaşımsa Əgrəkdir, Əgrək!

Oğlan yenə dedi:

Əgər qardaşımsan, qurbanınam mən,
Çobanın, ilxıçın, sarvanınam mən!

Əgrək özünü qardaşının üzərinə atdı:

Ağzın üçün, dilin üçün ölüm, qardaş!
Həsrətinəm, gəl başına dönüm, qardaş!
Belə igid olmuşsanmış bunca, qardaş!
Qərib elə gəlmisən dalımca qardaş!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İki qardaş bir-birinin yzərinə atılıb qucaqlaşdılar, görüşdülər. Əgrək kiçik qardaşının alnından öpdü. Səgrək isə böyük qardaşının əlini öpdü.

Kənardan kafir əsgərləri baxırdı:

— Bunlar belə güləşirlər deyəsən? Elə ola ki, bizimki yıxa, – dedilər.

Gördülər ki, görüşdülər, qucaqlaşdılar, sonra qazlıq atlarına minib çapışdılar. Qılınclarını sıyırıb bunların üzərinə at saldılar.

İki qardaş hərə bir tərəfdən kafir dəstəsinə hücum çəkdi. Qılınclayıb qova-qova basıb gətirib qələdən içəri tökdülər. Sonra qayıdıb həmin qoruğa gəldilər. Ordakı atları tolamazlama atıb qabaqlarına qatdılar. Dərəşam suyunu keçib, çaparaq axşamüstü Oğuzun sərhədinə çatdılar.

Səgrək kafir qalasında 16 il zindanda qalmış böyük qardaşı Əgrəki əsarətdən qurtarıb gətirdi. Atasına muştuluqçu göndərdi: – Atam mənə qarşı gəlsin, – dedi.

Uşun Qocaya çapar gəldi:

— Muştuluq! Gözlərin aydın! Oğlanlarının ikisi də gəldi! – dedilər.

Uşun Qoca eşidib şad oldu. Oğlanlarına qarşı gəldi. Qucaqlayıb alnından öpdü. Anaları igid oğlanlarını bağrına basdı, öpdü.

Gumbur-gumbur təbillər vuruldu, altun borular çalındı. O gün ala barigah otaqlar tikildi. Atdan ayqır, dəvədən buğra, qoyundan qoç qırıldı. Böyük toy məclisi quruldu.

Uşun Qoca ulu oğlu Əgrəkə də gözəl bir qız aldı. Oğlanlarına qoşa gərdək tikdi. Oğlanlar gərdəyə girdi, arzuya-murada çatdılar.

Dədə Qorqud məclisə gəldi. Qopuzunu əlinə aldı. Bu dastanı düzdü-qoşdu, Səgrəkin olsun dedi. Keçmiş igid qəhrəmanların başına gələni söylədi, dedi:

Əvvəl-axır uzun yaşın ucu ölüm.
Xanım ölum vaxtı gəldiyində,
Tanrı sizi arı imandan ayırmasın,
Günahınızı Məhəmməd Mustafa
üzü suyuna bağışlasın!
Amin deyənlər didar görsün,
Xanım hey!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## URUZUN DASTANI

Trabzon təkuru bəylərbəyi olan Xan Qazana bir şahin göndərmişdi. Bir gecə, yeməkdən sonra oturub söhbət edirdlər. Qazan quşçubaşını çağırıb, dedi:

— Sabah şahinləri götür, ova gedəcəyik.

Səhər tezdən atlandılar, ovlağa yola düşdülər. Düzdə gördülər ki, bir sürü qaz otlayır. Qazan şahini qaldırıb buraxdı. Quş pərvaza qalxdı. Gözlədilər qayıtmadı, getdi-getdi Tumanın qalasına endi. Qazan çox pis vəziyyətdə qaldı. Şahinin izincə düşüb, dərə-təpə aşaraq getdilər. Yolda Qazanın gözlərini yuxu aldı. Yoldaşları bunu görüb:
— Gəlin qayıdaq, – dedilər. Qazan dedi:

— Gəlin bir az da irəli gedək. Getdilər, irəlilədilər. Baxdılar ki, qabaqda bir qala görünür.

Qazan dedi:

— Atdan düşün, gəlin bir az burada yataq.

Yoldaşları dedilər:

— Ay Salur Qazan, bu saat nə yatmaq vaxtıdır?

Düşmən gəlib hamımızı yuxuda ikən qırar.

Salur Qazan: Yox, mən yatdım, – deyib, atdan düşdü, başını yəhərin yastığına qoydu.

Oğuz zamanında yuxunu «kiçik ölüm» adlandırırdılar. Qazanı da kiçik ölüm tutdu, uyuyub yatdı. Yoldaşları nə qədər çalışdılarsa, onu oyada bilmədilər. Əlacsız qalıb hamısı atdan yerə endilər. Dayanıb, Qazanın qarovulunu çəkdilər.

Təkurun casusu var idi. Qazangili belə görən kimi çaparaq gedib xəbər apardı:

— Nə oturmuşsunuz? Bir bölük adam gəldi. İçlərində böyükləri yatdı, uyudu, – dedi.

Təkur adam göndərdi: «Kim olduğunu bilin», – dedi. Onlar gedib öyrəndilər ki, bunlar Oğuz ərənləridir. Təkur dərhal əmr elədi, bir böyük dəstə qoşun bunların üzərinə gəldi.

Qazanın igidləri baxdılar ki, yağı gəlir. Özləri də sayca bunlardan on qat artıqdır.

— Nə edək? Qazanı qoyub gedəkmi? Yox! Bu kişilikdən deyil! Yaxşısı budur ki, Qazan uğrunda şəhid olaq! – dedilər, – düşməni qarşıladılar, döyüşdülər.

Qazanın uğrunda iyirmi beş nəfər igidin hamısı həlak oldu. Yağılar sonra Qazanın



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

üzərinə düşdülər, uyuduğu yerdə onu tutdular, əlin-ayağın bərk bağladılar. Bir arabaya yüklədilər. Örkən ilə möhkəm sarıdılar, sürdülər. Gedərkən yolda arabanın qıcırtısından Qazan oyandı, gərindi, gərnəşdi, əlinə-ayağına bağlanmış ipləri dartıb qırdı. Arabanın içərisində durub, oturdu, əlini-əlinə çalıb qah-qah güldü.

Soruşdular:

— Əyə, Qazan, niyə gülürsən?

Dedi:

— Əyə, kafirlər, uşaqlığım yadıma düşdü. Bu arabanı beşiyim, sizi isə yumru-yumru dadım-dayəm sandım!

Qazanı gətirdilər, Tumanın qalasında bir quyuya saldılar və ağzına bir dəyirman daşı qoydular. Yeməyini-içməyini bu daşın ortasındakı dəlikdən verirdilər.

Bir gün Təkurun arvadı öz-özünə dedi:

«Bu Qazanın, bu qədər şöhrətindən danışırlar, görəsən necə adamdır ki, heç bir igid onu məğlub edə bilmir? Yaxşısı budur, gedim bir onu görüm».

Arvad gəlib zindançıya qapını açdırdı, çağırıb Qazanı səslədi:

— Ey, Qazan bəy, halın necədir? Diriliyin yer altındamı xoşdur, yoxsa yer üstündə yaxşı idi? Bir də orada indi nə yeyib, nə içirsən və nə minirsən?

Qazan dedi:

— Diriliyim, əlbəttə, yer altında daha xoş keçir. Burada ölülərinizə verdiyiniz yeməklərin hamısını əllərindən alıb yeyirəm. Özlərinin də yorğalarını minirəm, kahıllarını yedəyimcə çəkirəm!

Təkurun arvadı həyəcanla dedi:

— Dinin üçün, Qazan bəy, yeddi yaşında bir qızcığazım ölmüşdür, kərəm elə ona minmə!

Qazan dedi:

— Başın üçün ölülərinizin içərisində ondan yorğası yoxdur, elə bütün günü onu minirəm!

Arvad:

— Vay, sənin əlindən nə yer üzərində dirimiz, nə yer altında ölümüz qurtulmazmış!-dedi,-oradan tez qayıdıb Təkurun yanına gəldi:

— Kərəm elə, o Oğuz bəyini quyudan çıxar! Yoxsa qızcığazımın belini üzəcəkdir. Sən demə, yer altında bu, qızcığazımıza minərmiş! Qalan ölülərimizi də cəm edib yedəyincə çəkərmiş! Özü də ölülərimiz üçün verdiyimiz aşı əllərindən alıb yeyərmiş! Onun əlindən nə ölümüz, nə dirimiz qurtarmazmış! Dinin eşqinə, sən onu quyudan çı-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

xar, burax getsin! – dedi.

Təkur öz bəylərini çağırıb topladı və məsləhətləşdi:

— Gəlin, Qazanı çıxarağın, bizi öysün, Oğuzu sındırsın. Ondan sonra şərt eləsin ki, bizim elimizə yağılığa gəlməz, – dedi.

Bəylər razı oldu. Getdilər Qazanı quyudan çıxarıb gətirdilər, dedilər:

— And iç ki, bir də biz tərəflərə gəlməyəcəksən! Həm də indi burada bizi öy, Oğuzu sındır, səni buraxaq, çıx get.

Qazan dedi:

— Vallah, billah, doğru yolu görərkən, əyri yoldan gəlmərəm!

Dedilər:

— Valah, Qazan lap yaxşı and içdi.

— İndi Qazan bəy, bizi öy! – dedilər.

Qazan dedi:

— Mən yer üzərində adam öymərəm! Bir nəfər gətirin, onu minim, sizi öyüm!

Getdilər bir kişi gətirdilər, bir dənə də yəhər. Qazan kişinin arxasına yəhər saldı, ağzına yüyən vurdu, qulağını çəkdi, sıçradı belinə mindi. Qılçın qılçasına qadayıb elə sıxdı ki, qabırğası qarnına qovuşdu, dedi:

— Əyə, kafirlər, indi qopuzumu gətirin, sizi öyüm!

Getdilər Qazanın qopuzunu gətirdilər. Qazan qopuzu əlinə aldı, söyləmiş, görəlim, xanım, nə söyləmiş:

Min-min ərdəm yağı gördümsə oyunum, dedim!
İyirmi min ər yağı gördümsə, yenilmədim.
Otuz min ər yağı gördümsə, ota saydım,
Qırx min ər yağı gördümsə, qıya baxdım.
Əlli min ər yağı gördümsə, əl vermədim.
Altmış min ər yağı gördümsə, ayıtışmadım,
Səksən min ər yağı gördümsə, səksənmədim.
Doxsan min ər yağı gördümsə, donatmadım.
Yüz min ər yağı gördümsə, üz tutmadım.
Üzü dönməz, qılıncımı ələ aldım,
Məhəmmədin dini eşqinə qılınc çaldım,
Ağ meydanda yumru başı topca kəsdim,
Onda dəxi ərəm, bəyəm deyib öyünmədim,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Öyünən ərənləri xoş görmədim.
Əlinə girmişkən, əyə zalım öldür məni.
Qara qılıncın sal boynuma, kəs başım!
Qılıncından saparım yox!
Öz əslimi, öz kökümü, kafir, söymədim yox!

Bir soy dəxi söylədi:

Yüksək-yüksək qara dağdan daş yumalansa,
Qaba öncəm-oyluğum qarşı tutan Qazan ər idim.
Qaba-qaba bəylər oğlu qovğa qılsa,
Qamçı salıb döydurən Qazan ər idim,
Uca dagları duman bürüsə,
Qara pusərək dolu qopsa
Qardan atımın qulaqları görünməz olsa,
Qeyriləri bələdçisiz yolun yolun yanılsa,
Bələdçisiz yol başaran Qazan ər idim.
Yeddi başlı əjdahaya bir yol vardım,
Heybətindən sol gözüm yaşardı
Hey gözüm, namərd gözüm müxənnət gözüm!
Bir ilandan, nə var qorxdun dedim,
Onda dəxi ərəm, bəyəm – deyib öyünmədim,
Öyünən ərənləri xoş görmədim.
Əlinə girmişkən əyə kafir, öldür məni!
Sal qılıncın, kəs başın, qılıncından sapanım yox!
Öz əslimi, öz kökümü söyməyim yox!
Oguz ərənləri dururkən səni öymədim yox!

Qazan burada bir dəxi söyləmiş:

Ərqıc qırda yıxanır, Umman dənizində
Sərp yerlərdə yapılmış kafir şəhəri.
Sağa-sola çırpıntı vurur üzgücüləri
Su dibində dönər bəhriləri.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Tanrı mənəm-deyib, su dibində çırışır asiləri
Önün qoyub, tərsin oxur, qızı, gəlini.
Altun aşıq oynar Suncidanın bəyləri.
Altı kərə Oğuz vardı alammadı.
O qələyi altı baş ərlə mən Qazan vardım,
Altı günə qoymadım, onu aldım
Kilsəsin yıxıb yerinə məscid yapdım.
Ban banlatdım.
Qızını, gəlinini ağ köksümdə oynatdım.
Bəylərini qul etdim.
Onda da ərəm, bəyəm, – deyib, öyünmədim,
Öyünən ərənləri xoş görmədim,
Əlinə girmişkən əyə, kafir,
Öldür məni, bitir məni.
Qılıncından saparım yox!
Öz əslimi, öz kökümü söymədim yox!

Qazan genə söyləmiş, dedi:

— Ərqıc qırda döndərdiyim əyə kafir sənin atan,
Şaqqaqına irməndigim sənin qızın, gəlinin,
Ağcaqala, Sürməlidə at oynatdım.
Atla Qarun elinə çapgım etdim,
Ağ ağca gətirdilər, puldurr – dedim.
Ala gözlü qız-gəlin gətirdilər, aldanmadım,
Qızıl-altun gətirdilər, paxırdır – dedim.
Kilsəsini yıxdım, məscid yapdım,
Altunlu gümüşü yəğmalatdım.
Onda da ərəm, bəyəm deyib öyünmədim,
Öyünənləri xoş görmədim.
Əlinə girmişkən əyə, kafir,
Öldür məni, bitir məni.
Öz əslimi, öz kökümü söymədim yox.
Səni öymədim yox, dedi:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qazan bəy burada bir dəxi söyləmiş,
Deyir:

Ağ qayanın qaplanının erkəyində bu köküm var,
Ortac qırda sizin keyikləriniz durqurmaya.
Ağ sazın aslanından bir köküm var.
Qazalaca yondlarınız durqurmaya.
Əzvay qurd əniyinin erkəyində bir köküm var,
Ağca yunlu tumən qoyunun gəzdirməyə.
Ağ sonqur quşunun erkəyində bir kökum var,
Ala ördək qara qazın uçurmaya,
Qalın Oğuz elində bir oglum var Uruz adlı,
Bir qardaşım var Qaragünə adlı.
Yenidən doğanını durqurmayalar.
Əlinə girmişkən əyə, kafir öldür məni.
Qılıncından saparım yox
Öz əslimi, öz kökümü söymədim yox.
Qazan bir dəxi söyləmiş,
Dedi:
İt kimi qu-qu – deyən çirkin xırslı,
Kiçik donuz şuləndi,
Bir torba saman döşəkli,
Yarım kərpic yasdıqlı,
Yonma ağac tanrılı,
Köpəyim kafir!
Oğuzu görərkən səni öymədim yox!
İndi öldürürsən əyə kafir,
Öldür məni!
Öldürməzsən, qadir qoyarsa
Oldürəcəm kafir, səni!

Kafirlər: – Gəlin bunu öldürəlim, – dedilər.
Kafir bəyləri yığışdılar, məsləhətləşdilər.
— Bunun oğlu var, qardaşı var, öldürmək olmaz, – dedilər. Gətirdilər donuz



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

damına, həbsə saldılar.

At ayağı külək, ozan dili çevik olar. Oğuzda Qazanın ölüsü-dirisi xəbərini kimsə bilmədi.

Aradan neçə illər keçdi. Qazanın oğlu Uruz, o gedəndə lap balaca uşaq idi. Böyüdü igid bir oğlan oldu. Bir gün ata minib divana gələrkən, bir kişi onu saxlayıb, hallaşdı, dedi:

— Bala, sən Xan Qazanın oğlu deyilsən ?

Uruz acıqlandı, dedi:

— Əyə, axmaq! Mənim atam Bayandır xan deyilmidir?

Dedi:

—Yox, o ananın atasıdır. Sənin babandır.

Uruz soruşdu:

— Əyə, bəs mənim atam ölümüdür, yoxsa dirimidir?

Dedi:

— Sənin atan sağdır. Tumanın qalasında zindandadır.

Bunu eşidən kimi oğlan ağladı, kədərləndi. Atının boynuna vurub, geri, evlərinə döndü, anasının yanına gəldi. Burada anasına söyləmiş, görəlim, xanım, nə söyləmiş:

— Əyə, ana, bir qulaq as, məni dinlə,
Söz gizləmə, açıq danış, düzün söylə,
Mənim atam Bayandır xan deyil məgər?
Mən, Xan Qazan oğluyammış, söyləyirlər.
Bunu mənə neyçün əvvəl sən demədin?
Saxlamıısan indiyədək belə gizlin?
«Ana haqqı–Tanrı haqqı» deməsə el,
Qara polad qılıncımı çəkərdim bil,
Bədənindən ayırardım o başını,
Yer üzünə tökdürərdim göz yaşını.

Anası ağladı, dedi:

— Oğul, atan sağdır. Özüm indiyə qədər sənə deməzdim. Qorxurdum ki, eşidən kimi özünü vurasan düşmən içinə, həlak olasan. Onun üçün deməzdim. Amma indi, vaxtdır. Eşitmisən, eybi yox! Əminə adam göndər gəlsin, məsləhətləşək, görək nə deyir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Adam göndərdilər, oğlanın əmisi Qaragünə gəldi.
Uruz dedi:
— Mən atam əsir olan qalaya gedirəm!
Məsləhətləşib, danışdılar, bütün qəhrəmanlara xəbər verildi:
— Qazan oğlu Uruz atasının dalınca gedir, hamı silahilə-yarağilə gəlsin! – dedilər.
Qoşun toplaşdı, cəm oldu.
Alp Uruz çadırları açdırdı, cəbbəxanasını yüklətdi. Əmisi Qaragünə çəribaşı* oldu, borular çalındı, qoşun yola düşdü.
Yol üzərində kafirin ayasofiyası – kilsəsi var idi. Keşişlər oxuyurdu. Çox möhkəm kilsə idi. Bura çatanda hamısı atdan enib, tacir paltarı geyindilər. Bazirgan sifətində qatır-dəvələrin çəkib qala qapısına gəldilər.
Qapıçılar baxdılar gördülər ki, bu gələnlər heç tacirə bənzəmirlər. Bürcə çıxıb, oradan:
— Kimlərsiniz? – dedilər.
— Bazirganlarıq, – dedilər.
— Yalan söyləyirsiniz! – deyib qapıçılar bürcdən bunları daşa basmağa başladılar.
Uruz atından endi:
— Məni sevən atdan ensin! Bu qapıya hərə bir gürz vursun! – dedi.
On altı igid atdan endilər. Qalxan yapındılar. Gürzlərini çiyinlərinə aldılar. Qapıya gəldilər. Hərəsi bir gürz vurub, qapını qırdılar, içəri girdilər, təslim olmayanları qırıb, qalanı aldılar.
Qaladan qaçanlar gedib, Təkura xəbər apardılar.
— Nə oturmusunuz? Üzərimizə yağı gəldi, başınızın çarəsini qılın, – dedilər.
Təkur adamlarını yığıb məsləhət etdi:
— Bunlarla necə edək? – dedi:
Dedilər:
— Bunlun əlacı odur ki, Salur Qazanı zindandan çıxarıb onlara qarşı göndərək.
Bu məsləhəti bəyəndilər. Getdilər Qazanı çıxarıb Təkurun önünüə gətirdilər.
Təkur dedi:
— Qazan bəy! Üzərimizə yağı gəldi. Bu yağının qabağını alıb xatasını bizdən

---

* Çəribaşı – qoşun başçısı, qoşunun önündə gedən



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

uzaq etsən, səni buraxarıq çıxıb öz elinə gedərsən, həm də gərək söz verəsən ki, bizə tabe olub, xərac verərəsən! Bir də and içəsən ki, bizim elə yağılığa gəlməyəcəksən.

Qazan:

— Vallah, billah, doğru yola girərkən, əyri yoldan gəlmərəm, – dedi.

Onlar: Qazan yaxşı and içdi, – deyib sevindilər.

Təkur qoşununu yığıb meydana gəldi.Çadır tikdirdi. Hamısı Qazanın dövrəsinə toplaşdılar. Geyim gətirib geyindirdilər. Qılınc – qalxanla, süngü, çomaq və sair döyüş alətilə silahlandılar.

Elə bu dəmdə Oğuz qəhrəmanları da alay-alay gəldilər. Gumbur-gumbur təbillər vuruldu, borular çalındı. Nağaralar döyüldü. Qazan gördü ki, qoşunun önüncə bir ağ-boz atlı, ağ bayraqlı dəmir donlu igid, lap qabaqca gəldi, düşdü, çadırını tikdirdi. Onun ardınca qardaşı Qaragünə gəldi, alay bağladı, durdu.

İki qoşun üz-üzə dayandı.

Buradaca Qazan özünü onda qoymayıb, atını meydana sürdü, kimdir hərif? – dedi, gəlsin!

Boz atlı Beyrək atını oynatdı, meydana gəldi.

— Hərif? – mən! Gəl dünyanı sənə dar edim, – dedi.

Qazan burada söyləmiş, görəlim, xanım, nə söyləmiş:

Durub özün öyən igid, nə igidsən?
Dəmir donun geyən igid, nə igidsən ?
Söylə kimsən, kim oğlusan, nədir adın?
Gəl göstərim indii sənə hərbin dadın!

Beyrək boz ayqırını şahə qaldırıb oynatdı, dedi:

Bayburd qalasından pırlayıb qaçan,
Boz atın belində quş kimi uçan,
Baybura bəy oğlu Bamsı Beyrəyəm,
Sən haradan biləsən mən kiməm, nəyəm?!
Gəl bəri, gəl bəri! Vuruşaq, yağı,
Gəl sənə öyrədim mən vuruşmağı!

Qazan burada yenə söyləyib soruşdu:

İgid, söylə görüm o yar-yaraqlı,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qoşunun önündə o ağ bayraqlı,
Gəlib çadırını qabaqca tikən,
Ağ- boz ata minib o növbət çəkən
Cavan igid kimdir, kimin oğludur?
Başın üçün səndən diləyim budur!

Beyrək dedi:

— Əyə, yağı, kimin oğlu olacaq? Böyüyümüz, alpımız Salur Qazanın oğludur.

— Çox şükürlər! Mənim oğlancığım böyüyüb belə igid olmuş?!

Beyrək:

— Əyə, yağı, öz-özünə nə danışırsan? Onu-bunu məndən niyə sorursan? – dedi, Qazanın üzərinə at saldı, altı pərli gürzü ilə onu çaldı.

Qazan özünü bildirmədi, tanışlıq vermədi, qıvradı Beyrəyin biləyindən tutdu, gürzünü, çomağını əlindən aldı. Ənsəsinə bir çomaq vurdu, Beyrək atının boynunu qucaqladı, qayıdıb geri döndü.

Qazan daldan çağırıb dedi:

— Ey, Beyrək, get, başçınıza de gəlsin!

Bunu gördü, Elin qoca oğlu Dönəbilməz Döləkuran meydana gəldi.

Qazan burada söylədi, görəlim, xanım nə söylədi:

Meydanı fırlanıb, qılınc oynadan,
Qoç bədöy atının yalına yatan,
İgid, kimsən? Söylə mənə adını,
Gəl göstərim sənə hərbin dadını!

Döləkuran dedi:

— Əyə, yağı, mənim adımı bilmirsənmi? Öz adına xorlayan, eldən çıxan, əlli yeddi qalanın kilidini alan, elin qoca oğlu Dönəbilməz Döləkuran mənə deyərlər.

Bunu deyib, süngüsünü əlinə aldı, at saldı, Qazanın üzərinə cumdu. Süngü ilə sancmaq istədi, sanca bilmədi, süngü yana keçdi. Qazan atını təpdi, onun süngüsünü əlindən aldı, təpəsinə vurdu, para-para oldu, dedi:

— Əyə, axmaq oğlu, de böyüyün gəlsin!

Döləkuran da qayıdıb, geri döndü. Qazan yenə ər dilədi, müqabil istədi.

Bu dəfə Dözən oğlu Alp Rüstəm atını tərpədib, meydana gəldi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qazan burada yenə söylədi:

At çapıb meydana sürərək gələn,
Bu zərbi- dəstimi görərək gələn,
İgid kimsən? Söylə, de nədir adın?
Niyə gördüyündən ibrət almadın?!

Alp Rüstəm:

Qalxıban yerindən duraraq gələn
İki balasını birgə öldürən,
Zəlil gəzib özü, min əzab görən
Məşhur Dözən oğlu Alp Rüstəməm mən.

Bunları sorursan nə üçün məndən? – deyib, Qazanın üzərinə at saldı. Qazanı vurmaq istədi, vura bilmədi. Qazan buna da bir zərbə vurdu, gicəllənə-gicəllənə geri döndü.

Qazan:

— Əyə, axmaq, get böyüyünə de gəlsin! – dedi.

Uruzun atının cilovunu əmisi Qaragünə tutmuşdu. Meydanda bu halı görüb, igidin hirsi başına vurdu, atının cilovunu əmisinin əlindən aldı, ata bir qamçı dartıb, Qazanın üzərinə at saldı. Sürətini saxlaya bilməyib, ona elə bir qılınc endirdi ki, geyimini kəsdi, dörd barmaq dərinliyində keçib Qazanın çiynini doğradı. Qanı şorladı, qoynuna doldu. Uruz bir də döndü ki, çalsın, Qazan burada söylədi, görəlim, xanım, oğluna nə söylədi:

Qara dağımın yüksəyi, gözlərimin işığı,
Qollarımın qüvvəti, evimin yaraşığı,
Alpım, aslanım Uruz!
Ağ saqqallı atanam,
Oğlum, Salur Qazanam!

Uruzun şəfqət damarları qaynadı, qara qıyma gözləri qan yaşla doldu. Atdan yerə endi. Atasının əlini öpdü. Qazan da atından yerə düşdü, oğlunun boynunu qucaqladı öpdü.

Oğuz qəhrəmanları Qazan ilə oğlunun yanına gəldilər. At saldılar, çevrəyə aldılar. Hamısı atdan enib Qazanın əlini öpdü. Yürüş edib kafir qoşunu üzərinə hücum



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

çəkdilər. Qılınc çaldılar. Dərələrdə, təpələrdə düşmənə həmlə edib, məğlub etdilər, qalanı aldılar. Ölən öldü, qaçan qaçdı. Qaçanı qovmadılar, «aman» deyəni öldürmədilər.

Uruz qanlı düşmən zindanından atasını azad edib geri döndü. Qalın Oğuz elinə gəlib çatdılar. Ağca üzlü, boyu uzun Burla xatuna muştuluqçu getdi:

— Oğlun Uruz atasını xilas edib birlikdə gəlirlər, –dedilər.

Burla Xatunla qaza bənzər qızı-gəlini, eli-günü Qazana qarşı gəldilər, əlini öpdülər, ayağına düşdülər.

Qazan gözəl göy çəməndə çadırlar, otaqlar tikdirdi. Yeddi gün-yeddi gecə toy-dügün etdilər. Yeyib-içib şadlandılar.

Dədəm Qorqud məclisə gəldi. Qopuz çaldı, bu oğuznaməni düzdü-qoşdu: Qazan oğlu Uruzun dastanı olsun, – dedi, qazi ərənlər başına nələr gəldiyindən danışdı, belə söylədi:

— Hanı dediyim bəy ərənlər,
Dünyaya «mənim» – deyənlər?
Yer gizlədi, əcəl aldı,
Fani dünya yenə qaldı.
Gəlimli-gedimli dünya!
Son ucu ölümlü dünya!

Sonra, Dədə Qorqud bu dastanları dinləyən xana üz tutaraq alqışlar söylədi, xeyir-dua verdi, dedi:

Ölüm vaxtı gəldikdə Tanrı sizi
Arı imandan ayırmasın!
Qadir səni namərdə möhtac eləməsin.
Dünyada var ümidiniz üzülməsin!
Ağ alnında beş kəlmə dua qıldıq qəbul olsun!
Amin, amin deyənlər didar görsün!
Günahınızı adı görklü
Məhəmməd Mustafaya bağışlasın,
Xanım hey!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## SALUR QAZANIN DASTANI

(Daş Oğuzun İç Oğuza asi olması)

Oğuz dövlətinin baş sərkərdəsi Salur Qazanın bir adəti var idi. O, üç ildə bir dəfə İç Oğuz və Daş Oğuz bəylərini – bütün eli çağırıb bir yerə cəm edib, öz evini yəğma etdirirdi.

Haçan Qazan evinin yəğmalatsa idi, bircə arvadının əlindən tutub evindən çıxardı. Özü ilə heç bir şey götürməzdi, Nəyi varsa: malı, dövləti, xəzinəsi – hamısını camaat götürüb öz aralarında paylaşdırardı.

Bir dəfə yenə Qazan evini yəğmalatdırdı. Ancaq təkcə İç Oğuz camaatı yəğmaladı. Daş Oğuz bu yəğmada olmadı.

Daş Oğuzun başçısı, Salur Qazanıın dayısı, at ağızlı Aruz qoca bunu eşitdi. Çox pis oldu, incidi:

— Bax! Bax! İndiyə təkin haçan Qazan evini yəğməlatsa idi, bizimlə birlkdə yəğmalatdırardı. Ancaq indii bəs nə üçün biz də orada olmadıq. Qazan nə üçün yəğmaya bizi də çağırmadı? – dedi.

Cəmi Daş Oğuz qəhrəmanları sözü bir yerə qoydular, küsdülər, Qazanın yanına gəlmədilər.

Oğuzda Qılbaş adlı bir kişi var idi, Qazanın yaxın köməkçisi idi.

Bir gün Qazan ona dedi:

— Əyə, Qılbaş! Bu Daş Oğuz bəyləri daim bizə gələrdilər, bəs indii nə olmuşdur ki, bunlardan heç bizə gələni-gedəni yoxdur?

Qılbaş dedi:

— Bilmirsən nə üçün gəlmirlər? Çünki sən evini yəğmalatdırdığın vaxt Daş Oğuz camaatı burada olmadı. Səbəb budur.

Qazan:

Ədavət bağladılarmı? Eləmi? – dedi.

Qılbaş :

— Bəli, xanım! Qoy mən gedim onların dostluğunu, düşmənliyini bilim.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qazan :

— Sən bilirsən, gedirsən, get, – dedi.

Qılbaş bir neçə adamla atlanıb, yola düşdü. Çaparaq, qazanın dayısı Aruz qocanın evinə gəldilər.

Aruz qızıl günlüklü evlərini tikdirib, oğlanları ilə oturub söhbət edirdilər.

Qılbaş bağır basıb, Aruza salam verdi.

Yer göstərdilər oturdu. O, Aruzun ağzını aramaq, sınamaq məqsədillə dedi:

— Qazan yaman dara düşübdür, dedi ki, dayım Aruz durmasın, gəlsin, çox ağır çağımdır. Üstümə yağı gəldi, qızıl dəvələrimi bozlatdılar, köhlən atlarımı kişnətdilər, ağca qoyun sürümü mələşdirdilər, qaza bənzər qızımı, gəlinimi əsir apardılar. Mənim qara başıma gör nələr gəldi?

Aruz dedi: – Əyə, Qılbaş! Həmişə İç Oğuzla Daş Oğuz bir yerə toplaşardı, Qazan evini onda, yəğma- ladardı. İndi bizim günahımız nəymiş ki, bu dəfə biz yəğmada olmadıq? Qoy elə Qazanın başı həmişə darda olsun, dayısı Aruzu anıb dursun! Biz Qazanla düşmənik, bəlli bilsin! – dedi. Qılbaş burada söyləmiş, görək nə söyləmiş:

Əyə, sarsaq! Demək belə!
Mən səni sınardım elə,
Qazan səhər-səhər durdu,
Ala dağda çadır qurdu.
Üç yüz altmış altı igid,
Qonaqlığa toplandılar,
Yemək- içmək arasında
Sənin adını andılar.
Qazan dedi: « Nədənsə bəs,
Dayım Aruz bizə gəlməz?»
Dedim ki, mən varım gedim,
Səbəbini aydın edim.
Dostluqmu, düşmənlikmidir?
Yaxınlıqmı, genlikmidir?
İndi bildim nə imişsən!
Qazana düşmən imişsən!

Bunu söyləyib Qılbaş ayağa durdu, «salamat qalın!» – deyib atlanıb geri döndü.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Aruz qoca çox pərt oldu. Daş Oğuz bəylərinə adam göndərib hamısını çağırtdırdı!

— Əmən gəlsin, Alp Rüstəm gəlsin, Dönəbilməz Döləkuran gəlsin, qalan bütün qəhrəmanlar yığışıb gəlsinlər, – dedi.

Yaşıl çəməndə böyük çadırlar qurdurdu, atdan ayqır, dəvədən buğra, qoyundan qoç qırdırdı, böyük qonaqlıq düzəltdi, bütün Daş Oğuz bəylərini başına topladı.

Şirin yemək-içmək arasında Aruz dedi:

— Bəylər, bilirsiniz sizi niyə çağırmışam?

Dedilər:

— Nə üçün çağırmısan ? Bilmirik.

Aruz dedi:

— Qazan bizə Qılbaşı göndərmiş, elim-günüm çapıldı, qara başım darda qaldı, dayım Aruz öz adamları ilə mənə köməyə gəlsin, – demişdir.

Əmən soruşdu:

— Bəs sən nə cavab verdin?

Aruz:

— Mən də Qılbaşa dedim ki, əyə, sarsaq! Haçan ki, Qazan evini yəğmaladardı, Daş Oğuz camaatı ilə birgə yəğmaladardı, gedərdik yəğmalayıb, sonra Qazanı salamlardıq, geri dönərdik. İndi nə oldu ki, bizə xəbər vermədi, biz yəğmada olmadıq? Bundan sonra biz Qazana düşmənik, yəqin bilsin!

Əmən dedi:

— Çox yaxşı demişsən!

Aruz qoca:

— Siz indii nə deyirsiniz?

Dedilər:

— Nə deyəcəyik? Çünki sən Qazana düşmən oldun, biz də düşmənik.

Aruz araya Mushəf [*] gətirdi.

Bəylərin hamısı Müshəfə əl basıb, and içdilər.

Aruza dedilər:

— Sənin dostuna dost, düşməninə düşmənik!

Aruz qoca bütün bəylərə qiymətli xələtlər, bəxşişlər verdi, sonra dönüb dedi:

— Bəylər! Axı Beyrək İç Oğuzda Qazanın ən yaxın adamdır. O, bizdən qız almışdır, köygümüzdür. Gəlsin bizi Qazanla barışdırsın – deyib, çağıraq, gətirək. Bizə

---

[*] Mushəf – Quranın vərəqlərə yazılmış ilk variantı



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

tərəf oldu, yaxşı, olmadı, mən saqqalını tutaram, siz qılınclayarsınız. Aradan Beyrəyi götürərik, ondan sonra Qazan ilə işimiz xeyir ola!

Adam göndərdilər.

Beyrək öz otağında yoldaşları ilə yeyib-içirdi. Aruzdan adam gəldi, salam verdi. Beyrək əleyk aldı. Dedi:

— Xanım, Aruz sizə salam göndərdi və dedi ki, kərəm eləsin, Beyrək gəlsin, Qazanla bizi barışdırsın!

Beyrəyin nədən xəbəri vardı, Aruzun kələyini hardan biləydi?

Çox yaxşı, – deyib, ayağa durdu. Atını çəkdilər mindi, nə silah götürdü, nə dəmir donun geydi, qırx igidlə Daş Oğuza, Aruz qocanın yanına gəldi. Daş Oğuz bəyləri əyləşmişdilər. Beyrək salam verdi. Aruz Qoca öz yanında yer göstərdi, Beyrək oturdu.

Aruz Qoca dedi:

— Bilirsən, Beyrək, səni niyə çağırtdırdıq?

Beyrək dedi:

— Niyə çağırtdırdınız?

Aruz Qoca dedi:

— Bütün bu oturan bəylər Qazandan üz döndərmişdir. And içmişik, biz Qazana düşmənik.

Ortaya Müshəf gətirdilər:

— Sən də and iç! – dedilər.

Beyrək:

— Mən Qazandan üz döndərmərəm, ona xəyanət etmərəm! – deyib and içdi və söylədi:

Onun nemətindən çox-çox yemişəm,
Əgər bilməz olsam, gözümə dursun!
Atlarına minib, ata, demişəm,
Əgər bilməz isəm tabutum olsun!

Yaxşı qaftanların çox-çox geymişəm,
Əgər bilməz isəm kəfənim olsun!
Uca sarayına çox-çox girmişəm,
Bilməz isəm mənə Haqq qənim olsun !



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dönmərəm Qazandan, bunu bəlli bil !
Çörəyi tapdamaq kişilik deyil !

Aruz qoca qəzəbləndi, Beyrəyin saqqalından tutdu, bəylərə baxdı. Bəylər Beyrəyə qıymadılar.

Beyrək Aruzun xəyanətini görüb, yenə söylədi:

Əvvəldən bilsəydim Aruz, mən bunu,
Beləmi gələrdim sənin yanına.
Geyərdim əynimə dəmir donumu,
Silahdaşlarım da silahlanardı,
Qılıncım girməzdi onda qınına.

Polad papağımı başa qoyardım,
Süngümü, cidamı alardım ələ.
Yanıma salardım igidlərimi,
Gələrdimmi, əclaf, bilsəydim, belə?!

Alçaqlar hiyləylə qurarlar tələ,
Sən hansı alçaqdan öyrəndin, belə?!
Aldadıb ər tutmaq övrət vərdişi,
Övrətindən öyrəndinmi bu işi?

Aruz:

— Əyə! Hərzə-hərzə danışma! Özün öz qanına susama! Gəl and iç! – dedi.

Beyrək :

—Vallah, mən Qazanın uğrunda başımı qoymuşam! Mən Qazandan dönmərəm! İstəyirsən lap yüz parça et! – dedi.

Aruz bu dəfə daha da hirsləndi, Beyrəyin saqqalını bərk-bərk tutub, yenə bəylərə baxdı, gördü ki, kimsə gəlməz, özü qara poladüzlü qılıncını dartdı, Beyrəyin sağ ombasından çaldı, qara qanı şorladı. Beyrəyin başı çiyninə düşdü. Məclisdəki bəylər hamısı qalxıb hərəsi atlı-atına mindi, evinə getdi.

Yoldaşları Beyrəyi ölümcül vəziyyətdə götürdülər. Ata mindirdilər. Bir adam da tərkinə minib onu qucaqladı, çapıb qaçdılar. Öz evinə gətirdilər. Uzandırıb cübbəsini



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

üzərinə örtdülər. Beyrək axır nəfəsində yoldaşlarına söyləmiş, görəlim, xanım, nə söyləmiş:

Qalxıb, igidlərim, durun, tələsin,
O ağ-boz atımın quyruğun kəsin!
Aşın gen qobulu o Ala dağdan,
Daşqın çaydan keçin, durmadan bir an,
Qazanın yanına tez çapın gedin.
Beyrək öldü sənin yolunda, deyin.!
Ağ donu çıxarıb, qaralar geyin!

Deyin ki, namərd dayın Aruzdan adam gəlmişdi, Beyrəyi istəmiş, o da getmişdir. Bütün Daş Oğuz bəyləri bir yerə yığışmış, bizim işdən xəbərimiz yox imiş.

Ortaya Müshəf gətirdilər. Qazandan biz döndük, sən də dön, gəl and iç! – dedilər. Beyrək isə and içmədi: — Mən Qazandan dönmərəm, ona xəyanət etmərəm – dedi. Namərd dayın acıqlandı, qılıncı ilə Beyrəyi doğradı, al qana qərq etdi. Sabahkı gün əlim Qazanın yaxasında olsun, əgər mənim qanımı Aruzda qoyarsa!

Beyrək son gücünü toplayıb yenə dedi:

İgidlərim! Aruz oğlu Basat gəlməmiş,
İlxılarda köhlən atım kişnədilməmiş,
Sürü-sürü qoyunlarım aparılmamış,
Ağca üzlü qızım, gəlinim aparılmamış,
Varım- yoxum qarət olub, yəğmalanmamış,
Yurdum–yuvam dağıdılıb, el talanmamış,
Deyin Qazan dayanmasın, durmasın gəlsin!
Özü dayısından qanımı alsın!

Bunu deyib, Beyrək gözlərini həmişəlik yumdu. Atasına–anasına xəbər verdilər. Böyük evində-həyətində şivən qopdu. Qaza bənzər qızı-gəlini ağ çıxardı, qara geydi. Beyrəyin o vaxtkı adətə görə ağ-boz atının quyruğunu kəsdilər. Qırx-əlli igid qara geyib, göy sarındılar. Qazan bəyin yanına gəldilər, sarıqlarını yerə vurdular: Beyrək! – deyib, çox ağladılar, Qazanın əlini öpdülər:

— Sən sağ ol, Beyrək öldü, – dedilər. Namərd dayın hiylə ilə adam göndərib çağırtdırdı. Getdik. Bizi qarşılayıb Aruzun yanına apardılar. Sən demə, bütün Daş



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Oğuz bəyləri oraya yığışmış imiş. Əyləşdik, ortaya Müshəf gətirdilər:

— Biz and içib, Qazana düşmən olduq, – dedilər, – siz də and için. İçmədik, Beyrək dedi ki, mən Qazana xəyanət etmərəm! Onda namərd dayın qılıncını çəkib Beyrəyi oturduğu yerdə qılıncladı.

Sən sağ ol, xanım! Beyrək sənin uğrunda həlak oldu. Axır nəfəsində: «Qazan mənim qanımı Aruzda qoymasın», – dedi.

Salur Qazan bu xəbəri eşitdi, dəsmalını əlinə alıb, hönkür-hönkür ağladı. Yanındakı bütün adamlar da ağlaşdılar. Qazan durdu öz otağına girdi. Yeddi gün divana çıxmadı, ağladı oturdu. Axırda böyüklər, ağsaqqallar yığışıb gəldilər, bir yerə toplaşdılar, məsləhət-məşvərət etdilər.

Qazanın qardaşı Qaragünə dedi:

— Ey Qılbaş, get Qazana de ki, gəlsin çıxsın taxtında əyləşsin. Axı Beyrək yaxşı bir igid idi. Onun ucundan aramızdan getdi. Həm də vəsiyyət etmişdir:

«Mənim qanımı yerdə qoymayasız». Gedək düşməni cəzasına çatdıraq.

Qılbaş dedi:

— Sən qardaşısan, özün getsən yaxşıdır.

Axırda məsləhət oldu, ikisi birlikdə getdi. Qazanın otağına girdilər. Salam verdilər.

Qılbaş:

— Sən sağ ol, – dedi, – bir igid aramızdan əksildi. Sənin yolunda baş verdi. Deyirəm gedək qanını alaq. Həm də vəsiyyət etmişdir: «Qazan mənim qanımı alsın», – demişdir. Ağlamaqdan bir şeymi çıxar, durun gəlin yuxarı, – dedilər.

Qazan:

— Məsləhətdir, – dedi. – Cəbbəxanalar yüklənsin! Bütün igidlər silahlansın, yarağı ilə gəlsinlər, – dedi.

Bütün İç Oğuz qəhrəmanları yığıldı. Qazanın Qonur atını çəkdilər mindi. Dəstə bağlandı. Alaylar sıralandı. Borular çalındı, nağaralar döyüldü. Qoşun Daş Oğuz üzərinə hərəkət etdi.

O tərəfdən də Aruza xəbər çatdı: Qazan gəldi, – dedilər.

Onlar da qoşunu cəm edib Qazana qarşı gəldilər. Boz oq ilə Üç oq, yəni İç Oğuzla Daş Oğuz qarşılaşdılar.

Daş oğuzlular əks hücuma hazırlaşdı. Aruz :

Mənim İç Oğuzla qırımım, müqabilim Qazan olsun, – dedi.

Əmən dedi:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

— Mənim qırımım Ənsə qoca oğlu Oxçu olsun!

Hər biri özünə bir qırım – müqabil seçdi. Alay bağlandı, qoşunlar düzüldü. Borular çalındı, təbillər vuruldu.

Aruz qoca meydana at təpdi. Qazanı çağırıb :

— Əyə, sarsaq, sən mənim qırımımsan, çıx meydana!

Qazan qalxan yapındı, süngüsünü əlinə aldı, başı üzərinə çevirdi, dedi:

— Əyə, sarsaq! Xəyanətlə igid öldürməyin ləzzətini, necə olur, mən sənə dadızdıraram.

Qabaqca Aruz Qazanın üzərinə at saldı. Qılıncını çaldı, bir zərrə qədər də kəsdirmədi, yana keçdi. Növbə Qazana gəldi. Altmış tutam uzun cidasını qoltuq qısdı, Aruza elə çaldı ki, köksündən dəyib, yel kimi kürəyindən çıxdı. At üzərindən yerə saldı. Qardaşı Qaragünəyə işarət etdi:

— Başını kəs! Vətən xaininin cəzası budur! – dedi.

Qaragünə atdan endi, Aruzun başını kəsdi. Daş Oğuz bəyləri bunu görüb, hamısı atdan yerə endi. Gəlib Qazanın ayağına düşdülər Qazan onları bağışladı. Ancaq Beyrəyin qanını dayısından aldı. Aruzun evini çapdırdı, elini-malını yəğmalatdı, qarət etdi.

Daş Oğuz bəyləri and içdilər, Qazana sadiq olacaqlarını bildirdilər, elin, ölkənin ,xalqın birliyini bundan sonra pozmayacaqlarına söz verdilər. Qazan gəlib göy-ala çə-məndə çadırlarını tikdirdi, otaqlarını qurdurdu. Böyük bir şənlik məclisi düzəltdi. Yedilər-içdilər, şənləndilər. Dədə Qorqud məclisə gəldi. Qopuzunu əlinə aldı. İgidlərin qəhrəmanlığını öydü, qazi ərənlər başına nələr gəldiyini söylədi, belə dedi:

Hanı dediyim bəy ərənlər,
Dünya «mənim», deyənlər?!
Yer gizlədi, əcəl aldı,
Fani dünya yenə qaldı.
Gəlimli – gedimli dünya!
Son ucu ölümlü dünya,
Aqibət uzun yaşın ucu ölum,
Axırı ayrılıq.
Xeyir-dua verirəm, xanım:
Ölüm vaxtı gəldiyində Ttanrı
Səni arı imandan ayırmasın!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ağ saqqalı atan yeri uçmaq olsun!
Ağ birçəkli anan yeri behişt olsun.
Qadir səni namərdə möhtac etməsin!
Ağ alnında beş kəlmə dua qıldıq, qəbul olsun.
Amin, amin deyənlər didar görsün.
Yığışdırsın, duruşdursun günahınızı
Məhəmməd Mustafaya bağışlasın
Xanım hey!

## LÜĞƏT

### A

Ağ – böyük, yuxarı.
Ağa yal – yer adıdır; qoyun sürüləri saxlanılan yer.
Ağac – təxminən 7 km uzunluğunda məsafə ölçüsü.
Ağ yeləkli ox – böyük yeləkli ox.
Ağımaq – yuxarı qalxmaq.
Ağlağan – Azərbaycanın Gürcüstan sərhədində dağ.
Ağzı dualı – xeyirxah, xoş danışan.
Ağız – sərhəd.
Ağır – əziz.
Ağ saz – böyük qamışlıq.
Alınmaq – pərt olmaq; sarsılmaq.
Alp pəhləvan – qəhrəman.
Altıpərli gürz – qədim silahlardan biri.
Aman – bağışlama, əfv etmə.
Apul-apul – sağa-sola əyilə-əyilə yürümək.
Aramaq – yoxlamaq.
Arı – təmiz
Arqış – itmiş, səfərdən qayıtmayan şəxsin dalınca göndə- rilən, axtaran adam.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

At təpmək – atla hücum etmək.
Axır siparə – son surə, xətm.

**B**

Baba – ata.
Balqar – qoyunun bir cinsidir.
Ban – yüksək.
Ban banlatmaq – əzan çəkdirmək.
Bazlamac – sacda bişən fətir.
Bazirgan – tacir.
Bayağı – şit, yersiz, ədəbsiz.
Bayat – türk tayfalarından birinin adıdır – Bu adda Azərbaycanda bir neçə kənd vardır. Dədə Qurqudun mənsub olduğu türk boyu
Barınmaq – faydalanmaq.
Becid – sürətlə, diqqət.
Bədöy at– cins at.
Bəlgə – dayaq.
Bəhri qotaz – qədimdə Tibet öküzünün quyruğundan düzəldilib qəhramanların atının boynundan asılan qotaz.
Biganə – yad.
Boy boylamaq- dastan qoşmaq.
Boru – uzun şeypur.
Buğur – erkək dəvə.
Bunalmaq – gücdən düşmək.

**C**

Cariyə – ev qulluqçusu.
Cəri – əsgər, qoşun.
Cəribaşı – qoşun başçısı.
Cınlamaq – cingildəmək .
Cövşən – dəmir geyim.
Cübbə – üst geyimi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Cida – qədim silah növü.

## Ç

Çevirmək –mühasirəyə almaq.
Cici-bacı – Ana və bacı dərəcəsində istəkli qadın, qız.
Çoqumaq –müvazinətini itirərək yıxılmaq.
Çuğul –xəbərçi .
Çuğullamaq –gizli xəbər aparmaq.
Çuxa –keçi dərisindən üst geyim.

## D

Dadı – dayə, tərbiyəçi.
Daraqlıq – burada qadının tənasül orqanı
Dəbilqə – başa taxılan dəmir geyim.
Dəli-dolu – vuran-yıxan.
Dolab-dolab – bol-bol.
Didar – görünmək, görüş.
Donatmaq – geyindirmək.
Dövlət – ağıl.
Dövlətli – ağıllı.

## E

Ev çapmaq – ev yarmaq
Erkəc – cavan erkək qoyun.
Eş – sirdaş, kişinin arvadı.

## Ə

Ədük – çəkmə
Ərəfat – Məkkə yaxınlığında dağ adıdır.
Ərməğan – hədiyyə, bəxşiş
Əski – köhnə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## F

Fel –iş.

## G

Giran, giranca – böyük, yoğun.
Girəvə – fürsət.
Güvənmək – arxalanmaq .
Gülah – papaq.
Gülgəz – güllü, qırmızı.
Göygü – yeznə, kürəkən.

## H

Hərami –quldur.

## X

Xıdır İlyas – əfsanəvi müqəddəs şəxsiyyət, iki qardaşın qoşa çəkilən adı.
Xum – şərab küpü.

## İ

İraq – uzaq.

## K

Kəndi – öz, özü
Kərtmək – kəsmək.
Kəsmət kəsmək – qayda qoymaq, qiymət kəsmək.
Keyik – maral.
Kədu – pişik.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## Q

Qayın ox- qayın ağacından düzəldilmiş ox.
Qamət – boy-boxun.
Qanlı – gur.
Qanlı – qanlı – coşğun-coşğun.
Qant – 1) ağır, iri 2) sağlam.
Qaplan – pələng.
Qaraçuq – Azərbaycanda dağ adıdır.
Qarı – qolun biləkdən yuxarı hissəsi
Qarımaq – qocalmaq.
Qatı- bərk.
Qafil – xəbərsiz.
Qaftan – üst geyimi.
Qəza – qəfil hadisə.
Qələmçi – bəzəkçi, dırnaq boyayan,bəzək vuran.
Qəraib – qəribəliklər, əcayib
Qəhər – kədər.
Qıvramaq –cəld əl-qolunu tutmaq.
Qıyma – 1) gözün iki kənarının qısacağı, 2) sərxoş baxış, xumar
Qın – qılınc qabı, futlyarı.
Qızqardaş – bacı
Qobu– təbii uzun dərə, böyük arx (çay) və suyu qurumuş köhnə kanal.
Qoqan – başçı.
Qoyun ağılı – qoyun saxlanan yer.
Qolça qopuz – kiçik saz.
Qopmaq – çıxmaq, meydana gəlmək.
Qopuz – saz.
Quzğun – böyük yırtıcı quş.
Qurqurama qurşaq – müxtəlif materiallardan calaşdırılmış kəmər, toqqa.
Qurum – hörük; saç hörümü.
Qurumsov – keçə yanığı.
Qurşanmaq – geyinmək, silah taxmaq.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Quş – paqon (çiyni quşlu – çiyni paqonlu).
Quş quşlamaq – quş ovlamaq.

**L**

Ləşkər – qoşun.

**M**

Maya – dişi dəvə.
Mahmız – atlının dabanına taxılan xüsusi halqa.
Mədəd – kömək.
Məlhəm – dərman.
Mənəm-mənəmlik – lovğalıq, özünü öyüb başqasını bəyənməmək.
Mərə – əyə.
Miskin – yazıq.
Murad – 1) ləzzət, 2) arzu, istək.

**N**

Nər – erkək ürguclu dəvə.
Niqab – üz örtüyü .

**O**

Ovsar – dəvənin başına bağlanan ip.
Ovxurmaq – nəfəsli musiqi alətini ovxurmaqla səsləndirmək.
Ozan – aşıq.
Omuz – çiyin .
Ortac qır – yer adıdır.

**Ö**

Ögrəc – birillik erkək quzu.
Öynə – günorta.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Öc – əvəz.

**P**

Pəri – əfsanəvi qız, əfsanəvi insan növü.
Peyda oldu – göründü, üzə çıxdı.
Pinar – bulaq.
Pülüklü – sünnətsiz.

**S**

Saytal – seçmə.
Sancaq – vilayət, ordu bölüyü.
Sapand çatlatmaq –sapand atmaq.
Sərvər – başçı.
Sərmuzə – başmaq.
Sərpə-sərpə – vura-vura.
Sərt – bərk.
Səf – sıra.
Sinirli –qəzəbli, əsəbi.
Sonc – işarə, əlamət, möhür
Soy –nəsil, kök.
Soy söyləmək –əsli-nəsli öymə, çalıb oynamaq.
Sunc –nişan, bəxşiş.

**Ş**

Şami  çadır – Şamdan (Suriyadan) gətirilmiş çadır.
Şahbaz at – oynaq at.
Şökümək – dördayaqlıların dal ayaqları üzərində yerə çökməsi.

**T**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Tavul – təbil, musiqi aləti.

Taraqqa – xüsusi şəkildə kağıza barıt doldurub partlatmaq; eyni vaxtda bir neçə çomağı, bir-birinə vurmaqla səslənmə.

Təkur – burada düşmən tərəfin hakiminə deyilir.

Təng – dar.

Təpməcə – bərk vurma.

Tolama beşik – beşiyin bir növü.

Tolamazlama – gödək əl agacının tovlayıb atmaq.

Tüğ – dövlət bayrağı.

Tulu –quldur.

Tula – tula, döyüş, vuruş.

Tutam – yumruq həcmində ölçü vahidi, ovuc –cəngə.

Tümən – diviziya, on min.

**V**

Vaqiə – yuxu.

**Y**

Yağı – düşmən.

Yağmır – şiddətli yağış.

Yalçın – hamar; at yalı kimi.

Yasaq etmək – qadağan etmək.

Yelək – 1) oxun geri hissəsi, 2) bir göz görünüşlü məsafə, üfüq.

Yeləm-yapışqan – maqnit.

Yəğmalamaq – qarət etmək.

Yəxni – qovurma.

Yolu əlinə almaq – yolun düz istiqamətilə getmək.

Yond – at

Yortmaq – yüyürmək.

Yönlü – yaxşı, normal.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## Z

Zaval – bəla.
Zəqqutum – zəhər.
Zəhm – qorxu.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**MÜNDƏRİCAT**

Müqəddimə........................................................................ 3
Dədə Qorqudun öyüdləri ...................................................... 16
Buğacın dastanı ........................................................................ 22
Qaraçuq çobanın dastanı ....................................................... 41
Beyrəyin dastanı ...................................................................... 59
Burla xatunun dastanı ............................................................. 90
Dəli Domrulun dastanı .......................................................... 112
Qanturalının dastanı ............................................................. 123
Yeynəyin dastanı .................................................................. 143
Basatın dastanı ..................................................................... 150
İmranın dastanı ..................................................................... 164
Səgrəgin dastanı ................................................................... 178
Uruzun dastanı ...................................................................... 191
Salur Qazanın dastanı .......................................................... 205
Lüğət ...................................................................................... 215



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

# ŞAMiL CƏMŞiD
# iLK DƏFƏ 1980-Ci iLDƏ «MAARiF» NƏŞRiYYATINDA ÇAPDAN ÇIXMIŞ UŞAQLAR ÜÇÜN «DƏDƏ QORQUD DASTANLARI» KiTABINI 1999-CÜ iLDƏ TEHRANDA ÖZ ADINA NƏŞR ETDiRMiŞ RƏSUL İSMAYILZADƏYƏ PLAGiATLIĞINA GÖRƏ KƏSKiN ETiRAZINI BiLDiRiR.

**ŞAMİL CƏMŞİD (ŞAMİL CƏMŞİDOV) – 85**

Şamil Allahverdi oğlu Cəmşidov 1920-ci ildə indiki Ağcəbədi şəhərində anadan olmuşdur. 1939-1941-ci illərdə ordu sıralarında olmuş, ikinci dünya müharibəsində iştirak etmiş, döyüşdə yaralanaraq ordudan tərxis olunmuşdur. Birinci dərəcəli Vətən Müharibəsi Ordeni və medallarla təltif edilmişdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

1941-1956-cı illərdə Ağcabədidə və Ağdamda jurnalistika və müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur. 1957-ci ildən Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda işləyir.

Filologiya elmləri doktoru, folklorşünas–mətnşünasdır. Əməkdar elm xadimi, Azərbaycan Yazıçılar Birliyinin üzvü və Atatürk adına Türk Dil Qurumunun fəxri üzvüdür. Müharibə və əmək veteranıdır.

14 kitabın, o cümlədən «Kitabi-Dədə Qorqud»u vərəqləyərkən» (1969), «Kitabi-Dədə Qorqud» (1977) , «Kitabi-Dədə Qorqud»un tarixi-coğrafi tədqiqi və Drezden əl-yazmasının dürüstləşdirilmiş elmi mətni»(1999), «Azərbaycan yazılı dastan abidə-lərinin tədqiqi» (2000) monoqrafiyalarının və 200-ə qədər məqalənin müəllifidir.

Əsərləri ABŞ-da, Almaniyada, Türkiyədə, Rumıniyada, İraqda, İranda, Gürcüstanda nəşr olunmuşdur. Elmi yaradıcılığı haqqında türk, alman, rus, İran və İraq alimləri yüksək rəylər çap etdirmişlər.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com